**Loğman İbrahimoğlu**

# YAZMALAR
# YOZMALAR

*Satirik-hekayələr və felyetonlar*



**Avropada (Bolqarıstanda) Beynəlxalq terrorizmin qurbanı olaraq şəhid olmuş, "Fransada və Avropada Qafqaz Mərkəzi"nin prezidenti, Beynəlxalq "Yaşıl Qardaşlar" Partiyasının rəhbəri, "Qızılbaş" ictimai-siyasi qəzetinin Baş redaktoru, yazıçı-publisist, beynəlxalq mükafat laureatı mərhum qardaşım Eldar İbrahimin əziz xatirəsinə**

*"Satira" Beynəlxalq satira-yumor jurnalı" nın kitabxanasından*

**Bakı,**
**"Bayramoğlu Dizayn" - 2018**



**Loğman İbrahimoğlu:** “Yazmalar, yozmalar” (Satirik hekayələr və felyetonlar) “Satira” Beynəlxalq satira-yumor jurnalı”nın kitabxanasından . Bakı, 2017



**Baş məsləhətçi:** *Mirəli*
188 nömrəli tam orta məktəbin (Bakı şəhəri, Sabunçu rayonu) “Gənclərin çağrışaqədərki hazırlığı” fənni üzrə rəhbəri, ehtiyatda olan hərbi mayor



**Fəxri redaktor:** *Eldar İbrahim*
yazıçı-publisist,
Beynəlxalq mükafat laureatı



**Tərtib edəni:** *Rəhman Məmmədov,*
“Satira” Beynəlxalq satira-yumor jurnalı”nın
xüsusi müxbiri,



**Məsul redaktor:** *Novruz İdrisoğlu*
“Vətənin Zəfər yolu” qəzetinin baş redaktoru,



**Ədəbi redaktor:** *Nazim*
“Tərəkəmə “ İçtimai-elmi-ədəbi-publisistik
qəzetinin baş redaktoru



**Texniki redaktoru və korrektoru:**
*Ziyafət Abbasova*



**Nəşrin direktoru:** *Tapdıq Həsənli*
“Satira” Beynəlxalq satira-yumor jurnalı”nın baş redaktoru.

Kitabın içindəki karikaturalar “FEKO NEWS MAGAZINE” və “Kirpi” satira-yumor jurnallarından götürülmüşdür.
İmprovizasiya edəni L.İbrahimoğludur
Kompüter tərtibatçısı: **Kəmalə**
**Qrifli nəşr: Б L 9952636806**

## Müəllif haqda



**Loğman İbrahimoğlu (Məmmədov Loğman İbrahim oğlu)**

*Yazıçı-publisist.*

1956-cı ilin aprel ayının 17-də Cəbrayıl rayonunun Daşkəsən kəndində dünyaya göz açıb. 1960-cı ildən ailəsi ilə birlikdə Bakıda məskunlaşıb.

1976-cı ildə V.İ.Lenin adına Azərbaycan Dövlət Pedoqoji Institunun "dil-ədəbiyyat" fakültəsini bitirib.

O, uzun müddət müxalif - siyasi lider kimi siyasi mühacir statusu ilə xaricdə-Fransanın Paris şəhərində yaşamışdır. Fransada yaşadığı müddətdə o bir çox dil kurslarını bitirərək fransız, alman, ingilis dillərini öyrənmiş, eyni zamanda fransız dilində beynəlxalq jurnalistika, beynəlxalq kadr və idarəetmə yüksək dövlət ali kurslarını bitirərək Multimedia redaktoru və Avropa üzrə kommersiya assistantı sertifikatlarına yiyələnmişdir.

Böyuk qardaşı siyasi mühacir Eldar İbra-

himlə (Məmmədov) - (yazıçı-publisist, ”Beynəlxalq “Yaşıl qardaşlar” Partiyasının rəhbəri, ”Qızılbaş” ictimai-siyasi qəzetinin baş redaktoru, Beynəlxalq mükafat laureatı) rəsmi olaraq təsis etdikləri “Fransada və Avropada Qafqaz Mərkəzi” adlı ictimai- mədəni-siyasi Mərkəzin təsisçisi və vitse-prezidenti (Prezident-Eldar (İbrahim) Məmmədov) olmuşdur.

”Qafqaz Mərkəzi” Qafqaz həqiqətlərinin dünya ictimaiətinə çatdırılmasında, bölgədə sülhün qorunmasında misilsiz rol oynamışdır. Yalnız bir faktı qeyd etmək yerinə düşərdi ki, “Mərkəz”in fəaliyyəti zamanı iki qardaş ”video-kasset” kimi, “Qafqazda beynəlxalq Terrorizm” mövzusunda hazırladıqları müsahibədə Amerika Birləşmiş Ştatlarının Nyu-York şəhərində 2001-ci ilin sentyabrın 11-də baş vermiş “Qoşa qüllə” qanlı faciəsəni və onun üzərində oynanılacaq senariləri (Tora Bora, Ben Laden və s.) hələ üç il öncə-1999-cu ildə dünya ictimaiətinə xəbər verərək (daha sonra hadisə törənməmişdən 3 ay əvvəl) dünyanı üçüncü dünya müharibəsindən xilas etmişlər (Bu “video-kasset” dünya ölkələrinin bir çoxunun, o cümlədən Amerika Birləşmiş Ştatlarının(Pentaqonun) “Qızıl fonduna” daxil edilmişdi.

Loğman İbrahimoğlu 1985-ci ildən SSRİ Jurnalistlər İttifaqının, Beynəlxalq Jurnalistlər İttifaqı Konfederasiyasının və Beynəlxalq Yazıçılar Birliyi Cəmiyyətinin üzvü (1995), Türkiyyənin təşkil etdiyi Beynəlxalq yarışmanın (şeir şöləni) iki dəfə qalibi (1994), eləcə də Birləşmiş Millətlər Təşkilatının, ”Humeine reite” Beynəlxalq İnsan Hüquqları Təşkilatının, PEN müxalif və təqib olunan Beynəlxalq Yazarlar Birliyinin, habelə Beynəlxalq Amnistiya Təşkilatının müdafiəçisidir. Böyük Britaniya və Niderland krallığının himayəsində olmuşdur.

Rus, fransız, alman, bolqar, türk dillərini mükəmməl bilir. İngilis və fars dillərində nəzəri biliyə malikdir.

Azərbaycanda olarkən o, Sovet İttifaqının Murmansk, Arxangels vilayətlərində hərbi xidmətdə olmuş, müxtəlif illərdə respublikamızda dil-ədəbiyyat müəllimi, böyuk şairimiz S.Vurğunun ev-muzeyində elmi işçi kimi fəaliyyət göstərmişdir. Burada işlərkən “Deyin, gülün övladlarım” adlı ədəbi birliyin təşkilatçısı və rəhbəri olmuşdur. Respublikanın Radio və Televiziya Komitəsində əməkdaşlıq etmiş, C.Cabbarlı adına “Azərbaycanfilm” kinostudiyasının, ”kinoaktyor” teatrında rejissor assis-

tenti, iki dildə çıxan “Şahmat” - “Şaxmatı” qəzetində Azərbaycan şöbəsinin məsulu, “Kirpi” satira-yumor jurnalında böyük ədəbi işçi, eləcə də”Qızılbaş” ictimai-siyasi qəzetinin redaktoru işləmişdir.

Eyni zamanda o, Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Viza və Pasport işləri üzrə Baş Idarəsinin keçmiş polis kapitanı və inspektorudur.

Hal-hazırda o, “Satira”beynəlxalq satira-yumor jurnalının baş redaktor müavini kimi fəaliyyət göstərir.

## “Uğursuz” və “talehsiz” satira yazarı
## Tapdıq Həsənli



*“Satira” Beynəlxalq satira-yumor jurnalının baş redaktoru.*

Mənə elə gəlir ki, dünyanın hər yerində satirik yazarlar “uğursuz” və “talehsiz” yazıçılar hesab olunur. Böyük fransız yazıçısı Jül Renardın təbirincə desək: “çünki onların tənqid hədəfləri münsiflər heyətində əyləşirlər”.

Belə “uğursuz” və “talehsiz” insanlardan biri də azərbaycanın istedadlı satira yazarı loğman İbrahimoğludur.

Bir zamanlar, yəni “sovet” dövründə “Kirpi” satirik jurnalında çalışan L.İbrahimoğlu öz oxucularının sevimlisi kimi onların rəğbətini qazansa da, lakin amansız “taleh” onu qürbətə atmış, öz oxuçularından uzaq salaraq unutdurmuşdur.

Özünün dediyi kimi, o dövrdə azərbaycan rəhbərliyinin “xəyanətkar” siyasəti ilə razılaş-

mayan Loğman qardaşı ilə birlikdə (qardaşı ünlü yazıçı-publisist, “Qızılbas” ictimai-siyasi qəzetinin baş redaktoru Eldar Ibrahimdir (Məmmədov) 1994-cü ildə mühacirət etmiş və siyasi mühacir statusu ilə fransanın Paris şəhərində məskunlaşmışlar.

Hər iki qardaş 1997-ci ildə rəsmi olaraq təsis etdikləri “Fransada və Avropada Qafqaz Mərkəzi” beynəlxalq ictimai-siyasi-mədəni Mərkəzinə rəhbərlik etmişlər (prezident Eldar Ibrahim (Məmmədov), vitse - prezident və təsisçisi l.İbrahimoğlu).

Loğman Ibrahimoğlu Fransada hakimiyyətdə olan ermənilər tərəfindən böyük basqılara, o cümlədən dünya terrorzmin “yuvası” sayılan fransız dövləti tərəfindən işgəncələrə məruz qalıb gözünün birini itirsə də, lakin öz əqidəsindən dönməmiş, Qafqaz xalqları barədə olan həqiqətləri dünya ictimaiətinə çatdırmış və bir sıra qanlı müharibələrinin dayandırılmasında mühüm rol oynamışdır.

2014-cü ildə Mərkəzin işi ilə əlaqədar olaraq onlar Bolqarıstana səfər etmiş, səfər zamanı qardaşı E.Ibrahim beynəlxalq terrorizmin qurbanı olaraq şəhid olmuşdur.

Məhz bu səbəbdən o, qardaşının cənazə-

sini azərbaycana gətirərək öz doğma vətəninə dönmüşdür. Çox təəssüf ki, vətənində də ona heç bir qayğı göstərilməmiş, Azərbaycan dövləti tərəfindən təqiblərə üzləşərək, öz talehinin ümüdünə buraxılmışdır.

Lakin o, özündə güc taparaq bu vəziyyətdən çıxa bilmişdir. Azərbaycanda yaşadığı üç il müddət ərzində o əvvəlcə "Kirpi" satira - yumor jurnalında çalışmış, "Exosivilizasiya" jurnalının fəxri heyətinə üzv seçilmişdir. Hal-hazırda 2016-cı ildə onun birgə təşəbbüsü və iştirakı ilə təsis olunmuş "Satira" (təsisçi-T.Həsənli) beynəlxalq satira-yumor jurnalında baş radaktor müavini kimi fəaliyyət göstərir.

"Satira" beynəlxalq satira-yumor jurnalı təşəbbüs olaraq onun əksəriyyəti hələ sovet hakimiyyəti illərində respublikamızın ayrı-ayrı qəzet və jurnallarında dərc olunmuş satirik hekayə və felyetonlarını "Satira" beynəlxalq satira-yumor jurnalı"nın kitabxanasından" rubrikası ilə nəşr etməyi nəzərdə tutmuşdur. Elə ona görə də dostum Loğman İbrahimoğluya "uğursuz" həyatında "uğurlar", "talehsiz" satira yolunda xoşbəxt taleh arzulayıram.

## Öz satira mülkünun şahzadəsi Rəhman



*"Satira" Beynəlxalq satira - yumor jurnalının xüsusi müxbiri.*

Xalqımızın milli mədəniyyətini, adət-ənənələrini, varlığını, dilini-dinini, eləcə də torpaqlarımızın bütövlüyünü qorumaq, onları tapdalayıb ayaqlar altına salanlara, azərbaycanlı adını rüsvay edənlərə qarşı mübarizə aparmaq hər bir yazıçının, alimin, sənətkarın, rəssamın, eləcə də, Azərbaycan xalqının vəzifəsidir. Bu vəzifə – müqəddəs sayılır.

Bu yolda hər bir satirikin payına daha çox "yük" düşür. Çünki o, bu "cinayətkar"ları üzə çıxaran, ifşa edib cəmiyyətə tanıdan-baxın, xalqın malını-mülkünü yeyən, dağıdan budur, xalqın "düşməni" bunlardır, "-deyən yeganə təhqiqatçıdır. Lakin çox təəssüf ki, dövlətin apardığı yanlış siyasət üzündən artıq "xirtdəyə"cən problemlərlə aşıb-daşan respublikamızda maddi səbəbdən bir dənə də olsun

ciddi satirik orqan qalmamışdır.

Dünyaya Ə.Haqverdiyev C.Məmmədquluzadə, M.Ə.Sabir, H.Zərdabi F.Köçərli kimi, "korifeylər" yetişdirən milli tənqidimizi, milli satiramızı, milli yumorumuzu, müstəqillik dövründə qoruyub saxlamaq və onu inkişaf etdirmək dövlətin təxirəsalınmaz işi olmalı və dövlət bundan qorxmamalıdır. Xalqın gündəlik həyatında baş verən qüsur və nöqsanları üzə çıxarmaq, cəmiyyətimizin və müstəqilliyimizin inkişafına mane olan "mikrobları" aşkar edərək ifşa etmək məhz satirikin üzərinə düşür .

Klassik satira və yumor yazarlarının, eləcə xalq ədəbiyyatının və milli adət ənənələrin incəliklərininə yiyələnmiş Loğman Ibrahimoğlu öz yazılarında bu incəlikləri və üsulu saxlamağa çalışır. Onun yazıları həcmcə kiçik olsa da, cəmiyyətdə olan eybəcəlikləri, nöqsanları, satirik bir dillə ifşa etməyə kifayət edir.

Başqa sözlə o, bu ağrıları-acıları özününküləşdirərək tənqid hədəfinə çevirib "gülməyi" bacarır, Klassik dahilərin dediyi kimi, öz nöqsanlarını, öz eybəcərliklərini görən və ona qarşı gülməyi, ağlamağı bacarmayan xalq ölümə məhkumdur, daha doğrusu ölmüş xalqdır. Biz, terrorizmin və nadanlığın cövlan etdi-

yi, insan qanına susayıb qan tökənlərin, bu qan hesabına özlərinə aşılmaz qalalar tikdirənlərin, milyardlar toplayıb xalqı ac qoyan "qansız" ların cəmiyyətində yaşamışıq və yaşayırıq da. Belə "cəmiyyətdə" satirik söz demək olduqca çətindir, onların qurduğu "divar"ları aşıb onu xalqa çatdırmaq isə çətindən də çətindir.

Məhz loğman bir yazıçı olaraq belələrindəndir. O "satirik" söz deməyi, "hədəfi" nişan alıb vurmağı, müxtəlif formalarla "həqiqəti" oxuculara çatdırmağı bacarır.

İstər felyetonlarında, istərsə hekayələrinə tapdığı formalar, seçdiyi "qəliblər" heç biri bir-birinə bənzəmirlər. Obrazların, personajların, seçdiyi hədəflərin əhval-ruhiyyəsinə və ruhuna uyğun olaraq dəyişirlər. Hələ gəncliyindən öz üsyankar düşüncəsi və yazıları ilə tanınan L.Ibrahimoğlunun zülmə və zülmkara qarşı barışmazlığı onun həyatının leytmotivdir.

Onun fikrincə, hər bir xalq, haqsızlığa qarşı öz etirazını bildirməyi, öz səsini ucaltmağı, "hayqırmağı" bacarmalıdır. Köləlik mənqənəsində boğulan, haqsızlığa qarşı səsini ucalda bilməyən cəmiyyət ölmüş hesab olunur. Bu xalq ruhsuz, düşüncəsiz müqəvvadan başqa bir şey deyildir. Loğman öz səsini ucaltmasa da,

necə deyərlər “hayqırmasa” da, onun yazılarının hər birində onun hayqırtısının səsi, ürəyinin döyüntüsü eşidilir.

O, milli nəyimiz varsa yox etməyə çalısan əsli-kökü bilinməyən, avropada artıq “dəb”dən düşmüş, “dəb”ləri zorla azərbaycan xalqının gündəlik həyatına soxmağa “çalışan”lara qarşı amansız və barışmaz mövqədə durur.

Məktəblərimizdə hökm sürən özbaşınalığ, müəllimlərin savadsızlığı və makinasiyası, təhsil proqramlarının qeyri-sabitliyi, metodik təlimin olmaması, loğmanın əsil tənqid hədəfləridir. Bir zamanlar “Qarabağ” faktoru ilə müxalifət kimi meydana atılaraq hakimiyyəti ələ almış, dövlətə gəldikdən sonra, qaçaq-quldura çevrilərək xalqı soyanlar, onun torpağını-daşını kimə gəldi su qiymətinə satanlar, azərbaycan torpaqlarını keçilməz hasarlara alaraq öz “dədə malı”na çevirənlər, onun fikrincə ermənidən daha dəhşətli, daha qorxulu düşmənlərdir.

Məhz belə yerdə, satirik qələm, satiraçı lazım olur. Bir sözlə, Loğman öz adət ənənələrimizi, milli folklorumuzu dərindən bilir və öz satirik qələmini bu yolda işlədir. O öz əqidəsinin silahdaşı, öz yolunun yol yoldaşı, öz satira mülkünün şahzadəsidir.

## Eldar İbrahim

*yazıçı-puplisist,*
*beynəlxalq mükafat laureatı*
*“Fransada və Avropada*
*Qafqaz Mərkəzi”nin Prezidenti*



### Xoruz və fərələri

Nə zaman ki, xoruzun
Yox idi vəzifəsi,
Nə özü tanınırdı,
Nə də çıxırdı səsi.
Fərələrlə baş-başa
Qalmışdı tənha hində.
Tülkü qorxusu vardı
Onun xoruz içində.

Onun xoruz içində
Qorxu aşıb-daşırdı,
Tülkülər oynaşırdı,
Çaqqallar ulaşırdı.
Düşəcəkdi az qala
Xoruz yorğan-döşəyə,
Birdən əmr verildi:
-Xoruz şirin yerinə
Rəis gəlir meşəyə.
Fərələr sevincindən
Boğazını yaşladı,
Meşədə bir çaxnaşma
Başladı, nə başladı.
Pələnglər diz çökdülər,
Nərildəyib son kərə.
Canavarlar qorxudan
Qısıldı tülkülərə,
Xoruz çıxdı kürsüyə,
Xoruz da xoruzdu , ha!
Dedi;
– Şirlər diz çöksün,
Dövran başqadır daha.
Başqadı planlarım,
Başqadı işim, yerim.
Pələnglərin yerinə
Qoyulsun fərələrim,

Fərə bazar darğası,
Fərə eşik ağası...
Fərə öküz, fərə nər...
Xoruzun nəzərində
Hər bir şeyə qadirdi
Ətcəbala fərələr.
Fərələr vəzir oldu,
Fərələr nazir oldu...
Fərələr hazır oldu,
Təzə vəzifələrə.
Hər stol arxasında
Oturdu bir ağ fərə
Ağ fərə, maya fərə,
Doldu nazirliklərə,
Qalxdı boş kürsülərə.
Fərələşdi tülkülər,
Fərələşdi çaqqallar,
Fərələşib at gəldi,
Fərənin qulluğuna
Şirlər ikiqat gəldi,
Fərə ola bilməyən
Seçilmədi səfildən.
Deyirlər bir aslan da
Şir balası yerinə
Fərə doğub qəfildən.
Fərələşdi büsbütün

Şirlikdən alçalanlar.
Xoruz qalxdı kürsüyə,
Gördü fərə donludur
Salonda əl çalanlar.
Boğazını yaşladı,
Fərələri tərifə
Başladı, nə başladı.







*Loğman İbrahimoğlu*

# YAZMALAR, YOZMALAR...



Vəzifəlini tənqid etmək olmaz. Çünki onlar yeddi qardaş olurlar. Qalanları harda olsa, həmin adamı axtarıb tapıb xata yetirərlər.

***

Sahə müvəkkilinin həyətə gəlməsi xeyirliyə deyil, cibini bərk tut.

***

Xəstəyə baş çəkməyə gedəndə iynə, dərman apararlar.

***

Yuxuda lampa görmək Kubinkaya getməkdir. Çünki lampanı ancaq orda tapmaq olar.

***

Əlinin içi qaşınanda, bil ki, bahalıq olacaq.

***

Evini təmir elətdirərkən, görüm-baxım eləməsən çilləyə düşərsən. Düz yeddi il tikinti materialı tapa bilməzsən.

***

Xəstəxanadan çıxana kimi zahının başının altından pulunu əskik eləmə, yoxsa “cin” uşağa xətər yetirə bilər.

***

Su gəlməyəndə mis qabları odda qızdırıb, bərkdən döyəcləyərlər ki, rayon rəhbərləri eşitsin.

***

Kanalizasiya dolanda, küçələri su başına alıb gedəndə qollarını çırmayıb deyirsən:

*Mən anamın ilkiyəm,*
*Ağzı qara tülküyəm.*
*Açıl, açıl, ay kuful*
*Açıl, açıl, tez açıl.*

Söz var ki, onda şikayətçinin, səsi əlaqədar təşkilatların qulağına çatır.

***

Evdə qab-qacaq bulaşanda, su gəlməsə, gərək bir salavat çevirəsən... Sonra isə deyəsən:

*Misdən arı,*
*Sudan duru.*
*Bu elə dünyadır ki,*
*Toxun acdan nə xavarı?*

Deyilənə görə, onda qab-qaçaq tərtəmiz olur.

***

Dişin ağrıyanda diş saldırmağın bahalığını nəzərə alıb gərək belə deyəsən:

Dişim-dişim, ağrıma,
Allah, mənə qarğıma.

Belə deyəndə, dişin ağrısı xırp kəsir.

***

İş dalınca yollanarkən, gərək əvvəlcədən yanına gedəcəyin adamın dilini, ağzını bağlayasan. Bunun üçün qara bıçağı tutursan ağzına sarı. Qurandan bir ayəni üç dəfə oxuyub üfürürsən. Onda sözünün kəsəri olur. Buna xalq arasında “qurd ağzı bağlamaq” da deyirlər.

***

Maşın alanda, bəd nəzərdən qorunmaq üçün şüşəsinə bir “əllilik” yapışdırırsan. Onda maşının xatadan, bəladan, milisdən, cərimədən uzaq olur.



## ...Məəəə!!! Mooo!! D-üü-d! Dü-üüü-üd!!!

*(Layla-oxşama)*



“Süd-süd”-deyib, “malış-malış” qışqırıb, nə ağlarsan, nə sızlarsan, gözümün işığı oğul, evimin yaraşığı, oğul! Ağlamaq sənəmi qalıb? Sızlamaq sənəmi qalıb?!

Heç olmasa öz qoçu əmilərinə oxşa, mənliyini itirən əmilərinə. Torpaqlarımızı qarış-qarış satan əmilər, erməniləri başımıza mindirən əmilər, heç ağlamadılar. Vətənimizi iki yerə böldülər, heç ağlamadılar. Əlifbamızı dəyişdilər, heç ağlamadılar. 37-də yaxşı oğulları güllələdən əmilər, heç ağlamadılar. Neftimizi, pambığımızı... Dilim dişimin altına, hansını deyim?

Nə ağlarsan, nə sızlarsan, gözəl balam, şirin balam?! Gəmilər uzaqlara üzdü. Balıqlar kürüsünü uzaqlara tökdü... Bax, görürsənmi, əmilər deputat seçildi. Respublikamız suverenlik qazandı. Dilimiz özümüzə qayıtdı. Şəkər balam, nökər balam, oğul balam, dilsiz balam. Qul balam, quldur balam-nazir balam. Bələyi bağlı

balam. Yiyəsiz qalan ölkənin yiyəsi balam. Düşmən çəpərim, ayağı ağır balam! Sən dünyaya gəldin-gəlmədin hər şey qəhətə çəkildi. Bazarları, dükankları gəzdim. Kəndləri, rayonları gəzdim... Sənə süd tapa bilmədim.

Anan sənə süd verməkdən üz döndərdi. İnəklər tətil etdi. qoyunlar nümayişə çıxdı. Toyuqlar yumurtadan kəsildi. Ermənilər inəkləri oğurlayıb apardılar. Mağazaların südü qurudu. Amma alverçilər süd gölünün içində üzürlər. Südün biri inək qiymətinədir, bala!

RAYPO əmilər, OBEXSS əmilər, alverçi əmilər, nazir əmilər, südü haram əmilər, səni südsüz qoyan əmilər. sənin südünə qıyan əmilər... Bəy əmilər, xan əmilər-xalqı soyan əmilər, ispolkom əmilər, raykom əmilər, -rüşvətxor əmilər, kalan əmilər, sapa beşillik düzən əmilər, plan əmilər, bahalıq salan, yalan danışan əmilər... Əə əmilər, pxı əmilər, kaka əmilər. Görüm, onların inəklərinin südü qurusun, süd gölünə düşüb boğulsunlar. Bax, onlardır bütün bunlara səbəbkar, bala, onlardır. Ak eliyəcəyəm onları, ak, ak, ak!

Gözlə, evimin dirəyi, gözlə! Gözlə ürəyimin təpəri, gözlə, bir az da gözlə. Bir gün də gözlə. Bir ay da gözlə. Bir il də gözlə... Yaz gələcək,

yonca bitəcək, inəklər örüşə yola düşəcək, qoyunlar örüşdən qayıdacaq, arvadlar onları sağacaq, maşınlara yükləyib yola salacaq...

Ay maşın, g-əəə-ll!

Ay inək, g-əəə-ll!

Ay qoyun, g-əəə-ll!

Balamı ağlamağa qoyma. Balamı südsüz qoyma. Kərə qoyun, kürə qoyun, şişək gəl, köşək gəl... Alabaş, qarabaş...Məəə!!! Mooo!! D-üü-d! Dü-üüü-dd!!



## PAPAQ



İlahi bu necə adamdır. Görəsən hardan peyda oldu? Qırsaqqız olub yapışdı yaxamdan. “Voladarski” düyməsi kimi qopmaq bilmir ki, bilmir. Mən gedirəm, o da gedir. Dayanıram, o da həmçinin. Fikrim dağı-aranı gəzib dolanır. Görünür yenə də dalımca “quyruq” salmışam.

Ürəyimə min guman gəlir: son günlər o qədər “xoruz” buraxmışam ki, yəqin ki, hansısa-

hardasa “xaric” banlayıb. Çoxları dediyi kimi, mənə nə gəlir dilimdən gəlir. Dilim başıma bəladır. Harda, kimin yanında nə gəlir sarsaqlayır. Yəqin ki, onlardan biri bunların qulağına çatıb.

Ayaqqabımın bağını bağlamaq bəhanəsi ilə əyilib baxıram: üz sarı, kiprik sarı, qaş sarı, saç sarı...

Zalım oğlu, elə bil sarılıq azarına mübtəla olub. Üzündə az da olsa həyat nişanəsi yox!... Ürəyimdə ona yazığım gəlir. Elə bil heç buna evlərində arvadı çörək-zad vermir. Hülqumu boğazından asılı qalıb... Lap bir zamanlar məni danışdıran kişiyə oxşayır, _ Dövlət təhlükəsizlik Komitəsinin nümayəndəsinə. Çoxdan ki əhvalatdır. Heç yada salıb qan qaraltmağa dəyməz... Tələbə vaxtı istədim özümü bir balaca vətənpərvər göstərim, alınmadı... Sən demə divarların da qulağı varmış... Hər halda, bunu azdırmaq lazımdır. Ancaq necə? Zalım oğlunun gözü alıcı quş kimi məni uzaqdan alıb. Kiprikləri ilə havada od qapır. Addımlarımı yeyinlədirəm, o da yeyinlərdir, yavasızdıram, o da...

Nə həyasız və sırtıq adamdır. Beləsinin ancaq toppuzu çatmır. Bəlkə ayaq saxlayıb ağzımdan çıxanı döşəyim qabırğasına. Deyim ki, eyy... nə istəyirsən məndən. Niyə toy toğ-

lusu kimi düşmüsən dalımca?! -Yox, bu yaxşı düşməz. Bərkə düşsə cavab verəcək ki, əcəb adamsan, məgər dövlətin küçəsini də gəzmək olmaz. Bəlkə onu da mənə yasaq edəsən?! Kef mənimdir istəyirəm belə gedərəm, istəyirəm elə... Yaxşı, bəs onda nə edim mən?! Hər halda, bu şoqərib balasını əkmək lazımdır başımdan.

Mən buraları yaxşı tanıyıram: bir az qabaqda dalan gəlir. Elə ki, ora çatdım tüpürərəm dabınıma. Tini burulub adamlara qatışaram. Qoy qalsın qırıla-qırıla... Bircə o dalana tez çatsaydım. Zalım oğlu elə bil Tofiq Dadaşovdur, fikrimi uzaqdan oxuyur. Bu da o darısqal küçə...-Hə, cəsarətli ol görüm... tərpən görüm... ya mədəd! Asta qaçana görüm göy imam qənim olsun... tap-tup-tupp-tarapp...

Bu andıra qalmış, ayaqabılar da hərəsi yarım puddur... Bu zəhrimar papiros da məni lap təgənəfəs edib. Belə getsə ... xaxx, xuxx.. tfu... bax adama belə gələk gələrlər ha! Bu da enli küçə. Dayanıb rahat nəfəs alaraq arxama baxıram. Şükür allaha, axır bu qəmişdən də canımı qurtardım. Doğrudur, bəzi adamlar təəccüblə mənə baxırlar. Amma nə olsun? –Koroğlu deyib ki, igidlik ondursa, doqquzu qaçmaqdır. Başımı qaldırıb azad və şən yoluna davam etmək istə-

yirəm. Yerimdəcə elə bil məni elektrik cərəyanı vurur. Bu nədir "o" qarşıdakı kioskun qarşısında mənə baxıb gülümsünür. Elə bil nə vaxtdan bəri burda dayanıb yolumu gözləyirmiş. Vələs ağacı kimi yolumun ağzında bitib. Sanki bu dəqiqə qırğı kimi üstümə atılacaq.

Ay allah, bu nə bəladır düşdüm. Görəsən kimə neyləmişdim. Kimə nə yamanlığım keçmişdi. Həmişə səhər-səhər Fatimanisə qarı yolumun üstünə çıxanda işlərim yaş olur...

Yana çevrilib sağ tərəfə buruluram. Ağlıma qəribə fikirlər gəlir: bir az qarşıda ayaqyolu var. Özümü ora çatdırıb girib otururam. "Qoy" nə qədər istəyir gözləsin. Onsuz da burdan heç yana tərpənən deyiləm. Axırda yorulub özü gedəcək...Burda həm yerim rahatdır, həm canım... qonşu kabinələrdə eşidilən vıyıltılara, gurultulara, tırıltılara qulaq asa-asa ləzzət alıram. Elə bil davalı kinodasan. Gözünü yum xəyala dal özünçün. Keçmişini, gələcəyini gözlərin önündə canlandır. Mənim keşmişim nə olub? ...!!! ömrüm boyu iylənmişəm. Sıxılıb, süzülüb yalnız bir deşikdən çıxmışam. Bəs gələcəyim?! Orda da qaranlıq deşikdən savayı bir şey görünmür. Əl atıb cibimdəki kağızları eşələyirəm. Bu, arvadımın "sifariş" kağızıdır. Ceşməyimi taxıb

nəzərdən keçirirəm: əvvəlcə onun hədələri gəlir: “Dediklərimi almağı unutma!”, “Bax pulu itirmə!” vəs. və i. a.

Sonra isə səliqə ilə siyahı:

A-3 kq

T-2əd

Lap şifrələnmiş kağıza oxşayır. Birdən bunu mənim cibimdə tutsaydılar mən nə edərdim?! Sonra başlanacaqdı sorğu-sual. Məsələn, soruşacaqdılar ki, bəs niyə alma yox, A?! Özü də irisindən. Görəsən bu T nədir? Özü də 20 ədəd., - top, tapanca nə istəsən ad qoymaq olar. Axı onlar hardan bilsinlər ki, mənim qadınım ağ Turpun dəlisidir. Ancaq neyləmək olar ki, bir az səbirsizdir. Məhz onun səbirsizliyi olmadımı məni bu günə qoyan? Tanış olandan düz iki saat sonra yapışdı yaxamdan ki, sənsiz yaşaya bilmirəm, hər gününə razıyam, hər dərdinə hazıram... Hardan bilirdim ki, axırı belə olacaq. Yarpaq dolması kimi yağlı dilinə sıvıldım.

Axırı da bu oldu ki, birinci uşağı səbirsizlik edib 8 aya doğdu. Görünür özünü Məryəm anaya oxşatmaq istəyirmiş, Cəbrayıl qoltuğundan üfləmişmiş...

Tez kağızı ləğv etdim.

Kabinənin o biri üzündə böyük növbədir:

– Tez ol çıx da.. Elə bil Eyfel qülləsində oturub.

Kimsə ona cavab verir:

– Niyə sındırırsan?

– Birdən yazıq ölüb edər. Onsuz indi gücənmək o qədər çətinləşib ki...

Dartırlar, öskürürəm. Öskürürəm, dartırlar... O biri kabinə də də öskürək səsi eşidilir.

Görünür mənimki elə buracan imiş. Elə bu saat qapını sındıracaqlar.

İki nəfər yapışacaq qolumdan-heç şalvarımı bağlamağa da imkan verməyəcəklər.

Sonra it maşına otuzdurub o ağ evin qarşısına (onu yalnız kənardan görmüşəm. Quş-quşluğu ilə ora səkə bilməz). Sonra qolumu qanarıb lazımsız bir əşya kimi itələyəcəklər içəri. Sonra... Qarşıya bir yaşıl qapı çıxacaq... Sonra bir dəmir qapı... Sonra birini də acacağıq. Bu qapılar da heç qurtarmaq bilmir ki, bilmir.

Zalım balaları, gör bir qapını nə günə qoyublar? Kimsə, kimisə görüşə çağırır: "Bax saat üçdə gözləyəcəyəm ha"... görüş təxirə salınır... Bu nə ölçü vahididir belə?.. Dünyanın nə əcaıb işləri var gətirib məni zirzəmiyə çıxartdı... Burdasa üç adam yolumu gözləyir... Bəyi hamama!.. Xoş gəlmisən, keç yuxarı başa, bizə dair

qulluq?! Nə?! – Ədə qoduq, o qırışmal sənsən gəvəzə-gəvəzə ağzını allah yolunda qoyan?! İndi sənə elə bir toy tutaraq ki, Habil də kamançanı çalar. Otur, adın nədir?

– Hansı təşkilatdansan?

– Boynuna al!

– Yoldaşların.

“Görəsən mən nə etmişəm? Elədiklərim kino lenti kimi bir-bir gözlərim önündə canlanır: “O gün işdə kassirlə dalaşdım-maaşımdan tutmuşdu-hansı hesabasa, bilmirəm. Deyirdi ki, hansı ölkədəsə nəsə olub, ona pul yığırlar. Əvvəlcə razı olmadım. Dedim ki, ötən ay maaşımdan duz iki dəfə tutmuşsunuz. Daha bəs deyilmi? Məlul-məlul üzümə baxıb dilləndi:

– Bəs sən beynəlmiləlçi deyilsən? Dedim: bu maaşla beynəlmilənçi deyirsən, heç it də olmaq olmaz.

Bir söz deməyib, tənəli-tənəli baxdı üzümə. Bəlkə bunu deyiblər? Məncə, kassir elə şey etməz. O, yaxşı qadındır.

Bir də axı burda pis nə var ki?!

Öz haqqımı tələb edirəm.

Bəlkə iki ay bundan əvvəl həmkarlar təşkilatının iclasında dalaşdığıma görədir? Orda da mən pis heç nə görmürəm. Dedim ki, düz iyir-

mi ildir ev növbəsindəyəm. Bəs mən nə vaxt ev alacağam, öləndə?!

O da gülümsünüb dedi:

– Öləndə evi neynirsən? Elə qəbir sənin evindir.

Mən də acıqlanıb onun üzünə vurmuşdum:

– O evi sən əzizlərin üçün saxla, - deyib otaqdan çıxmışdım.

Mən burada da "siyasi" heç nə görmürəm. Bəlkə arvadımla "söz-söhbət" barəsində bunların qulağına nəsə çatıb. Sonuncu dəfə görəsən biz nə vaxt dalaşmışdıq? Dünən axşam. Nə üstündə? Uşaq. Nə dedim?... Deyəsən yadıma düşür axı. Mən ona dedim ki, sənin əlindən baş alıb gedəcəyəm. O da dedi: hara getsən əlimdən qaça bilməyəcəksən. Axırda qeyzlənib qışqırdım ki, sənin əlindən o taya qaçacağam. O da gülə-gülə dedi ki, get-get soldatlar qaytarıb gətirər.

Axı, burda nə var ki, adicə ev-eşik söhbətidir.

Bəlkə toyda dediyim tostdan şübhələniblər. dedim ki, cavanlara xoşbəxtlik arzulayıram. Məgər bizdə insanlar xoşbəxt deyillər?! Bəlkə bazardakı söz-söhbət.

Axı mən flan-flan şüdəyə deyən lazım, a

kişi, ağzını bir dəfəlik qıfılla da! Onsuz da bizim sözlərin tərsilikdən o qədər mənaları var ki.. onlara siyasi don geydirməyə nə var.

Yox, burdan qaçmaq, qaçmaq, qaçmaq gərək. Lap bu balaca deşiyə girsəm belə burdan qaçmalıyam. Kim bilir məni daha hansı dəhşətlər gözləyir.. Qapının o üzündəsə yenə döyürlər.-Tez ol çıx, -deyirlər. -Əə, yavaş da, əlimi əzdin, bu saat çıxıram, dünya dağılmır ki, .

İlahi bu adamlar nə kəmhövsələdirlər. Elə bil hamısının böyrəklərini çıxardıblar.

Qayışımı bərkidib qapını açıram. Tənəli baxışların altında əriyə-əriyə adamların yanından keçib gedirəm. Qulağıma sözlər dəyir:

– Görəsən bir saatdır, orda nə ilə məşğulmuş. Özü də abırlı adama oxşayır. Dünya korlanıb vallah.

Bayıra çıxıb rahat nəfəs alaraq ətrafa göz gəzdirirəm.

Məni qınamayın, hərifin deyəsən axı hövsələsi çatmayıb. Bax indi rahat nəfəs ala bilərəm. Yoxsa səhərdən bəri o qədər karbon qazı udmuşam ki, nəfəsim təngiyib. Küçə boyu irəliləyirəm. Ey böyük küçə, ey əziz küçə... Bu nədir, bu köpəyoğlu burdaymış ki, .. Daha əsəblərimi saxlaya bilmirəm, qoy mənə nə istəyirlər

etsinlər, hara istəyirlər aparsınlar, başıma nə istəyirlər gətirsinlər. İndi mən sənə.. Onu vurmaq üçün irəliyə dartınıb yumruğumu düyünləyirəm... Bu həyasız oğlusa elə bil qorxu-zad nə olduğunu bilmir. Gözlərimi dikib üzümə. Hələ gülümsəyir də. Beləsinə deyirlər bizim yerdə sırtıq maça.

Söyüşü ağzımda zorla boğuram:

– Nə istəyirsən?!

Sanki elə bil bayaqdan necə saatdır məni qarabaqara izləyən bu deyilmiş. Heç nə olmamış kimi üzümə baxıb dillənir:

– Xahiş edirəm, deyəsiniz siz bu papağı hardan almısınız.?

Ay sənin... xalanın üzündən öpsünlər. Bayaqdan lap ürək-göbəyimi yemişdim ... Elə bil üstümdən böyük bir dağ götürülür. Üstümə sərin su səpilir:

– Əşşi, bunu bayaqdan de də. Mən də deyirəm görəsən nə olub?... Buyur peşkeşdir.

O sa tərəddüdlə dillənir:

– Yox, siz nə danışırsınız. Bəlkə siz... Sözünü bitirməyə aman verməyib, arvadımın xaricdən mənə hədiyyə gətirdiyi papağı onun başına qoyaraq təkidlə tələb edirəm:

– Götür, götür, dedim ki, peşkeşdir.

O əvvəlcə tərəddüd etsə də, sonra bir söz deməyib təəccüblə mənə baxaraq uzaqlaşdı.

Mənsə rahat nəfəs alaraq heyranlıqla bir xeyli onun ardınca baxdım. Zalım oğluna papaq necə də yaraşırdı... Sonra isə başacıq izdahama qarışıb yoluma davam etdim.



## DAŞ

*(hekayə)*



Daş maşından sürüşüb yolun tən ortasına düşdü. Bunu ilk görən rəis oldu. O, daşa baxaraq fikirləşdi:

– Daşı burdan mütləq götürmək lazımdır. Yoxsa maşınların gediş-gəlişinə mane ola bilər. amma kim götürsün? Rəis ətrafa göz gəzdirdi. Elə o saatda ağlına qəribə fikirlər gəldi: - “Onun daş götürməyi ən azı öz vəzifəsinə hörmətsizlikdir. Heç rəvadırmı bir balaca daşdan ötrü özü boyda rəis yerə əyilsin. Öz təzə

paltarını toz-torpağa bulaşdırsın. Görənlər, bilənlər nə deyər? Bir də, əslinə qalsa, müdir dura-dura onun daş götürməyi yersizdir.”

Rəis zəng edib müdiri çağırtdırdı. Daşı ona göstərərək xəbər aldı:

– Bu nədir?

Müdir təəccüblə ona baxaraq cavab verdi:

– Daş!...

– Axı, necə ola bilərdi ki, o, yerə düşənin nə olduğunu bilməsin. Bu daşlarla o qədər işlər görmüşdü ki...

Rəis lap qəzəbləndi:

– Hansı daşdır?!.

Müdir daşı bir də gözdən keçirdi:

– Ağ və iri kubik daşıdır, çəkisi 32 kilo olar.

Rəis müdirə əmr etdi:

– Ağ və iri daşı burdan götürmək lazımdır!

Müdir həvəslə cavab verdi:

– Bəli, ağ və iri daşı götürmək lazımdır, yoldaş rəis!..

Rəis fikirləşdi: – “Daşı gərək müdir götürsün”.

Müdir düşündü: – “Bu dəqiqə mühəndisi çağıraram”.

Rəis müdirə baxdı. Müdir saata baxdı. O, zəng edib Qənbər Quliyevici çağırtdırdı. O, təh-

lükəsizlik üzrə mühəndis-texnik idi. Tezliklə təngnəfəs halda gəlib çıxdı. Daşı görəndə gözlərindən qığılcım saçıldı. Ağzından alov dilimləri çıxdı:

– Aman allah! Heç bilirsiniz, bu, təhlükəsizlik qaydalarına nə qədər ziddir. Belə daşlar yol hadisələrinin sayını artıra bilər. Belə daşlar yüzlərlə insanın bədbəxtliyinə səbəb ola bilər. Belə daşlar insanları cinayətə sövq edər. Belə daşlar...

Mühəndis susdu. Hamı bir-birinin üzünə baxdı. Birlikdə qərara gəldilər: “Yaxşı olardı ki, daşı sahə ustası götürsün. Axı, o, vəzifəcə həm kiçikdir, həm də, ümumiyyətlə, daş götürmək onun vəzifəsinə daxil olur”.

Elə bu zaman sahə ustası özü gəlib çıxdı. O da daşa baxaraq gülümsündü:

– Bizim işdə biri vardı, arığın birisiydi. O qədər arıq idi ki, sağlığında qırxı veriləsiydi. O, belə daşlardan beşini birdən aparırdı. Amma halalı olsun. Yaman da yeyəndi ha! Aldığı maaşı qarnına çatdıra bilmirdi. Axırda yeməkxanaya fəhlə getdi.

Rəis düşündü: “Bax, burda mütləq bu cür adam lazımdır!”. Müdir fikirləşdi: “Heyf!”. Rəis kədərləndi: “Əgər o olsaydı, mütləq bu daşı ye-

rindən qaldırardı!”. Mühəndisin qanı qaraldı: “Belə işçini adam heç əldən buraxar!”.

O qədər fikirləşdilər, daşa baxdılar, daşa baxdılar fikirləşdilər... Axırda yoruldular... Eyni zamanda bərk acıb yaxındakı yeməkxanaya getdilər. oturub yeyəndə daş yenə də yadlarına düşdü. Qanları qaraldı. Keflərini durultmaq üçün içdilər. Lap çox içdilər, öz sağlıqlarına, arvadlarının, uşaqlarının sağlığına, hətta daşın da sağlığına içdilər, içdilər... yenə də içdilər. axırda lül-qəmbər oldular! Rəisin əlləri pələng caynağına dönmüşdü. O öz barmaqlarını az qala sahə ustasının gözünə soxacaqdı:

– Ey, bura bax, sən o arıx köpəyoğlunu çox da tərifləmə! - o mənim yanımda hələ uşaqdır. Mən istəsəm bu daşlardan beşini yox, lap yüzünü birdən apara bilərəm!..

Müdir razılıqla başını tərpətdi: “Bəli, lap minini də apara bilərsən!”. Rəis gözlərini ona ağartdı: “Lap milyonunu da”. Müdir təsdiq etdi: “Lap milyonunu da!”. Rəis özündən çıxaraq səsini ucaltdı: “Milyardın da apararam”. Müdir: “Milyardın da apararsan!”. Rəis müdirin yaxasından yapışıb silkələdi: “İstəsəm, nə qədər daş kəsirlər, hamısını apararam!”. Müdir yaxasını onun barmaqlarından zorla qopararaq ağır-a-

ğır nəfəs aldı:

Bəli apararsınız, yoldaş rəis... – Təhlükəsizlik texnikası mühəndisinin gözləri bərələ qalmışdı: “Yoldaşlar, bu, yol hərəkəti qaydalarına ziddir!”. Rəis ona tərəf çımxırdı: “Zidd deyil”. Sahə ustası çeçələ barmağını irəli uzatdı: “Siznən mərc qoşaram ki, siz heç bu daşı yerindən tərpədə bilməzsiniz?”

Səslər yenə kəsildi. Hamı daşa baxırdı. Sahə ustası gülümsündü: “Amma o arıx aparardı”.



## KAŞ YAĞIŞ YAĞMAYAYDI...



Həmişə harda oluramsa olum, evimiz yadıma düşür. Elə o saat da göylərə baxıb öz-özümə pıçıldayıram: “Kaş duman olmayaydı... Kaş bulud gəlməyəydi, kaş yağış yağmayaydı...”

Bu ev mənə ulu babamdan qalıb. Ona da öz ulu babasından. O ulu babasına da ulu babasının babasından...

Nə vaxtsa onu sökmək istəmişdilər. O vaxtlar mən balacaydım. Burnumun suyu hələ qurumamışdı. Yerölçönlər gəlib nəyisə ölçüb getdilər. sonrasa traktor evimizin bir tərəfini uçurdu. Elə o vaxtdan evimizin bir tərəfi açıq qalmışdı. Bir azdan məni öz nəslimin son nümayəndəsi kimi bu evdə yaşamalı oldum.

***Qeyd***: *Əvvəllər evimiz geniş asudəliydi. Son zamanlar hardansa döşəmənin altından siçovullar peyda olub, düz on iki dənə. Əvvəllər bizə "düşmən" kimi baxırdılar. Əl-ayağımızı dişləyirdilər. lakin get-gedə bir-birimizə isinişdik, doğmalaşdıq. İndi daha bir-birimizə mane olmuruq.*

Qış olanda evimiz daha əsrarəngiz görünür. Tavandan tökülən damçılar qab-qacağa toxunduqca ecazkar bir musiqini xatırladır.

Hələ bu harasıdır? Yay aylarında açıq pəncərələrdən gələn meh, ən gözəl sanatoriyaların da havasından səfalı olur. Bəzən gurultu bizi oyadır. O saat bilirik ki, divarın hansı küncüsə qopub yerə töküldü.

Əvvəllər biz belə xoşbəxt yaşayırdıq. Lakin xırdaca bir təsadüf hər şeyi korladı.

Günlərin bir günü arvadımın ucqar kənddə yaşayan bir qohumu bizə qonaq gəldi. Başımı çevirib qonağa nəzər saldım. Heç belə də qo-

naq olar? Boyu 2 metr 10 santimetr. Üzümü qonağa tutub təntənəli şəkildə dedim:

– Əziz qonaq, sənin boyun bizim evə uyğun gəlmədiyi üçün... Arvadım əlləri ilə ağzımı qapayıb, məni kənara çəkərək məsləhət gördü ki, müvəqqəti tavanı qaldırsaq qonağı içəri salmaq mümkündür. Nə yaxşı ki, dünyada arvadlar var, yoxsa biz kişilər nə edərdik?! Onun dediyi kimi də etdim. Hər şey yaxşı alındı. Qonağın bir ayağı çöldə qalsa da, onu evə dəvət edə bildik...

Bircə bu siçovullar olmasaydı hər şey yaxşı qurtaracaqdı. Onlar "yad" adamın gəldiyini sanki uzaqdan hiss etmişdilər. Sən demə, bizim qonaq siçovulların dişləyinə öyrəşməmişdi. Siçovullar onun ayağını elə bərk dişlədilər ki, o, ağrıya dözə bilməyib ufuldadı:

Bu murdar olmuşlar hardan çıxdı belə?!

Mənsə özümü sındırmayıb siçovulların əhəmiyyətindən, onların cəmiyyətimiz üçün xeyrindən danışdım. Hətta Bakıdakı dəyirmanda bir milyondan çox siçovlun olduğunu deyəndə, qonaq heyrərətlənərək bir söz deməyib çıxıb getdi...

Arvadım hönkürərək boynumu qucaqladı:

– Heç bilmirəm mən olmasam sən nə edərsən?!

Hələ bu harasıdır? Sən demə arvadımın da iştahası qarnının altındaymış. Başladı balalamağa. Əvvəlcə birini, sonra ikisini birdən... Dözə bilməyib bütün qəzəbimi onun üzərinə tökdüm:

– Sən buna son qoyacaqsan, ya yox?!

Arvadım etinasız çiyinlərini çəkdi:

– Mən nə edim, sən dinc dur, belə də olmasın!

Axırda həkim məsləhətinə getməli olduq. Həkim məsləhət verdi ki, bir yerdə yatmayaq. Hər şey yaxşı alındı. Bircə... Bircə bu andıra qalmış siçovullar olmasaydı. Hər şey yaxşı olardı... Bircə bu siçovullar artıb çoxalmasıydı. Bir tərəfdən də evin yuxarı hissəsi uçub-tökülmüşdü. Kiçik oğlum ömrünü allaha tapşırsa da, şükür allaha ki, yaxşı qurtardıq.

Nə isə... Qəzetlərin birində həkim məsləhətində oxumuşam ki, təmiz havada olmaq insan bədənində nə bilim nə qədər oksigeni, kislarodu artırır...

Hər gün açıq qalmış tavandan, yuxarıya, göylərə baxırıq. Bu andıra qalmış hava da düzəlmək bilmir ki, bilmir. Ürəyimizdə çoxluca yalvarırıq:

– Kaş duman olmayaydı, kaş bulud gəlməyəydi, kaş yağış yağmayaydı...”

## CƏSARƏT

*(Novella)*



Sən dünyanın işinə bax ki, qapıçı Sara xala da aşkarlıqdan dəm vurur. İndiyə kimi onun ağzında dili olduğunu bilmirdik. Amma sən demə, dili da varmış, hələ üstəlik beş arşın dilçəyi də. O günkü iclasda durub direktoru tənqid etdi. Dedi ki, belə rüşvətxor və fırıldaqçı direktor bizə lazım deyil.

İnsafən, direktorumuz çox səbirli adamdır, susdu. Fəallar yerdən səs-küy qaldırdılar, -düş aşağı, -dedilər. ancaq Sara xala düşmədi. Sanki idarədə bundan başqa dərdli adam yox imiş. Danış ki, danışasan, de ki, deyəsən... Direktorun qabırğasına döşə ki, döşəyəsən, nə yemisən turşulu aş... Sanki otuz il susduğunun əvəzini çıxırdı, nə bilirdisə, dedi: “Fabrikin mallarını kim oğurlayıb apardı? - Sən! Mənim üç aylıq maaşımı kim kəsdi?- o da sən! Hələ katibənin başına gətirdiyin oyunları demirəm. Hələ... “Direktorun ünvanına elə sözlər söylədi ki, qorxumuzdan barmağımızı dişləyib, yerdən qışqırdıq: ay arvad, sus, hamısını bilirik, sus!

Hətta dazbaş müavinimiz dözə bilməyib onu "demaqoq" adlandırdı. Lakin bu sözlər Sara xalanın vecinə deyildi. Elə bil ki, heç ona deyilmirdi. O, kürsüden möhkəm yapışıb, səsini daha da ucaltdı:

– Niyə susmayılam, mənim gözüm kimin-kindən aladır? Hökümətimiz bizə icazə verib. Düz danışmıram, deyin köpək qızı, düz demirsən!

Sağ olsun direktorumuzu. Kişi şir ürəyi yeyibmiş, dözdü, əliylə işarə edib hamını sakitləşdirdi: - Yoldaşlar, qoy danışsın, -dedi, -haqlıdır, qoy ürəyini boşaltsın.

Sonra heç halını pozmadan üzünü Sara arvada tutub təmkinlə söylədi:

– De, anam, de! De, bacım, de...

Bu sözlərdən sonra sanki Sara arvadın dili batdı. Susmağıyla ağlamağı bir oldu. Yaylığının yanı ilə burnunu silib kürsüdən düşdü, iti addımlarla salondan çıxıb getdi. Hamı həsədlə onun ardınca baxırdı, hətta direktorun özü də. Sara xalanın ağlaması bütün nəşəmizi pozdu. Direktor ağlamsınaraq dedi:

– Birinizin sözü o birinizin boğazından keçmir, arvadı danışmağa qoymadınız, küsdürdünüz.

O gündən Sara xala daha qapıda görünmədi. Elə bil, heç bu adda addam olmamışdı. Bəlkə də onu tamam unudardıq. Yenə sağ olsun, direktorumuzu, o gündən hansı iclas olursa-olsun, Sara xalanı hörmətlə xatırlayaraq deyirdi:

– Bax, görürdünüz Sara arvadı, hec nədən qorxub çəkinmirdi, həqiqəti adamın düz gözünün içinə deyirdi, necə də cəsarətli idi... Amma siz...

## TƏKLİF



İdarədə Yeni il şənliyinə hazırlaşırdılar. Şənliyi təşkil etmək üçün iclas çağırmaq qərara alındı.

İdarənin direktoru kürsüyə qalxaraq qrafindəki suyu stəkana süzüb boğazını yaşladıqdan sonra aramla sözə başladı:

-Yoldaşlar, bura yığışmaqda əsas məqsədimiz ötən ili əmək qələbələri ilə başa vurmaq və Yeni ili gülər üzlə qarşılamaqdır. Bunun üçün isə biz gərək öz işçilərimizin köməkliyi ilə konsert proqramı hazırlayaq. Qoy yuxarıdan gələnlər görsünlər ki, bizim yaxşı işçilərimiz

olduğu kimi, həm də yaxşı Şaxta babamız, Qar qızımız, Boz qurdumuz da var. İndi deyin görüm bu rolları kimlərə təklif edirsiniz?

Salondakılar onun üzünə baxdılar. Elə bu vaxt baş mühəndis əlini qaldırıb söz istədi. Sonra kürsüyə qalxıb səsini ucaldaraq dedi:

– Yoldaşlar, Yeni ilin gəlişi hamı kimi məni də sevindirir. Çünki verilən sözlər, doldurulmayan planlar hamısı artıq arxada qalmışdır. Yeni il - yeni söz, yeni nəfəs gətirir. Doğrudur, bizim qabaqcıl işçilərimiz çoxdur. Lakin biz gərək bu proqramı hazırlayarkən elələrini cəlb edək ki, başqalarına nümunə olsunlar. Məsələn, elə götürək təsərrüfat işləri müdirini. O, gələndən bəri nə qədər istiliyə qənaət edilib. Necə deyərlər, özü ilə əsl Şaxta babalı qış havasını gətirib. Qızdırıcıların biri də işləməyib. Təklif edirəm ki, o Şaxta baba olsun. Qar qıza gəlincə, məncə, direktorun katibəsinin tayı-bərabəri yoxdur. Qəbula gələnlərə elə bir sifət göstərir ki, ikinci dəfə heç kim o qapıya yaxın düşə bilmir. Yaxşı olardı ki, həmkarlar təşkilatının sədri də konsertmeyster seçilsin. Çünki ki, ötən il "putyovka" üçün yanına gələnlərə elə bir hava çalıb ki, düz bir ildir ki, səsi qulaqlardan getmir.

O ki, qaldı Boz qurda- o da bizim hörmətli

direktorumuz. Biz hamımız ona pənah gətirmişik. Axı zavallı babalarımız da canavara sitayiş ediblər. təklif edirəm ki, bu yoldaşlar Yeni il proqramına daxil olsunlar.

Mühəndis sözünü qurtarıb kürsüdən düşdü. Hamı bu təklifi bəyəndi. Bir azdan iştirakçılar məşq etmək üçün öz yerlərini tutdular.



## DÜYMƏ



Nəhayət, gözlədiyim troleybus gəlib çıxdı. Adamlar ley kimi onun üzərinə şığıdılar. Mən də onlarla birlikdə. Arxamda yekəpər, lopabığ kişi məni elə itələdi ki, özümü saxlaya bilməyib, adamların başı üzərindən irəli uçdum, başım qapıya zərblə dəydiyindən gözlərimdən od çıxdı. Lakin artıq salona daxil ola bilmişdim. Təzəcə o yekəpərə təşəkkür etməyə hazırlaşırdım ki, troleybusda zəlzələyə oxşar "silkələnmə" baş verdi. Sürücü gülümsünərək əlini maşının fırlanacağına şappıldatdı:

– Dönüm adına, tormuzuna söz ola bilməz.

Adamlar yay kimi dartılıb-açıldılar. Özümü saxlaya bilməyib sürətlə qabağa diyirləndim. Qırmızısifət bir kişinin qalstuku məni yıxılmaqdan xilas etdi. lakin şlyapamı və ayaqqabımın bir tayını arxada qoyub gəlmişdim.

– Vay, şlyapam! - deyərək adamları itələyib irəli dartındım. Qırmızısifət təəccüblə qolumdan yapışdı:

– Eh, sən nə itirmisən ki, mən burada arvadımı itirmişəm. Onu dayanacaqda qoyub gəldim. Bir yekəpərin qollarından qoruya bilmədim.

Başqa birisi də gülümsündü:

– Mənsə vəzifəmi itirmişəm. Birinin ayağını tapdaladım. Dedi: "Məndən üzr istə!". İstəmədim. Sən demə zalım oğlu böyük vəzifədə işləyirmiş. Troleybusa isə təsadüfən maşını xarab olduğu üçün minibmiş. O da acığa düşüb məni işdən qovdurdu.

Bu zaman sürücünün səsi eşidildi:

– Yerinizi möhkəmlədirin, mənzilə çatırıq.

Mən bir söz deməyib dəstəkdən bərk yapışdım. Dayanacağa çatanda şalvarımda bir dənə də olsun düymə qalmamışdı. Troleybusdan düşüb bir əlimlə şalvarımı tuta-tuta özümü

zorla evə çatdırdım. Arvadım halıma baxıb gülümsündü:

– Eybi yoxdur, keçib gedər, mən sənə ehtiyat düymələri tikərəm.

Səhərisi gün ehtiyat düymələri artıq hazır idi. Yenə də troleybusa minərək işə tələsirdim. Ayaqqabımın o biri tayını da itirəcəyimdən qorxduğumdan onu da evdə qoymuşdum. Yenə də silkələnmələr başlandı. Mən sürücüyə baxıb hətta gülümsündüm də...Lakin bütün cəhdlərimə baxmayaraq bu dəfə köynəyimi və corablarımı salıb itirmişdim. Ancaq əvəzində çox şeylər qazanmışdım. On iki ədəd flamastr, üç gümüş qaşıq və qadın poartmanatı, düymələrimə ilişib qalmışdı. Qayıdanda da səfərim uğurlu oldu. Yün şərf, qadın çantası, və xarici əl-üz sabunu əldə edə bilmişdim. Evə qayıdanda arvadım gətirdiyim hədiyyələrə baxaraq təəccübləndi:

– Bunları hardan almısan?!

Hadisəni ona danışdım. O, bir söz deməyib çiyinlərini çəkdi. Lakin səhərisi gün düymələrin sayını daha da artırmışdı... Basırıqlarda əzilib “suyum” çıxsa da indi mənim troleybus kolleksiyamda nələr yox idi:

Lakin bədənimdə düymədən bir dənə də

olsun boş yer qalmamışdı. Özüm itkiyə az yol vermək üçün düymələri birbaşa qolsuz köynəyimə tikdirmişdim. Hətta iş yoldaşlarım mənə baxıb heyrətləndilər:

– Bu nədir, tamam zirehlənmisən, xeyir ola?

Onları başımdan eləmək üçün yalan satmalı oldum:

– Eşitməmisiniz, düymə zavodu yanıb, tezliklə heç yanda düymə tapılmayacaq...

Sən demə, onlar elə bu himə bənd imişlər. İşdən çıxandan sonra düymələri dəstə-dəstə alırdılar.

Tezliklə şəhərdə bir dənə də olsun düymə tapılmadı. Belə qərara gəldim ki, bəlkə elə doğrudan da düymə zavodu yanıb.

Idarədə söz yayılmışdı ki, bəs filankəs düymə alveri edir. Bu sözlər mənim ünvanıma idi. Axır ki, bu xəbər gedib müdirin də qulağına çatdı. O məni yanına çağırtdırıb xəbər aldı:

– Əzizim, bu nə məsələdir belə?

– Təəccüblə soruşdum:

– Nə, nə məsələdir?!

Müdir gülümsündü:

– Düymə!...

– Bilirsiniz, yoldaş müdir!...

O mənim sözümü yarımçıq kəsərək əlini

çiynimə döyəclədi:

– Bilirəm, bilirəm, hamısını bilirəm... heç bilirsənmi səni nə üçün çağırtdırmışam?! Vacib bir məsələyə görə. Mənə, “sep” lazımdır, özü də xaricisindən, arvadım üçün, heç bilmirəm evə nə üzlə gedim.

Ona təskinlik verdim:

– Tapılar, əzizim, tapılar. Axı “sep” nədir ki!...

Növbəti iş günü troleybusda bir neçə “sep” ələ keçirə bilmişdim. “Sepləri” gətirib müdirə verdim. O, hədiyyəni əlinə götürüb gülümsündü:

– Əhsən sənə.

Tezliklə başqa sifarişlər də aldım. Nazirlərdən, alimlərdən, mühəndislərdən hamısını da canla-başla yerinə yetirirdim!... sifarişçilərdən biri, adını demirəm, qəribə bir sifariş verdi: “Canavar başı”.

Uzun-uzadı get-gəldən sonra axır ki, onu da tapdım.

Nə qədər ki, bizim şəhərdə troleybuslar var, canavar başı nədir, lap fil sümüyü də tapmaq olar!...

Tezliklə vəzifəmi artırdılar. Qazandığım pullara isə özümə maşın aldım. İndi işə öz ma-

şınımla gedib-gəlirəm. Daha troleybusa minmirəm. Düymələrisə ad günündə hədiyyə olaraq oğluma bağışladım. Axı o da böyüyəndə troleybuslara minməli olacaq!...






... Deməli, harda qaldıq? Bizim Cəbiş müəllimdə. O deyir ki, tezliklə oxumaq olmayacaq, məktəbin, dərsin hamısını yığışdırıb verəcəklər kooperativlərə. bizim Cəbiş müəllim deyir ki, Şamaxının, Şəkinin, Gəncənin müəllimləri üsyan etmək istəyirlər. Hətta oturub prezidentə bir tələbnamə də yazıblar ki, arvad-uşaq yanında dilimiz gödəkdir. Ya bizim maaşımızı

artırıb şəraitimizi düzəlt, ya da aclıq elan edib çörək yeməyəcəyik. Qudurasan qurbağa, gəlir ölkə udmağa. Sən bir bunlardakı iştahaya (bağışlayın ey, iştahsızlığa bax!) Hökuməti aclıqla qorxudurlar. Get, bala, get dərs deməyinə. Onsuz da hökumətimiz sizə yedirtməyə çörək tapmır. Aclıq edərsiniz, lap yerinə düşər. Sən allah, gör, dünyanın harasıdır ki, müəllimin də dili çıxıb. Zalım balaları, acından köpük qusurlar, amma hamısı ekstremistdir. Bizim arvadın sözü olmasın, aldığımız maaş..tfu...lənət şeytana... nə demişdi o? Hə, deməli harda qaldıq? Bizim uşaqların anasında. Onun sözünü deyirdim, axı?! Bu zalımın qızı beynimi lap girinc eləyib ki, Cəfərin, Səfərin, Qəfərin (ayıb da olsa, uşaqlarımın adıdır) şalvarları yırtılıb, dizləri çöldə qalıb. Oxumağa kitabları yoxdu. Dəftər-qələm tapılmır. Ya onlara pal-paltar, kitab-dəftər al, ya da mənim talağımı ver, çıxıb gedim dədəmin xarabasına!

Mən bu tünbətün qızını başa sala bilmirəm ki, mənim üzümü zamana qara eləyib. Paltarın qiyməti qalxıb avtobusun belinə, xalq təhsili nazirliyi indiyənəcən əməlli-başlı bir proqram hazırlamayıb. Cəfərin, Səfərin, Qəfərin oxumağa dərs kitabları yoxdur, buna mən neynim? Bir

bu arvada deyən lazımdır ki, ay əbrişim qızı əbrişim, mən sənə nazirəm, aliməm, ya nəşriyyat direktoruyam ki, kitab yazıb çap eləyəm. Kitab çap eləyə bilsəydim, daha müəllimlikdə nə itim azmışdı. Cəbiş müəllim deyir ki, bu bizim ümumi dərdimizdir. İndi dəbdi, hər şeyi vurub dağıdırlar, yerində təzə heç nə düzəltmirlər. Cəbiş müəllim deyir ki, allah mərdimazara lənət eləsin. İndiyə kimi heç olmasa Lenin babayla, Qızıl Orduyla, partiyayla-zadla birtəhər uşaqların başını alladırdıq. Onu da əlimizdən aldılar. Cəbiş müəllimin deyir ki, belə getsə, daha oxumaq-zad olmayacaq, məktəbləri yığışdırıb verəcəklər kooperativlərə...

...Hə, harda qaldıq? Müəllimlərin vəziyyətində. Müəllimlərin vəziyyəti doğrudan da yaman ağırdır.

**EV QUŞU**

*(hekayə)*



Hə, uşaqlar, demək, dərsə başlayırıq. Deməli, ədəbiyyat. Ədəbiyyat elmin anasıdır, atası isə riyaziyyatdır. Başqa elmlər isə bu ikisindən yaranıb. Bizim Cəbiş müəllim deyərdi ki (allah ona rəhmət eləsin), - əə, Əli, sənin əmini deyirəm eyy!-deyərdi ki, qarpızın ağacı olmaz, qarpız tağda bitər. amma görürsünüz nə boyda olur zalımın malı. O gün bazara biri gətirmişdi. Zalım oğlu dedi ki, Sabirabad qarpızıdır. Aldım apardım evə. Kəsib içinə baxdıq, lax çıxdı. İstədim gətirəm çırpam qarpıs satanın başına, ancaq yenə də hövsələmi basdım. Əə, Məmiş, gülürsən?! Bax, elə götürək sənin dədəni, yaxşı kişi idi. O gün olmazdı ki, qonaqlıq verməsin. Canlara dəyən adam idi. Bəs sən? – zırramasan, zırrama! Səndən adam olmayacaq! “Leyli-Məcnun” dərsini də öyrənə bilmirsən. Əə, Əşrəf, Leyli-Məcnun nədi ki, onu da bilmirsən. Bax, elə sənin atan ananın dərdindən Məcnuna dönməmişdimi? Əgər mənlə Həsən olmasaydı, çoxdan babanı o dünyalıq

eləmişdi. Sənsə heç məktub da yaza bilmirsən. Qaldı Leyli-Məcnunluq ola.

Nə isə... demək, bu günkü dərsimizdə biz... Ey Rafiq, səninlə deyiləm? Qabağa bax. Təranə, yoldaşının telini partaya bağlama... Ax, ax... İkram, sən məni yenə də hövsələdən çıxartdın. A bala, mən dərsi sizin üçün danışıram dana. Yoxsa bu məktəbə niyə gəlirdim. Gülnarə, ata-nı məktəbə çağırtdıracağam. Eh, vəhşilər, qanmazlar, özünüz cəhənnəm, məni də dəli eləyərcəksiniz. Pəri, yoxsa küncdə durmaq istəyirsən? - Sakit, uşaqlar, sakit olun! – Qoyun dərsimizi keçək, deməli, biz... hə, gəl, deməli, biz... hə, gəl, eşitmirsən, gəl. Bəsdir qapını döydüyün...

– Müəllim, dananız kələmə girib, briqadir apardı.

– Ax, zalım balaları, bir dananı da otara bilmirlər. Alafı mən eləyirəm, pəyəni mən təmizləyirəm, dərsi mən aparıram. Hamısını mən, mən, mən... A gədə, dur get, dananı dədəndən al, apar bizim evə, dədənə de de ki, müəllim dərsə buraxmır, eşitdin...

Hə, gəl, qapını döydüyün yetər... Yenə nə olub, ay arvad? Akif Həsəni döyüb, yoxsa Həsən Akifi?

– Yox, a kişi, indi sözüm başqadır. Kəbləli,

mən yas yerinə gedirəm, bir beş dəqiqə uşağı gözlə. Xörəyə də baxarsan, sən allah, yanıb kül olmasın.

– Elə ölüb qalasan o yas yerində, nadürüstün qızı!

– Kişi, uşaqlardan utan, hərgah o evə gələrsən, onda bilərik nadürüstün kim olduğun...

– Hə, uşaqlar... Gəl, eşitmirsən, karsan...

– Kəbləli müəllim, kişilər səni domino oynamağa çağırırlar.

– Get denən gəlirəm, dana... Deməli dərsimizə başlayırıq. 45 dəqiqə dərsimizin də qoymazlar keçək. Alafı mən eləyirəm, pəyəni mən təmizləyirəm, bir dananı da otara bilmirlər. qaldı domino oynamağa!..Gedib xoruzların verəcəm qoltuğlarına... Necə? Xoruz nədir? Əə, İmran, sən nə avam adamsan. Xoruz elə xoruzdur da... Bəs sənə “Ay pipiyi qan xoruz” şeirini keçməyiblər. “Gözləri mərcan xoruz”u öyrətməyiblər. “Sən nə tezdən durursan” deməyiblər, “Qışqırıb banlayırsan” söyləməyiblər. Eşitməmisən ki, xoruz olmasa, səhər açılmaz. Gərək xoruz banlasın ki, səhər açılsın da! Bildinmi, indi xoruz nədir, ev quşu! Bunu sizin zoologiya müəlliminiz daha yaxşı bilər. ancaq onu deyim ki, xoruzun yumurtası olmur, toyuğun

yumurtası olur. Hökumətə isə yumurta gərəkdir. Ona görə də xoruzların başını kəsdirib göndərir restoronlara. Ə, Əşrəf, bala, düz demirəm? Sən belə şeyləri yaxşı bilərsən, atan ki fermada işləyir. Gedəndə deyərsən ki, Kəbləli müəllim dedi ki, mənə bir az yumurta göndətsin pulunu verərəm... hə, uşaqlar, yumurtadan yaxşı qayqanaq olur. Mənimsə soyutmadan xoşum gəlir. Ona görə ki, soyutma ürəyə qüvvət verir Bir gün Loğman öz şəyirdinə dedi: – Get, can al gətir, can olmasa, yarımcan al gətir, yarımcan olmasa, zəhrimar al gətir, hə, uşaqlar, dəftərlərinizi açıb yazın: “Yəni ət al, olmasa yumurta, tapılmasa qatıq, nə dedim, a bala, dediklərimi təkrar elə! De görüm, Loğman nə dedi?...Mən bunları sizin üçün danışıram. Yoxsa nəyimə lazımdır? Deməli, belə, qatıq...Hə, gəl, qapını sındırma!

– Müəllim, dedilər zəngi vursun.

– Zalım balaları, dərsimizi də qoymurlar keçək. Alafı mən eləyirəm, tövləni mən təmizləyirəm, bir zəngi də vura bilmirlər. Hə, uşaqlar, qalanını da evdə kitabdan oxuyarsınız. İkram, bala, indi de görək xoruz nə oldu?

– Ev quşu!...

# ƏVƏZÇİ



Axşam məktəbinin zəngi çalındı. Qənbər Qənbərov jurnalı götürüb könülsüz-könülsüz on birinci sinfə doğru addımladı. Qapını açıb təzəcə içəri girmişdi ki, sinifdə gülüş qopdu. O, heç nəyə fikir vermədi; jurnalın səhifələrini vərəqlədi. Uzun axtarışdan sonra hazır-qayıb etmək üçün adları oxumağa başladı:

– Gülbala.

– Gəlməyib.

– Ağabala.

– Palçığa batıb.

– Əlibala.

– Sancılanıb.

Elə bu anda Qənbərovun özünü də sançı tutdu:

– Dərsə gəlməyə canları çıxır. Ancaq ilin axırında hamısı arı pətəyə darışan kimi doluşurlar yanıma ki, qiymət yaz.

Birdən onun gözləri arxa cərgədə oturmuş uşağa sataşdı:

– A, bala, bəs sən kimsən?

– Balağa!...

Qənbər müəllimin “cin təpəsinə vurdu”:

– A bala, atan hardadır?

– Anamnan dalaşır.

– Niyə?

– Atam piyandır!

– Bəs bügünkü dərsi hardan biləcək?!

– Mən onun əvəzçisiyəm, ayılanda danışacağam.

Qənbər Qənbərov siyahının dalını oxumayıb keçən dərsin sorğusuna keçdi:

– Ə, Rəşid, bilirsən də, Puşkinin babası ərəb olub.

Rəşid əlindəki kibrit çöpüylə dişini qurdalaya-qurdalaya başını tərpətdi. Lakin Qənbər Qənbərov yenə də ondan əl çəkmədi:

– De görüm, nə idi o ərəbin adı?

Rəşid ağzındakı kibrit çöpünü yerə tüpürdü:

– Müəllim, dilimin uçundaydı, vallah, bilmirəm baş hərfi “d” ıydı, yoxsa “v” ydı, bəlkə də “i” ydi.

Qənbər Qənbərov öz şagirdinə baxıb, razı halda gülümsünərək qələmi əlinə götürdü:

– Bax, dilinin ucunda olduğuna görə “4” yazıram. Bir az da yaxşı hazırlaşsan, “5” ala bilərsən.

Qənbər Qənbərov bir neçə uşağı da qiymətləndirəndən sonra jurnalı örtüb dərindən nəfəs aldı:

– Hə, Rəşid, dur get, zəngi vur.

Dərsdən cəmi on beş dəqiqə keçmişdi...

...Onunculara olan ikinci dərsdə yenə həmin uşağı partanın arxasında görəndə Qənbər Qənbərov təəccübünü saxlaya bilmədi:

– Burda nə gəzirsən bəs?!

Uşağın sədəfi dişləri ağardı:

– İndi də anamın əvəzinə gəlmişəm də!

– Ona nə olub elə?!

***

Qənbər Qənbərov yenə də Puşkinin babasının yadına salıb bir neçə uşağı qiymətləndirdikdən sonra, fəxrlə uşağı şagirdlərə göstərdi:

– Bax, oxuyan belə olar, həm atasının əvəzinə oxuyur, həm anasının, həm də özünün!

Sonra keçib uşağın “iki cüt, bir tək” telini sığalladı:

– A bala, səni elmə bağlayan nədir, de qoy bu tənbəllər də eşitsinlər.

Uşaq başını aşağı salıb pul kimi qızardı, çətinliklə cavab verdi:

– Müəllim, atam da, anam da söz verib ki, onların əvəzinə dərsə getsəm, mənə kino pulu versinlər.

Qənbər Qənbərov eşitdiyi cavabdan səndəllədi.

Qapı təzədən döyüldü. Balaca bir uşaq qapını açıb içəri girdi. Şagidlər təəccüblə uşağa baxdılar:

– Bu kimdir belə?

Qənbər Qənbərov gülümsündü:

– Bu da mənim oğlumdur, gəlib məni əvəz etməyə.



## AY VƏFASIZ



Auditoriyadakı partaların üstündə nə yox idi, - hansı sözlər yazılmamışdı: Bakı - Astara dəmir yolu, Ema+ Dima= Sevgi, İmran, Həsən, Daşkəsən, Moskva...

Bu yazılara baxdıqca öz-özümə düşünürdüm: "Biz oxuyub gedəcəyik və hec kim bilməyəcək ki, filan kursda belə bir tələbə də oxuyurmuş... Ancaq özümüzdən sonra heç bir yadigar qoya bilməyəcəyik".

Çox fikirləşib baş sındırandan sonra öz ürək sözlərimi partaya "qələm"lə həkk etdim. Əslində qələmlə yox, bıçaqla...

Sözlər nə qədər dərində yazılmışdı. Necə də gözəl səslənirdi: "Siz sevdiyiniz adama nifrət etməyi bacarırsınızmı?"

Səhər sinfə girəndə gözlərim partanın üstünə sataşdı. Mənim yazımdan bir az aşağıda gözəl xətlə bu sözlər yazılmışdı:

"Ey, .. birincisi, sevmirəm, ikincisi isə, heç zaman sevdiyimə nifrət etmərəm..."

Bundan sonra partanın üstündə ikinci şanlı məktub yazıldı: "Əgər belə olduğu tərzdə, mən

öz namizədliyimi irəli sürə bilərəmmi?”

Yenə də məktubumda cavab gəlmişdi. Özü də şeirlə. Altında da qızılgül şəkli var idi. Mən də onun “acığına” bir dəstə “qızılgül” çəkdim. Özü də qırmızı karandaşla rənglədim. Yəni ki, mənim məhəbbətim səninkindən çoxdur, ay insafsız!...

Növbəti məktubunda adımı xəbər aldı. Adım Vidadidir. Doğrusu, belə adlar indi dəbdən düşüb. Elə ona görə də adımın “sovremenni” olması üçün bəzi hərfləri ixtisara saldım. Vidadini döndərib “Vika” elədim və altından da yazdım:

– Bəs sizinki?

O da öz adını yazmışdı:

“Nazik”. Necə də gözəl ad idi-Nazik... Bundan sonra biz ata-analarımızın işlədiyi yeri qələmə aldıq, qardaş və bacılarımızı soruşduq. Hətta cavablarının birində o yazırdı ki, atası professordur, qapılarında isə “QAZ-24” markalı maşınları var. Qəlbimdə ona olan məhəbbətimin gözərtisi gündən-günə şölələnərək alov saçırdı. Nazik də tab gətirə bilmirdi. O yazırdı:, “Vikulya, əzizim, heç bilirsənmi, sənsiz necə darıxıram. Gecə yatıb yuxumda sözlərini eşidirəm. Heç bilmirəm bunların axırı necə

olacaq, Vikulya! Sən gələn yollara quzu kəsim, Vikulya!"

"Heç mən demirsən, Nazikcan! Səninlə məktublaşandan sonra nə çörək yeyə bilirəm, nə də su içə. Əgər sən mənim olmasan, baş götürüb gedəcəyəm. Bibim canı (mən ən çox bibimi istəyirəm), gedəcəyəm".

Hər ikimiz tab gətirə bilmirdik. Ona görə də intim hisslərə keçməyə məcbur olduq, mən partanın üstündə iki dodaq şəkli çəkmişdim, sonra isə onları düz xətlə birləşdirmişdim. Yəni "öpürəm səni".

Nazik bu öpüşlərin əvəzində "beş" ini göndərdi. Növbəti cavabımda çəkdiyim ürəyi hər iki tərəfdən çarpaz xətlərlə oxlamışdım. O isə bu oxları öz qələminin qüdrətilə ürəyimdən çıxartmışdı.

Bəlkə də bizim bu məktublaşmağımız uzun çəkəcəkdi. Lakin partanın üstündə yer qalmamışdı. Elə buna görə də qərara gəldik ki, görüşək. Görüş dərsdən sonraya təyin olunmuşdu. Nazik məni əlində tutduğu biletlərlə kinoya dəvət edirdi...

Auditoriyanın qarşısında bir xeyli gözləyəndən sonra zəng vuruldu. Ürəyim necə də həyəcanla döyünməyə başladı. Qızlar bir-bir,

iki-bir sinfi tərk edərək maraqlı baxışlarla məni süzüb keçirdilər. ürəyimin həyəcanı o qədər artmışdı ki... Öz-özümə fikirləşirdim: "Bəlkə bu sarısaçdır, bəlkə bu qarasaç, bəlkə?... Axırıncı xurmayısaç qız da otağı tərk edib, yanımdan saymazyana süzüb keçdi. Elə bu vaxt gözüm bayaqdan bəri görmədiyim, əlində iki bilet tutmuş tələbə dostum Nazimə sataşdı. Onun baxışları narahat-narahat gedən qızların ardınca dikilmişdi. Elə bil o da bu gedənlərin içində kimisə axtarırdı. Axırıncı qız da döngədə itdikkdən sonra o, ümidsiz halda köks ötürərək sinfə girdi. Bir neçə dəqiqədən sonra otağı tərk edib yanımdan sürətlə keçərək (o məni görmədi) avtobus dayanacağına tərəf gedən qızların ardınca tələsdi. Mən sinfə girib partaya nəzər saldım. Partanın lap küncündə əsəbi hərflərlə bu sözlər yazılmışdı:

– Niyə gəlmədin, ay vəfasız...

## DÜZ SÖZ




Tənəffüsdə kiminsə başı pəncərəyə toxundu. Şüşə yerə tökülüb çiliklləndi.

Məktəb xidmətçisi şüşə qırıqlarını "dənləyə-dənləyə" şəhadət barmağını ilə uşaqları hədələdi:

– Nadinclər, bu saat Mürsəl müəllimi çağıracağam!...

Söz ağzından təzəcə çıxmışdı ki, sinif rəhbərinin yoğun gövdəsi qapını örtdü. Bunun ardınca onunu şana barmaqları havaya qalxdı:

– Bunu hansı qırışmal sındırıb?

Kürənsaç oğlan qabağa yeridi:

– Dədə, mən sındırmışam!

Sinif rəhbəri keçib uşağın başını tumarladı:

– Bax, əsil məktəbli belə olar. O saat boynunu aldı. Beləsinin şəklini gərək "Şərəf lövhəsinə" vurasan. Beləsini gərək mükafatlandırasan. Ona görə ki, gərək məktəbli həmişə düz danışsın. Uşaqlar heç bilirsinizmi "düz söz" nə deməkdir? Əsl insanlar heç vaxt düz söz danışmaqdan çəkinməyiblər. hətta ölümün özünə də düz sözlə qalib gəliblər. Həzilərimiz,

mehdilərimiz düz söz naminə canlarını qurban veriblər. Düz söz baş ucaldar, düz söz üz ağardar, düz söz...

O duruxaraq sinfin əlacısına tərəf çevrildi:

– Əə, bala, indi də düz sözə aid bir misal sən söylə!

Əlacı ayağa qalxıb bülbül kimi cəh-cəh vuraraq dil-dil ötməyə başladı:

– Döz söz odur ki, gərək düz danışasan, heç vaxt yalan deməyəsən. Məsələn sinif rəhbərimiz Balağaya yalandan "beş" qiymət yazır. Ona görə ki, atası işə onu öz maşınında aparıb gətirir. Düz söz...

Şarp... Əlaçının qulağı qızışdı. O, ikinci şapalağın yan keçməsi üçün əllərini qabağa verdi. Lakin görünür müəllim rəhmə gəlmişdi, ya da vurduğu zərbədən əli ağrımışdı. O, dərindən nəfəs alıb əlini-əlinə sürtərək ovuşdurdu:

– Bax, bu da sənə düz söz, anladın?!

Sonra isə keçib qıraqda peysərini ovuşduran şagirdə təskinlik verdi:

– Eyb etməz, boş şeydir. Bir azdan keçib gedər. Əsas məsələ odur ki, düz söz deyən adam gərək şapalaq yeməyə də dözə bilsin.

O, üzünü sinfə tutub hamının eşidə biləcəyi bir tərzdə dedi:

– Uşaqlar, unutmayın ki, düz söz deyəndə ad çəkmək olmaz.

Hamı mat-mat müəllimə baxırdı. Elə bu anda zəng vuruldu.

## EYNİ SƏHV



Zərifə İsmayılova uşaqlara evdə "Mənim arzum" mövzusunda inşa yazmağı tapşırdı.

...Səhərisi gün onun dərsinə bir az qalmış sinifdə böyük canlanma vardı. Uşaqlar narahat-narahat ora-bura qaçaraq vurnuxurdular... Əvvəlcə "Çəyirtgə" adıyla məşhurlaşmış "təmizkom" dilləndi:

– Lap yadımdan çıxıb. Yazını yazmamışam. Dünən anamla xəstəxanaya axşam növbəsinə getmişdim. Orda o qədər xəstə var ki, heç bilirsiniz həkimlərin necə gözəl xalatları olur!...

"Çil-çil" Rasim də əllərini yellədi:

– Mənsə atamla balıq tuturdum. Onlar qurdları acgözlüklə elə içəri ötürürdülər ki...

İdman həvəskarı da tənbəl-tənbəl görnəşdi:

– Bizimkilər yenə qalib gəldilər. Atam deyir ki, mütləq səni bu il xokkeyə aparacağam.

Bantlı qız da gülümsündü:

– Xalamgildə bayrama hazırlıq gedir. Ona kömək edirdim. Xalam deyir ki, əgər belə getsə, sən böyüyəndə gözəl aşpaz olacaqsan...

...Onlar Zərifə müəllimi yadlarına salıb yenə də narahat oldular. Dərsin başlanmasına az qalmışdı.

Elə bu vaxt sinifin ən tənbəl uşağı onlara yanıq verə-verə dəftərini yuxarı qaldırdı:

– Ey, tənbəllər, mən yazmışam. Xalamın qızı paralel sinifdə oxuyur. Onun dəftərindən köçürmüşəm.

Qızlar həmin andaca onun başına toplaşdılar. Əlindəki dəftərdən yapışaraq dartışdırdılar:

– Mənə də ver, mənə də!...

Oğlan könülsüz-könülsüz dəftəri partanın üstünə atdı:

– Məndən nə gedir, istəyirsiniz hamınız köçürün. Onsuz da müəllimə özünüz cavab verəcəksiniz.

...Müəllim sinifə girəndə bir nəfər də olsun ev tapşırığını həll etməmiş şagird tapılmadı. O, dəftərləri evdə yoxlayıb qiymətləndirmək üçün

yığdı.

Səhərisi gün "İnşa yazıda buraxılmış səhvlərin düzəlişi" dərsində müəllim üzünü sinifə tutub elan etdi:

-Uşaqlar biz bu gün böyük və kobud bir səhvin təsihinə çalışacağıq. Bu elə bir səhvdir ki, bütün sinif eyni bir səhvi buraxıb. Xahiş edirəm bu cümləyə hamınız diqqət yetirəsiniz:

"Mənim atam **Qəşəm** təyyarəçidir. Atam Qəşəm həmişə səhər tezdən evdən çıxıb öz təyyarəsi ilə göyə uçur. Məhz təyyarəçilik sənətini də mənə atam **Qəşəm** sevdirib".

Şagirdlər öz atalarının adlarını yadlarına salıb utanaraq başlarını aşağı dikdilər.



# PİŞİK ƏHVALATI

*(hekayə-senari)*



...Bax bu da saatın zəng səsi...Bu gün sentyabrın biridir... Bütün yeddi yaşlı uşaqlar kimi Ceyhun da məktəbə getməlidir. Anası onu yuxudan oyadıb təzə paltarını əyninə geydirərək dedi:

– Daha bəsdir pişiklə oynadıqın. Haydı məktəbə.

Bu gün çox-çox uşaqlar öz oyuncaqları, öz sevimli dovşanları, itləri ilə vidalaşıb məktəbə gedirdilər. Anaları söz vermişdi ki, qayıdıb gələnə kimi onlara tort, düşbərə daha kim bilir nələr hazırlayacaq.

Ceyhunasa öz doğma pişiyindən ayrılmaq çətin idi. Ümumiyyətlə, Ceyhun yaşında olan hər bir uşağa sevdiyi şeydən ayrılmaq çətin olur. Ona görə də o, ipək kimi ağ tükləri olan pişiyi sinəsinə sıxıb dodaqlarını büzdü:

– Ana, ay ana, Mişanı da, pişiyin adı belə idi, məktəbə aparıram. Mişa da məktəb istəyir.

Anası pişiyi onun əlindən almağa cəhd göstərdi. Lakin Ceyhunun yanaqlarından süzü-

lən göz yaşını gördükdə, o da axır ki, razılaşdı.

Bir azdan onlar əllərində məktəbli çantası və sevimli Mişa məktəbə gedirdilər. Əvvəlcə tramvaya mindilər, sonra piyada getdilər. Sonra... Bax, budur, bu da məktəbin üçmərtəbəli böyük binası... Uşaqlar əllərində gül dəstəsi müəllimin yolunu gözləyirlər. onlar necə də qəşəngdirlər: Əyinlərində gözəl-gözəl ipək paltarlar, əllərində qırmızı, yaşıl, göy çantaları da var. Hələ qızlar başlarına lent də bağlayıblar.

Ceyhun da öz pişiyi ilə onların arasındadır. Başına lent bağlamış qız yaxınlaşıb Mişanın başını tumarlayır:

– Adı nədir?

Ceyhun sevinclə pişiyin adını deyir:

– Mişa!

Qıvrımsaç bir oğlan pişiyi quyruğunu tumarlayır:

– Lap ilana oxşayır.

Bax, bu da zəng səsi... Dərs başlayır. Uşaqlar öz yerlərini tuturlar. Həyəcanla müəllimin yolunu gözləyirlər. Mişa da onlarladır. Qapıda sinif müəllimin addım səsləri eşidilir. Bu da müəllim... Uşaqlar təəccüblə ona baxırlar. Deməli, müəllim belə olurmuş, deməli, müəllim eynəkli olurmuş.

Müəllim içəri daxil olub, ağ şüşəli eynəyini üstündən ətrafa baxır. Onun səsi eşidilir:

– Salam, uşaqlar!

Uşaqlar sevinərək, ona cavab verirlər. Ömürlərində ilk dəfədir ki, bu boyda böyük əmi onlara salam verir. Bu zaman başqa bir səs də eşidilir. Bu Mişanın səsidir. O miyoldayır, deyəsən yenə acıyıbdır. Müəllim ətrafa nəzər salır:

– Bu nə intizamsızlıqdır, sinifdə edirsiniz? Kimdir bunu edən?

Yazıq Mişa hardan bilsin ki, bura sinifdir. Burda intizamsızlıq edib miyoldamaq olmaz. O, yenə də miyoldadı. Özü də daha bərkdən, daha yanıqlı miyoldadı. Axır ki, müəllim də onu görə bilmişdi. O, pişiyin quyruğundan tutaraq partanın altından çıxarmağa çalışır:

– Aha, şeytan, sən burdasanmış... İndi mən sənə.. Vayy... elə yox... vəhşi...

Mişa miyoldayır, müəllimin əlini cırmaqlayır, xilas olmağa çalışır...

...Bax, bu da zəng səsi... müəllim direktorun kabinetinə qaçır və həyəcanla dillənir:

– Yoldaş direktor. Onlar sinfə pişik gətiriblər. Məni dərs keçməyə qoymurlar... heç bilirsiniz necə vəhşidir?! Elə miyoldayır, miyoldayır... Direktor sıçrayaraq kreslodan ayağa

qalxır. Hirslənərək əlini stola çırpır:

– Bu nə biabırçılıqdır?! Tez olun həmin şagirdi bura çağırın, görüm o, nə cürətlə məktəbə pişik gətirib.

Sinif müəllimi Ceyhunun adını deyəndə direktor süstəlib kresloya yıxıldı:

– Əzizim, siz nə edirsiniz, heç bilirsiniz onun atası kimdir? Siz nə danışırsınız?! Tez gedin, görün pişiyə bir şey olmayıb ki... Yalvarıram gedin, pişiyi yola gətirin, onu intizama dəvət edin. Axı bir pişik nədir ki, siz onunla da bacara bilmirsiniz? Gedin, pişiyi incitməyin...

Direktorun bədəni hələ də titrəyirdi. Sinif müəllimi nə olduğunu anlamayaraq ona baxırdı. Müəllim yenə sinifə getməlidir. Qulağında yenə də Mişanın səsi cingildəyir... Bu gün sentyabrın biridir. Bu gün direktorun ən kədərli, sinif müəlliminin ən bədbəxt günüdür...

***

... İlahi, bu uşaqlar necə də paxıl olurlar. Onlar Ceyhuna, onun pişiyinə həsəd aparırdılar. Axı necə ola bilər ki, Ceyhunun pişiyi olsun, onların yox? Ceyhun məktəbə pişik gətirsin, onlar gətirməsin? Yox, onlar bütün bu əhvalatla razılaşa bilməzdilər. onlar üsyan etməyə hazır idilər...

Evlərində qaldırdıqları qalmaqal o dərəcəyə çatdı ki, valideyinlər axırda oturub əməli-başlı fikirləşməli oldular. Belə bir nəticəyə gəldilər ki, bu pişik axırda onların başına olmazın oyunlar gətirəcək. Çox oturub fikirləşəndən sonra maarif şöbəsinə ərizə yazıb şikayət etdilər ki, pişik onların uşaqlarının dərs keçməsinə mane olur. Tezliklə maarif şöbəsindən böyük bir yoxlama təşkil olundu. Uzun müddətli yoxlama nəticəsində akt bağlandı, həmin aktın məzmunu aşağıdakı şəkildədir:

**AKT №**

...Oktyabr... tarixdə... №-li məktəbdə apardığımız yoxlama nəticəsində məlum oldu ki, məktubda göstərilən faktlar düzgün deyildir. Ceyhun... oğlu məktəbdə ən fəal, ən nümunəvi şagirddir. Onun saxladığı pişiksə valideyinlərin ərizədə göstərdikləri kimi zolaqlı rəngdə yox, ağ rəngdədir (təkrar edirik-ipək kimi ağappaq.) Özü də çox ağıllı, kamallı, sakit, sözəbaxan bir pişikdir. Həmişə məktəbin asayişində durur. Onu zərərverici həşəratlardan, (siçanlardan) qoruyur.

Aktı aşağıdakı şəxslər vasitəsiylə imzalayırıq:

1.............................................................................

2.............................................................................

3.............................................................................

Sonrasa zəng edib Ceyhunun atasını təbrik etdilər ki, onun oğlu belə gözəl bir pişik saxlayır.

Valideyinlər heç rahat otururardılarmı? Onlar heç cürə bu pişikdən əl çəkmək istəmirdilər. Yenə də yazırdılar. Yenə də pişiyin məktəbdən çıxarılmasını tələb edirdilər. Bu dəfə qəzetə elə bir məktub yazdılar ki, qəzet müxbiri məktubu oxuyanda dəhşətə gəldi. Acığını deyək ki, **"pişik-pələng", "yırtıcı-pişik"** kimi kəlmələrdən o özü də qorxdu. Və əlindəki bütün vacib işləri buraxıb tez məktəbə yola düşdü. Pişiyi bir xeyli nəzərdən keçirib geri qayıtdı. Növbəti nömrələrdən birində Ceyhunun pişiyi barədə böyük bir məqalə dərc olunmuşdu. Qəzet müxbirinin çap olunmuş məqaləsi belə başlayır:

## "Şagidlərin ən yaxın dostu"

Əziz balaca dostlar. Siz, yəqin ki, bu əhvalatı eşidəndə təəccüblənəcəksiniz... İndi məktəbdə Ceyhunu tanımayan yoxdur. O bu hörməti öz pişiyinin – Mişanın sayəsində qazanmışdır.

Pişik biz insanların sevimlisidir. Alimlərdən birinin apardığı tədqiqatlardan məlum olur ki, bir pişik neçə siçanın ömrünə qənim kəsilir. Əgər pişiklər olmasaydı, yer üzünü siçanlar alardı. Bu isə "**aclıq**" və "**ölüm**" deməkdir.

Əziz balalar, siz də Ceyhun kimi pişikləri qoruyun, onların sevin! Əgər pişiklər olmasaydı biz nə edərdik? Pişiklər bizim xoşbəxtliyimizdir, gələcəyimizdir, bu günümüzdür, sabahımızdır... Mən pişiksiz bu dünyanı təsəvvür eliyə bilmirəm... Pişiklər.. Və sairə bu kimi sözlər...

Bu hadisədən sonra valideynlər necə də "quduzlaşdılar" .Necə də qorxunc oldular. Valideyinlər dəstə-dəstə yığışıb direktorun üstünə gəldilər. Direktor növbədənkənar valideyinlər iclası çağırmalı oldu. Valideyinlər iclasından çıxarılmış protokolla tanış olun:

**PROTOKOL №**

**Sədr:** direktor

**Katib:** müavin

**əsas məsələ:** – məktəbdə təlim-tərbiyə məsələsi

Ceyhunun pişik məsələsi

**Çıxışlar:** Gülnazın atası: – Mən bilmirəm

bura məktəbdir, yoxsa pişikxana? Bu nə biabırçılıqdır, edirsiniz? Yox, mən öz övladımı bura buraxa bilmərəm...

**Cimnazın atası:** – Susun, siz allah, heç bilirsiniz Ceyhunun atası eşitsə nələr baş verə bilər? Susun, siz allah, susun!...

**Eyvazın atası:** – Yox, biz susmayacağıq, yoldaşlar, heç bilmirəm evə nə üzlə gedəcəyəm. Uşağım ağlayır, arvadım tapşırıb ki, pişik olmasa evə qayıtma. Özü də mütləq Siamsiko al. Mən bu şəhərdə Siamsikonu hardan tapım, indi başıma haranın küllünü töküm?...

**Gülgəzin atası:** – Əziz yoldaşlar, mənə gəldikdə, Ceyhun doğrudan da çox nəcib iş görüb. O, əsl məktəblidir, əsl insandır, humanistdir. Ona görə ki, heyvanları sevir. Amma biz böyüklər ona qarşı üsyan edirik. Gərək biz də Ceyhuna qarşı çıxmayaq onun təşəbbüsünə qoşulaq. Məktəbdə pişiklərdən ibarət canlı güşə yaradaq. Ancaq məncə, ağ pişik yox, qara pişik olsaydı, daha yaxşı olardı.

**Replika:** – Özün də qarasan, pişik də qara...

**Cavab:** – Bura bax, sən orda çox miyoldama, başını əzərəm.

**Direktor:** – Yoldaşlar, susun, siz allah, unutmayın ki, biz məktəbdəyik. Doğrudan da,

yoldaşlardan hansısa gözəl bir fikir sölədi: -məktəbdə canlı güşə yaratmaq!... Ancaq mənə gəldikdə qara pişik yox, zolaqlı pişik məktəbu daha gözəl göstərər. təkrar edirəm, -zolaqlı pişik!...

Çıxarılmış qərar:

“hər valideyin öz uşağına zolaqlı bir pişik alsın, məktəbdə pişiklərdən ibarət canlı güşə yaradılsın”.

Hə, əziz valideyinlər, axır ki, rahat oldunuz. Ağrımayan başınızı işə saldınız. İndi zəhmət çəkin gedin evinizdə oturun.

Gördünüzmü üsyan etməyin axırını? Üsyan edənlərimə bir bax!

***

Tezliklə məktəbdə canlı bir güşə yaradıldı. İndi uşaqlar Ceyhunun paxıllığını çəkmirdilər. İndi valideyinlər də şikayət etmirdilər. İndi bircə ibtidai sinif müəllimi ağlayırdı. Bircə onun göz yaşı qurumaq bilmirdi. Qəfəslər onun sinifinin ağzında yerləşdirilmişdi. Ən başda yenə də Ceyhunun pişiyi dururdu. Onun ardınca başqa qəfəslər düzülmüşdü. Sinif müəllimi üsyan etməyə hazır idi. Bu nə qəribə dünyadır, insalar hamısı üsyankar olublar.

...Bu gün o dərsə hamıdan tez gəlmişdi. Ətrafı nəzərdən keçirib qəfəslərə yaxınlaşdı. Bax, indi pişiklərdən intiqam almağın əsl vaxtıdır. O, bir-bir qəfəslərin ağzını açdı. Əlindəki ağacla pişikləri bir-bir qovub bayıra itələdi. Azadlığa çıxmış pişiklər götürülüşdülər. Onlar necə də bərk qaçırdılar. Bəzisi pəncərədən bayıra tullanır, bir parası pilləkanları atdana-atdana gedir, bəzisi də qapıdan qaçırdı. Pişiklər üsyan etmişdilər. Sinif müəllimi qaçan pişiklərin ardınca baxıb gülümsünürdü. Nəhayət o, pişiklərdən qisas ala bilmişdi...

Lakin bu belə olmadı. Qapı xidmətçisi müəllimin qəfəsləri necə acdığını görmüşdü. O, xəbəri direktora çatdırdı. Direktor bu xəbəri eşidəndə bir neçə dəfə dərman qəbul etməli oldu. Uzun axtarışdan sonra sinif müəllimi tapıldı. Ona şəxsi işinə yazılmaqla töhmət verdilər. Sinif müəllimi o qədər hirslənmişdi ki, evə getməmişdən qabaq meyxanaya girib möhkəmcə kefləndi. Evə qayıdanda isə arvadının verdiyi sualları cavabsız buraxıb onu bir necə yerdən çırmaqlayaraq təpiklədi. Arvadı isə aldığı zərbələrdən sonra belə qənaətə gəldi ki, əri dəli olub və tez psixi xəstəxanaya zəng vurub həkim çağırdı. Aradan yarım saat keçməmişdi ki,

həkimlər içəri daxil oldular. Sinif müəllimi tutduğu işdən peşiman-peşiman büzüşərək divanın küncündə oturmuşdu. həkimlər isə xəstəni şıltaqlıq edəcəyini nəzərə alıb əllərində ip və iynə ehtiyatla ona yaxınlaşmağa başladılar. O isə məsələnin nə yerdə olduğunu anlamayaraq hələ həkimlərə sataşmağa da macal tapdı:

– Əzizim, sizə kim lazımdır?

Bu söz elə ağzından təzəcə çıxmışdı ki, həkimlər tutub onun qollarını bağlamağa çalışdılar. Sinif müəllimi müqavimət göstərərək onların güclü pəncəsində çırpınırdı:

– Buraxın məni, buraxın, əclaflar, yoxsa... elə yox, vəhşi!...

Sinif müəllinin əli-ayağı bağlı halda maşına oturtmuşdular...

Aradan bir saat keçmişdi ki, psixi xəstəxanada müəllim sakitləşdi. Lakin arabir sinəsi hıçqırtı ilə qalxıb-enirdi...

"Gör məni kimə oxşadıblar. Dəlilər. pişiklər... Miyo! Amma yaman qaçırtdım onları... bax belə.. Pişt! Piştə!...

## Epiloq əvəzinə

Qaldı ki, pişiklər başına gələn sonrakı işlərə... bəziləri qaçıb anbarlarda gizləndi, bəziləri maşının, tramvayın altında qalıb o dünyalıq oldu, bəziləri də tutulub bazarda yenidən satıldı. Qaldı ki, Ceyhunun pişiyinə... Uzun axtarışdan sonra onu anbardan tapıb, geri qaytardılar. O qədər siçan yemişdi ki, pişiyi tanımaq olmurdu.

Qaldı ki, pişiyin sonrakı taleyinə... bir gün xəbər çıxdı ki, qonşu paralel 1 b sinfində oxuyan Emanın gətirdiyi buldok Ceyhunun pişiyini boğub öldürüb. Qaldı ki, buldok məsələsinə, onu da gələn dəfə...

Bəlkə də bu olub, bəlkə də heç olmayıb. Bəlkə də Ceyhun adlı uşaq dünyaya gəlməyib. Ancaq görənlər belə deyirlər. Onlar da qonşulardan eşidiblər. Qonşular da deyir ki, bu olayı kimsə avtobusda danışırmış. Babalı deyənlərin boynuna.



# A BƏY,
# SAQQIZ NECƏYƏDİR?



Atadan-babadan heç nəyimiz də olmasa, yaranışdan quru bəy doğulmuşuq. Bəy oğlu bəy olmuşuq, xan oğlu xan dünyaya gəlmişik, sultan nəvəsi sultanıq. Özgə millətlər lap göyə də dırmaşsalar, kosmosa da çıxsalar, yenə bizə tay ola bilməzlər. Biz özgə aləmik, özgə cürəyik, özgə canıq.

Özü də son vaxtlar bu bəy kəlməsi o qədər dəbə minib ki, hətta adamlar küçədə, bayırda da bir-birinə bu sözlə müraciət edirlər: Həsən bəy, buyurun, rica edirəm Hüseyn bəy əyləşəsiniz, xoş gördük Hüsü bəy, bir də xoş gördük, yenə də xoş gördük, sizə zəhmət olmasa, dübarə xoş gördük. Özgələr də elə bilir bizim bəyliyimiz bu mehribançılığımızdadır. Elə ona görə də hamısı pıspısa Xədicə kimi paxıllıqlarından partlayırlar. Bizə həsəd aparırlar. Amma bilmirlər ki, bu mehribançılığı-

mız çətini görüşüb ayrılıncadır. Elə ki, ayrıldıq, başlayırıq başqa hava çalmağa, bir-birimizin kölgəsini qılınclamağa, bir-birimizin arxasınca deyinməyə. Gör dünyanın harasıdır ki, Təzə bazarın təsbeh satan alverçisinə də bəy deyirlər. QAZ-53-ün sürücüsünün də ürəyindən bəylik keçir. Hətta 25 manata arayış verən "upravdom" işçisinin də ona bəy deməyənlərdən acığı gəlir. Bir bunlara deyən lazımdır ki, bəylik sizin haranıza yaraşır? Bəy olar sədr, müdir, ispolkom, zavmaq, lap elə təzəcə işə başlamış icra hakimiyyətinin başçısı. Yoxsa sənin kimi. Bəyin torpağı olar, evi olar, pulu olar, QAZ-31-i olar. Sənin nəyin var? Sən ki lütün birisən, a lüt balası, lüt. Bir həsirsən, bir Məmmədnəsir. Sənin ki, cır-cındırından milisoner hürkür.

Məsələ bunda deyil. Məni içimi göynədən başqa öskürəkdir. Məni çərlədən tamam ayrı azardır. Açıb-ağarda bilmirəm. Deməyə qorxuram ki, gedib özgələrin də qulağına çatar, sonra bəy adımıza ləkə düşər. amma neyləyim ki, demirəm içimi yandırır, deyirəm çölümü. Hər halda desəm yaxşıdır. Heç olmasa bu qış acından ölsəm ürəyi dərdsiz ölərəm.

Bir də görürsən ki, həmin bəylərdən biri yeşik taxtasını qoyub qabağına, küçədə saqqız

satır. Bazburutuna da söz ola bilməz. Bəylik elə bil boyuna biçilib, çiyninin ortasında beş atlı gizlənər. Boynundan dəyirman daşı asmaq olar. Amma nə edəsən ki, bu boyda bəy uşaqları toplayıb onlara saqqız partlatmağın sirrlərini öyrədir. Yaxud, başqa bir bəy günün günorta çağı, adamların gözü baxa-baxa, birini döyə-döyə aparıb salır milis idarəsinə. Cibini silib-süpürdükdən sonra, tərtəmiz buraxır çölə. Bütün bunları hamımızın bildiyinə görə sadalamaq istəmirəm. Ancaq bunlara deyən bir bəy oğlu bəy gərəkdir ki, heç utanmırsan a bəy. Heç bəy də belə iş tutar?...

...Düz demirəm Həsən bəy? Hüseyn bəy, səni and verirəm o bəy adına, düzünü de, düz danışmıram? Hüsü bəy, mən ölüm, özün de, bəlkə səhv deyirəm?!...

Vallah, billah, simismillah, bu gündən sonra mən də özümü bəy adlandırmasam, heç dədəm qatıqçı Məhəmmədhəsən kişinin oğlu deyiləm...

# YUXU



Kiçik mühəndis yatmışdı. Elə bu vaxt kimsə onun böyrünə dürtmə ilişdirdi. O gözlərini açıb acıqla mürəkkəbqabını həmin adama, tolazladı:

– Köpək uşaqları, qoymazlar ki, yuxunu da axıra kimi görək.

Mürəkkəbqabı divara dəydi. Hamı təəccübləndi... hətta şöbə müdiri heyrətlə gözlərini açıb əsnədi:

– Heç bir yuxuya görə də belə biabırçılıq olar?!

Kiçik işçi ona tərəf çevrilib təəssüflə dilləndi:

– Əgər yuxuda nə gördüyümü bilsəydin, yəqin ki, mənimlə heç vaxt belə danışmazdın.

Baş mühasibin toxuduğu şal əlində yarımçıq qaldı:

– necə yuxudur ki, səni bu qədər cürətləndirib?!

Kiçik mühəndis ayağa qalxdı, saymazyana cavab verdi:

– Mən o yuxunu sənin kimi adamlara danışmaram.

O, asılqandan paltosunu götürüb otaqdan çıxdı.

Şöbə müdirinin qorxudan bənizi ağarmışdı, öz-özümə düşünürdü: “Bu zalım balasının elə əvvəldən mənim yerimdə gözü vardı. Yəqin yuxuda mənim yerimə keçdiyini görüb. Mütləq tədbir görmək lazımdır”.

Bir azdan bu xəbər müəssisənin həmkərlar təşkilatının sədrinin də qulağına çatmışdı. O da şübhələnmişdi. Ötən il neçə-neçə “putyovka”ları “yandırmışdı”. Bəlkə də bu elə həmin yuxuydu?! Bəlkə də?!

O kiçik mühəndisi yanına çağırıb yer göstərdi:

– Buyur əyləş, eşitmişəm gəzməyə getmək istəyirsən, bəs nə əcəb getməyirsən?

Mühəndis başını aşağı saldı.

– Nə bilim!-daha heç nə demədi. Onsuz da həmkarlar hər şeydən xəbərdardı. Onun stolunun siyirtməsində düz üç ərizəsi yatırdı. Həmkarlar təşkilatının sədri başını yuxarı qaldırdı:

– Sabah sənə putyovka verərik, ailəni də götürüb gedərsən Qara dəniz sahillərinə.

– Çox sağ ol.

Mühəndis durub getmək istəyəndə, həmkarlar onu arxadan səslədi:

– Ancaq yaxşı olardı ki, getməmişdən qabaq o yuxunu mənə danışaydın.

Mühəndis sərt hərəkətlə qapını çırpdı:

– Olmaz!

Bir azdan onu direktor çağırtdırdı. O, qəbul otağına girəndə uzaqdan yanına dəvət etdi:

– A kişi, belə olmaz, kiçik işçi olanda nə olar, arabir gəl otur söhbət edək, (söhbət ha!), dərdləşək. Sənin yazılarına da baxmışam. Necə də gözəldir. Öz-özümə deyirəm ki, a kişi, gör bir ha, istedadlar bizdə batır, amma gözümüz görmür. Gedib dünyanın o başından istedad axtarırıq. Çox xoşuma gəldi. Bu yaxınlarda mütləq müzakirəsini keçirəcəyik. Arxayın ola bilərsən.

Sonra isə mühəndisin qulağına pıçıldadı:

– Hə, əzizim, bir də deyirlər ki, sən gözəl bir yuxu görmüsən. Xahiş edirəm, onu mənə danışasan.

Mühəndis günahkar-günahkar başını aşağı dikdi:

– Özümə söz vermişəm ki, bu barədə heç kimə bir söz deməyim. Bu mümkün deyil.

Direktor ona lap yaxın əyləşdi:

– Əşşi, başa düşürük, fil qulağında yatmamışıq ki, əl-əli yuyar, əl də üzü. Elə-belə istəmirəm ki, istəyirsən lap o yuxunu mənə sat.

Mühəndis narazılıqla etiraz etdi

– Olmaz!

Direktor qəzəblənib əlini stola çırpdı:

– Onda zorla alaram.

Mühəndis ayağa qalxdı:

– Bacarmazsan.

Bu sözdən direktorun köpü yatdı. Başa düşdü ki, axmaq söz danışır. Yuxunu zorla almaq mümkün deyil. Mühəndis qapıya tərəf yönəldi. Qapı o üzdən örtüldü. Nahar fasiləsinə az qalmış nazirlikdən zəng vurub mühəndisi ora çağırtdırdılar.

## ŞƏXSİ İŞ



***Zapiska***

Rəis, bu yoldaş bizim adamdır. Onu işə götür.

*Müdir Müdirov.*

**P.S.** Axşam gələrəm, qalan şeyləri danışarıq.

***

Baş bazanın direktoru Rəis Rəisov yoldaşa Anbardarov Anbardar Anbardar oğlu tərəfindən

**Ərizə**

Balıq susuz, mən anbarsız yaşaya bilmərəm. Anbar mənimçün dənizdi, çaydı, oksigendi. Sizdən xahiş edirəm, bu işdəki səriştəmi və anbara dərin məhəbbətimi nəzərə alaraq məni işə götürəsiniz.

**İmza:** *A. Anbardarov.*

## Tərcümeyi-hal

Mən, Anbardarov, Anbardar Anbardar oğlu, Bakı şəhərindəki anbarların birində anadan olmuşam. Dördillik təhsilimi başa vurduqdan sonra cındırdaşıma trestində anbar fəhləsi kimi işə başlamış, anbarı yaxşı silib süpürdüyümə görə şərab zavodunda anbar müdiri kimi məsul vəzifəyə irəli çəkilmişəm. Bu vəzifədə özümü "slişkom" yaxşı göstərdiyimə görə iki illik istirahətə göndərilmişəm. "Sanatoriya"dan qayıtdıqdan sonra tabaçnı fabrikə təzədən anbar müdiri vəzifəsinə işə düzəlmişəm. Burada "stroqi" qayda yaratdığımı nəzərə alıb məni "tovarnı" bazaya anbar müdiri vəzifəsinə göndəriblər. Az müddətdə neftayırma, pambıqtə-

mizləmə zavodlarında, toxuculluq, tikişçilik fabriklərində, yerli sənaye, ağır sənaye, yüngül sənaye nazirliklərindəki anbarlarda öz peşəmlə böyük şöhrət qazanmışam.

Hal-hazırda əmək qabaqcılıyam, heç yerdə işləmirəm, rəhbərlik tərəfindən tənbehim yoxdur.

Atam anbar müdiri, anam anbar süpürgəcisi, qardaşım anbar gözətçisi, bacım anbarda tabelçi işləyir. Anbarda tutulanımız yoxdur, hamımız aydan-ayrı, sudan duruyuq.

**İmza:** *A. Anbardarov.*

**Xasiyyətnamə**

Verilir Anbardarov Anbardar Anbardar oğluna ona görə ki, o, anbarın bütün qapılarına yaxşı bələddir, işlədiyi müddətdə özünü əliaçıq anbar müdiri, rəhbərliyin qayğısına qalan təvazökar yoldaş kimi göstərə bilmişdir. Ona cəsarətlə bütün anbarların açarını tapşırmaq olar.

**İmza:** *A. Anbardarov.*

**Arayış**

Verilir Anbardarov Anbardar Anbardar oğluna ona görə ki, o, həqiqətən Nizami küçəsindəki üç otaqlı, Mehdi Hüseyn küçəsindəki beş otaqlı, Xaqani küçəsindəki altı otaqlı mən-

zillərdə yaşayır.

**İmza:** *JEK müdiri.*

## ƏMR №555

Anbardarov Anbardarov yoldaş Baş bazanın baş anbarına baş müdir vəzifəsinə təyin edilsin.

ƏSAS: M.Müdirov yoldaşın zapiskkası və axşam iclasında əldə olunmuş razılaşma!

**İmza:** *RƏİS Rəisov.*

## TAPŞIRIQ



Salonda sakitlik hökm sürürdü. Səhnədə məşhur gülüş ustasının səsi arabir bu sükutu pozurdu. Qabaq cərgədə kolxoz sədri öz ailəsi ilə əyləşmişdi. O, hörmətli qonaqların yanında elə belə oturmaq istəməmişdi, tamaşaya özünün ən yaxşı paltarında gəlmişdi. Gülüş ustası baxışlarını dolandırıb salona nəzər saldı. Bu dəfəki qastrol səfərində o, bütün qüvvəsini işə salmışdı.

Lakin nədənsə heç kim gülmürdü. Salonun donuq baxışları ona dikilmişdi. Gülüş ustası lap əsəbiləşdi. Axı, necə ola bilərdi ki, onun kimi məşhur aktyor öz repertuarı ilə tamaşaçıları əyləndirə bilməsin. Onun bədənindən tər axırdı. Dözə bilməyib rejissor köməkçisinə tərəf qışqırdı:

– Tez ol, sal pərdəni.

Elə bu vaxt qara kostyumlu sədr səhnə arxasında göründü.

– Nə olub, nəyiniz çatmır!

Gülüş ustası lap odlandı:

– Hələ bir soruşursan da! Mən burada özümü həlak eləmişəm, qışqırmaqdan boğazım çırılıb, ancaq heç kim gülmür. Allahın dodağı qaçanı da yoxdur.

Sədr razı halda özünü çəkərək gülümsündü:

– Bə nədir? Hünərləri nədir gülsünlər? sizin kimi mötəbər qonaqların qarşısında ağızları nədir ki, dişlərini ağartsınlar. Mən özüm onlara möhkəm tapşırmışam. Cınqırlarını çıxartsalar dədələrinə od vuraram.

Gülüş ustası hirsindən pörtdü:

– Axı, mən gülüş ustasıyam. Biz ona görə oynayırıq ki, gülsünlər.

Sədr məsələnin nə yerdə olduğunu anlayıb peysərini qaşıya-qaşıya səhnəyə tərəf yönəldi:

– Xahiş edirəm, əsəbiləşməyin. Mən bu saat tapşıraram, göstəriş verərəm.

Sonra o, səhnəyə çıxıb tamaşaçılara nəsə dedi. Sanki tamaşaçıların qırışığı açıldı. Salondan gurultulu alqış qopdu.

Məşhur aktyor da, onun dəstəsi də yerlərində donub qalmışdılar. Heyran-heyran dönüb səhnədəki gülüş ustasına baxırdılar. Onların da dodağında təbəssüm görünürdü.

## ŞİKAYƏT



Müdirimizdən şikayət etdim. Nə bilirdimsə "döşədim". Nazirliyə göndərdim. Tezliklə cavab aldım: "Tədbir görülmək üçün, ... idarəsinə göndərilib".

Ora zəng vurdum. Cavab verdilər ki, ümumiyyətlə, bu işə bizim şöbə cavabdeh deyil, şikayətinizin cavabını flan idarədən ala bilərsiniz. Flan idarəyə zəng vurmağa maçal tapmamış direktorun telefonu zingildədi: O, təcili

yanıma gəl, -dedi.

Görəsən nə olub yenə?! Eyb etməz tezliklə mənə çəkdiyi dağların ağrısını bir-bir bədənimdən çıxardaram. Qoy bilsin ki, dəvədən böyük fil də var.

Direktorun otağına girirəm. Dilucu, - əyləş- deyir. Otururam, heç başını qaldırıb mən tərəfə baxmır da. Heç elə bil ki, onun yanına girən böyük bir idarənin böyük mühəndisi deyil, balaca bir milçəkdir: "Eybi yoxdur, eyb etməz, baxarıq, görərik, tanış olarıq"...

Handan-hana başını qaldırıb xəbər alır.

– O böyük mühəndis sənsən?!

Cəsarətimi toplayıb cavab verirəm:

Bəli, həmin adam mənəm.

– O, isə əlindəki qələmlə stolu döyəcləyir:

Çox yaxşı, çox gözəl, əyləş..

Sonra başını aşağı salıb başladı öz işiylə məşğul olmağa. Yenə də sükut.

Yenə də şübhələr, yenə də üzücü dəqiqələr...

Bu direktorumuz da qəribə adamdır,

Adamın lap ürəyini üzür: o yenə də başını qaldırıb soruşur:

– Hımm, deməli, o sənsən.

Deyirəm:-Bəli, mənəm.

Ehtiyatla stolunun üstündəki kağızı yuxarı

qaldırıb gözlərim önündə yelədir:

– Bunu sən yazmısan?

Bu nədir, nazirliyə göndərdiyin məktub. Özü də şikayətim bu direktordandır. O, sanki ürəyimdən keçənləri oxuyur:

– Üstümə göndəriblər, sənin şikayətinə baxıb, tədbir görüm. Amma gözəl yazmısan, lap ürəyimdən xəbər vermisən.

Səndələyə-səndələyə otaqdan çıxıram. Çırtma vursalar sifətimdən qan damar. Bu nədir, məni ələ salıblar. Yenə də məktub, şikayət, özü də yuxarı təşkilatlara. Məktubuma cavab gəldi ki, aldıq. Ürəyimdə dedim: -Çox gözəl.

Oturub günləri sayıram. Komişsiyanın gələcəyi günü gözləyirəm. Sonra faktlar başlanacaq araşdırılmağa. Özü də faktlar o qədər tutarlı və sanballıdır ki, bundan sonra çətin ki, idarəmiz tab gətirib yerindən laxlamasın: necə ola bilər ki, "ölü" adamı hər gün işə aparıb gətirəsən, kişini analıq məzuniyyətinə çıxardasan?! vəs. və i.

Sonra direktora elə bir toy tuturlar ki, anası bəy gördüsünə gəlir. Məni yanına çağırıb yalvararaq deyir:

– Böyük mühəndis, bağışla tanımamışam səni. Keç böyük günahlarımdan.

Bir həftə keçir, daha bir həftə.. Dözə bilmə-

yib zəng vururam. – Məşğul oluruq, hələ vaxt var, gözləyin, məktubunuza cavab verəcəyik...

Bir azdan yenə zəng, darıxmayın-deyirlər, hər şey yaxşı olacaq, heç bilirsiniz bura gündə nə qədər məktub gəlir. Sizin dərdiniz onları yanında muştuluqdur. Səbr edirəm. gözləyirim... Yenə də direktorun telefon zəngi... Yenə də meşin qapı, yenə də həmin suallar.

Böyük mühəndis, filankəs...

– Mən.

– Sən yazmısan?

– ...!

– Gözəl yazımsan. Ancaq nahaq. Özünə əziyyət vermə.

Bu adamlar mənim əsəblərimlə oynayırlar. Məni məsxərəyə qoyurlar. Bu nə oyundur mən düşmüşəm.

Daha yuxarı idarəyə bir tel. Başqa idarəyə digərini, üçüncüyə üçünsünü.. Cavab gəldi: – aldıq. Direktor məni yanına çağırtdırdı: – özünə əziyyət vermə, – dedi.

Bu nədir, deyəsən yer üzündə direktordan savayı mənim şikayətimə baxa biləcək adam yoxdur... Yenə də...

Tezliklə direktoru vəzifəyə apardılar. Rahat nəfəs alıb yazmağa son qoydum.

# "Şətrəng" kafesi



## MƏN NECƏ ÇEMPİON OLDUM
*(Novella)*



Bütün çempionların həyatı qəribə təsadüflərlə doludur. Cavanlıqda nə vaxtsa eşitmişdim ki, tənbəl bir qaçışçının qabağına ayı çıxmaqla o, dünya rekordunu müəyyənləşdirib. Lakin kim nə deyirsı-desin, mənim şahmat üzrə çempion olmağımın səbəbkarı arvadımdır.

Hamı kimi bir gün o da mənim "nazıma" dözə bilməyib sabun qovuğu kimi partladı:

– Bilmirəm otuz ildir nə yapışmısan bu elmi işin quyruğundan! Yazıb bir yerə də çıxarda bilmirsən. Əgər idmançı olsaydın, indi biz də xarici ölkələri gəzirdik. Budur bax, deyirəm, ya şahmatı öyrən, ya da...

Bu "ya" nın arxasında nələr gizləndiyi mənə məlumdur.

Sabah o, əlində şahmata aid kitablar və qoltuğunda fil sümüyündən düzəldilmiş şahmat dəsti evə gəldi. Onları qabağıma itələyərək bildirdi:

– Axı burda nə var ki? İstəsən öyrənə bilər-

sən. Şahdır da, fırlayıb-fırlayıb, axırda mat edirsən.

Bir söz demədim. Kitabı əlimə götürərək baxışlarımı şahmat taxtasına zillədim.

Ertəsi gün nahar fasiləsində adamların görəcəyindən ehtiyat edib bir güncə çəkilərək şahmat Kitabını vərəqləyirdim. Elə bu vaxt isti bir əl çiynimə toxundu, arxaya çevrildim. İnstitutun idman komitəsinin nümayəndəsi təəccüblə mənə baxırdı. O, uzun bir fit çaldı:

– Deməli, sənin belə işlərin də varmış? Sən Şahmat da bacarırsanmış?

Siz bu gündən təcili olaraq şahmata dərnəyinə gəlməlisiniz. Eşidirsinizmi, təcili!..

Sonra isə cibindən qələm kağız çıxarıb adımı qeyd edərək çıxıb getdi.

İşin axırında “sivişib” aradan çıxsam da, səhərisi direktorla qarşılaşmalı oldum. O məni “top” atəşinə tutaraq güllələbəran elədi:

– Bu nədir, nizam-intizamı pozursan, deyilən tapşırığa əməl etmirsən?-heç rəvadırmı bu cür istedadı məhv edəsən?

Məcbur olub işdən sonra məşqlərə getdim. Burda isə böyük bir “aləm”lə rastlaşdım: Professor Cəfərov, elmlər namizədi Orucov, laborant Fikrətov və başqaları... Hamısı da mən

dərddə... yazıq-yazıq boyunlarını bükmüşdülər.

Bu andıra qalmış adları, xanaları hec cür yadımda saxlaya bilmirdim. Sən demə şahmat başdan-ayağa qədər riyaziyyatla bağlı imiş. Riyazi elmlərdən isə heç əvvəldən, orta məktəbdə oxuyandan xoşum gəlmir. Nə olsun ki, riyaziyyat fakültəsini bitirmişəm. Nə olsun ki, özüm riyaziyyat institutunda işləyirəm. Nə olsun ki, müdafiəm də ondandır. Sadəcə olaraq taleyim belə gətirib. Fikrimi cəmləşdirmək istəyəndə xanalar ayaq tutub qaçırdı.

Çox keçmədi ki, yarışlar başlandı. Yenə derektor, yenə də xəbərdarlıq:

– Bura bax, yoldaş, unutma ki, sən tək özünü yox, həm də kollektivi təmsil edirsən. Kollektivin şərəfini qoruyursan, uduzsan geriyə qayıtmaq yolunu yaddan çıxart.

“Həmkarlar” da gözünü ağardaraq qəti şəkildə bildirdi:

– Əgər uduzsan putyovkadan gözünü çək.

Öz günümü lənətləyə -lənətləyə yarışa qoşuldum. Elə ilk andan rəqibim məni çətin vəziyyətə saldı. Arvadımın, direktorumun, həmkarlarımın sözlərini xatırladım. Görünməmiş möcüzə. Mən rəqibimlə görüşdə heç bir şahmat nəzəriyyəsində olmayan bir gediş etdim. Rəqi-

bim oyunu təhvil verməyə məcbur oldu. İkinci görüşdə bilmirəm necə oldusa məni öskürək tutdu. Sən demə, rəqibimin öskürəkdən əvvəldən zəhləsi gedirmiş. O, əsəbləşib bir-birinin dalınca səhv edərək uduzdu. Üçüncü oyun da uğurlu keçdi. Arvadımın mənə göndərdiyi dolma görüşdən bir saat əvvəl yoxa çıxdı. Mən acqarına, qanıqara halda şahmat taxtasının arxasında oturduğumdan tez-tez səhv buraxırdım. Elə bu vaxt sekundantım rəqibimi mənə göstərərək pıçıldadı:

– Heç bilirsən o kimdir? Sənin dolmanı oğurlayan.

Elə bu vaxt "cin" başıma vurdu:

– Hələ dolmamı yediyin bəs deyil, məni udmaq da istəyirsən?

Və bunu deyib F...gedişi etdim. "Dostum" mat vəziyyətində düşdü.

Beləliklə, mən bütün görüşlərdə qalib gəldim. İndi işdə hamı məni çempion çağırır.

Bəlkə də hər şey yaxşı olardı. Lakin... Son zamanlar arvadımın ağlına qəribə bir fikir düşüb:

– Daha bəsdir şahmatla avaralandın. İndi də gərək boks oynayasan. Ya mən, ya da...

## YEDDİNCİ GEDİŞ



Şahmat klubunun direktoru bərk dilxor olmuşdu. Bu yaxınlarda yarış başlanacaqdı. Ancaq onun yarışa çıxarmağa bir nəfər də olsun adamı yox idi. Klub uzun müddət bağlı qaldığından hamı çıxıb getmişdi.

O, kinli-kinli filə, ata nəzər salıb hirslənərək əlinin arxası ilə vurub fiqurları dağıtdı.

– Görüm çər dəysin sizə. Sizin ucbatınızdan seytnota düşmüşəm.

Firuqlardan toz qalxdı. Birdən direktorun gözü böyrü üstə yerə yıxılmış şaha sataşdı. Cəld onu ayağa qaldırıb paltarının ətəyi ilə tozunu təmizlədi. Özlüyündə fikirləşdi ki, elə o da bu qara şah kimidir. Mat vəziyyətinə düşüb.Yerdən qaldıranı yoxdur. Elə bu vaxt onun ağlına qəribə bir fikir gəldi. Hətta sevindiyindən çırtıq vurub fit çaldı: "Gör bir ha, bu variantı necə də unutmuşam. Məktəbin gözətçisi lap yadımdan çıxıb. Bir az ustalığını artırıb göndərərəm yarışa."

Lakin gözətçinin simasını xəyalında çaplandıranda qanı qaraldı: ancaq tez də özünü

səfərbər etdi:

– Hərçənd bir az qocadır, amma eyb etməz. əslinə qalsa əsl istedad həmişə özünü gec biruzə verir.

Zəngi basıb gözətçini çağırtdırdı... Gözətçi içəri girəndə o "rəqib" gözü ilə bir də ona nəzər saldı: "Hərçənd" bir az qocadır, eybi yoxdur, saqqalını qırxdıraram hər şey düzələr".

Bu dəfə direktor adətinə xilaf çıxaraq müdafiəyə çəkildi:

– Buyur, əyləş!

Sonra tərəddüdlə sözə başladı:

– Özün bilirsən ki, xətrini nə qədər istəyirəm. Lakin nə etmək olar, başımız həmişə qarışıq olur. Özün bilirsən ki, klubumuzun vəziyyəti ağırdır. Bilirsən ki, şahmat qurbanları sevir. "Qurbansız qələbə mümkün deyil" elə ona görə də səni "qurban" vermək qərarına gəlmişəm!...

Gözətçi "qurban" sözünü eşitcək yerində qurcuxdu. Lakin direktor onun çiynindən basıb otuzduraraq tövsiyyə etdi:

– Sən deyən təhlükəli mövqe yoxdur. Sadəcə olaraq istəyirəm səni yarışa göndərəm. Qoy görsünlər ki, bizim, həttta gözətçilərimiz də şahmat oynamağı bacarırlar. Ancaq bir şey-

dən çox narahatam. Heç bilmirəm, sən oyunun qaydalarını bilirsən, ya yox?!

Gözətçi duruxaraq kəkələdi:

– Oynamağa oynuyuram, amma...

Direktor ona sözünü bitirməyə macal vermədi:

– Qalan şeydən narahat olmuya bilərsən. Sənin udmağının və məğlub olmağının bizim üçün əsla əhəmiyyəti yoxdur. Əsas məsələ odur ki, gedişləri biləsən. Elə Alyoxin də sənin kimi oynamnağa başlayıb. Elə ki, turnir başladı rəqibinin gediş etməsini gözlüyərsən. Elə ki, o gediş, etdi, sən də ona baxıb, həmin fiqurları tərpədərsən. Yeddinci gedişə isə əlini çənənə dayayıb dayanarsan. Guya ki, fikirləşirsən. 20 dəqiqədən düşündükdən sonra saatı dayandırıb, təslim olduğunu bildirərsən, vəssalam. İndisə, get yarışa hazırlaş səni çətin imtahan gözləyir.

Gözətçi heç nə anlamayıb qapıya tərəf yönəldi. Bir necə gündən sonra isə əlində ezamiyyə vərəqəsi Bakıya gəlmişdi. Ömründə ilk dəfə şahmat taxtası arxasında əyləşib yarışa qoşulmuşdu.

O ağlarla oynayırdı. O birinci gedişi etdi. rəqib də ona baxıb oynadı. Sonra ikinci gediş

oynanıldı. Üçüncü gediş də atlar irəli çıxdı. Daha bir gediş yazıldı... gözətçi darıxmağa başlamışdı, dəqiqələr getdikcə uzanırdı.

Birdən altıncı gedişdə rəqib əlini çənəsinə dayayıb 20 dəqiqə fikirləşdikdən sonra saatı dayandırıb, bayrağı aşağı salaraq özünü məğlub elan etdi.

## SİFARİŞ

*(Reklam-hekayə)*



Telefon zəng çaldı. Dəstəyin o üzündə kişi səsi eşidildi:

– Alo, bura haradır?

– Qalaqapı koopetaivi.

– Bağışlayın, sizi narahat edən sifarişçidir. Elanınızı qəzetdə gördüm. Deyin görüm siz sifariş qəbul edirsinizmi?!

– Şübhəsiz.

– Xahiş edirəm, ətraflı məlumat verəsiniz.

Ay yoldaş unutmayın ki, bura kooperativdir. Biz sifarişçilərə pullu xidmət göstəririk.

– Onda deyin görün sizi necə görə bilərəm.

– Buyurun gəlin.

– Sağ olun!

Dəstək asıldı. Sabahısı gün kooperativə yoğun gövdəli bir kişi gəldi. İçəri girib dedi:

– Mən həmin sifarişçiyəm.

– Buyurun.

– Sizə sifariş vermək istəyirəm. Xahiş edirəm, əvvəlcə mənə məlumat verəsiniz görüm sifarişçilərə nə kimi xidmətlər göstərirsiniz.

– Hər cürəsindən Onların asudə vaxtını təşkil edirik, əyləncəsini təmin edirik...

– Bəs mənafeyini müdafiə necə?!

– O da var.

– Elə isə sizə sifariş vermək istəyirəm. Ancaq əvvəlcə deyin görüm ağzınız qaytanlıdırmı?! Sirr saxlaya bilirsinizmi?

– Bu nə sözdür, yoldaş?!

– Görürəm kooperativiniz etibarlı əllərdədir. Xahiş edirəm, dərdimə əncam çəkəsiniz. Mənə qala kimi möhkəm elə bir qapı düzəldəsiniz ki, heç kim seyfimi açıb pullarımı oradan çıxarda bilməsin.

– Yanılmısınız, yoldaş, burda qapı düzəltmirlər. sizin başa düşdüyünüz qalaqapı isə oyundur. El arasında ona “kişmiş” oyunu da deyirlər. ulu babalarımız onu kişmişlə oynayır-

mışlar. İstəsəniz kooperativimizdə kursa yazılıb öyrənə bilərsiniz.

– Rəhmətliyin oğlu, bu kooperativə də ad tapdınız qoymağa... Sifarişçi bunu deyib acıqla qapıya tərəf yönəldi. Kooperativçi oğlan arxadan onu səslədi:

– Zəhmət olmasa, çıxmamışdan əvvəl kassaya pul keçirməyi unutmayın. Axı sizə dedim ki, kooperativimiz pullu xidmət göstərir. Məlumatlar üçün üç manat əlli qəpik ödəməli olacaqsınız.

– Vayy səni, Vayyy!!!

## LOTOREYA BİLETİ

*Novella*



İdarədə bu dəfə maaş verəndə kassir əlində tutduğu lotereya biletini mənə uzatdı:

– Uğurlu olsun! Doğrusu lotereya həvəskarı deyiləm. Ona görə ki, ömrümdə bəxtim gətirməyir. Bəxt deyilən şey məndən elə uzaq düşüb ki, axtarış da elan etsələr yerini bildim

deyən olmayacaq... İdarədə müdirlərin ən pisinə rast gəlmişəm, vəzifələrdən ən kiçiyi payıma düşüb, otaq əvəzinə bəxtimə daxma çıxıb, ömrümdə pul tapdığım olmayıb, arvad sarıdan da ulduzum qoşalaşmayıb. Beləsinə arvad demək olmaz. Arvadımın qulağından uzaq, əzraili öz əlimlə gətirib ocağımın başında oturtmuşam. Domoklun qılıncı kimi həmişə başımın üstünü kəsdirib durur.

Mənə qalsa, lotereya məsələsinə heç açmayacaqdım. Lakin arvadım onsuz da gec-tez hər şeyi biləcəkdi. Axı, maaş alanda gərək ona hesabat verəm. Bu dəfə də maaşı əlimdən alıb üstümə çımxırdı:

– Bəs qalanı?

Məcbur olub cibimdəki lotereya biletini çıxarıb ona göstərdim. O, daha da əsib-coşdu:

– İndi də qumar oynamağa başlamısan?

And-aman eləyib onu inandırmağa çalışdım ki, öz xoşuma almamışam, işdən veriblər. Axı, bir də bunun nəyi pisdi, sənin gördüyün bu kağızla hər şey udmaq olar: xaricə putyovka, maşın, pianino və s.

Deyəsən gətirdiyim dəlillər arvadımın ağlına batdı, o, sakitləşən kimi oldu:

– Eybi yoxdur, gözləyərik.

Beləliklə, bir təhər canımı qurtardım, lakin sən demə "qaş düzəltdiyim yerdə vurub gözü də çıxarmışam". Hər axşam işdən evə gələn kimi o, başımın üstünü kəsdirir, sonra da sual sual dalınca:

– Deməli deyirsən xaricə getmək olar, hə?

Sonra isə asılqandakı paltosuna tərəf işarə edir:

– Sən məni bununlamı xaricə aparmaq istəyirsən? Heç bununla allahın Bicərinə də gedib çıxmaq olmaz.

Sonra isə qışqırıq, göz yaşıMəcbur olub əmanət kassasında saxladığım pulla ona palto aldım. Oğlumunsa iddiası başqadır. O da maqnitofon udmaq arzusundadır. Heç olmasa qapılara getməkdən yığışardı. Oğlumun da arzusunu yerinə yetirməli oldum.

Acığını deyim ki, lotereyanın udacağıma son zamanlar mən də inanıram. Ancaq xarici putyovka heç ürəyimdən deyil. Kaş bəxtimə tısbağa bir "Zaporojye" düşəydi, yoxsa bu avtobuslarda gedib-gəlməkdən qol-qabırğam sınıb. Hələ üç dəfə ona görə töhmət də almışam. Əslində günahım olmayıb, bütün günahlar avtomobil nazirliyindədir ki, maşınların gediş-gəlişini qaydaya sala bilməyirlər. Elə izahatda da

belə yazmışam. Lakin müdirimizi başa salmaq "dəryada balıq tutmaq" sevdasına bənzəyir. Özü işə maşınla gəlir, ona görə də avtobuslardan xəbəri yoxdur. O deyir ki, günahlar hamısı məndədir. Heç olmasa evdən gərək iki saat tez çıxam. Nə isə... Bəxtimə kaş maşın düşəydi... Gözləyirik, lotereyamızın udacağı günü gözləyirik... O günsə sanki bir ilə çevrilir, heç gəlmək bilməyir.

Hər axşam söhbətimiz nədən düşürsə-düşsün, yenə də həmin məsələnin üstünə qayıdırıq. Sözləşirik. Arvadımsa elə-belə xaricə getmək istəmir, o, başqalarından seçilməyə çalışır. Özlüyündə o da haqlıdır. Axı xaricə gedənlər onun nəyindən artıqdır? Hətta arvadım bu barədə qonşulara da danışıb, onlardan bir xeyli məsləhət alıb. Qohumlardan da gözaydınlığı verənlər tapılıb, cibimdə sifarişlərdən bir kitab yaranıb. Gözü götürməyənlər də tapılıb. Oturub sahə müvəkkilinə şikayət yazıblar, imzasız-filansız. Günlərsə bir-birini haraylayır: bir gün keçdi... daha bir gün... bir gün də.. Bu gün lotereyamız oynayır!

İşə getməmişdən qabaq arvadım bərk-bərk tapşırıb ki, lotereyanı onsuz yoxlamayım. Hiss edirəm ki, o, mənə inanmır. İşdən çıxan kimi

köşkə yaxınlaşıb qəzet alıram. Qəzet əlimdə evə yollanıram. Nəhayət, üzücü günlər arxada qalmışdır. İndi bizi yeni səadət gözləyir. Putyovka, maqnitofon, ya maşın?! Hamımızın nəzərləri diqqətlə qəzetə dikilmişdir. Birinci, vay, udmadı, ikincisi, heç yaxın da düşmədi, üçüncüsü... allah qəzet işçilərinə insaf versin, bu zəhrimar üçün yerinə beş yazsaydılar, heç olmasa qızıl qol saatı udardım... Beşincisi.. altıncısı... yox, qardaş, yox, bizimki heç əvvəldən düz gətirməyib, əgər bəxtimiz olsaydı doğulmazdıq ki... yeddincisi... səkkizincisi... puç çıxdı, doqquzuncu... bu da bir xal yandırdı!.. Onuncusu!...

– Uddu!...

Hər üçümüz eyni ahənglə qışqırırıq. Qonşular da bayıra çıxıb səsimizə səs verirlər:

– Nə uddu?!

Bu qonşular nə yaman maraqkeşdilər, hər yerə burunlarını soxurlar. Hər üçümüz eyni ahənglə qışqırırıq:

– Bir manat!

Bütün planlarımız alt-üst olsa da hər üçümüz sevincdən ağlayırıq. Axı, bizim lotereyamız udub. Arvadım sevinir ki, təzə palto alıb, oğlumsa maqnitofon sahibi olub, mənsə düz bir manat udmuşam. Sevinclə lotereyanı qaldı-

rıram:

– Bəs buna nə alım?

Arvadım sevinclə cavab verir:

– Yenə də lotereya.

Yenə də köşkə gedib lotereya alıram. Səbirsizliklə günləri sayıram. Lotereyamızın udacağı günü gözləyirik. Bir gün keçdi... daha bir gün... bir gün də...



## BİZ AVROPALILARI ÖLMƏYƏ QOYMURUQ



İsveçrədə və Fransada əlli milyon insanı çuğlamış Rayel hərəkatı deyilən Beynəlxalq bir təşkilat var. Bu adamlar Darvinin təkamül nəzəriyyəsini təkzib edərək dünyanı inandırmaq istəyirlər ki. İnsan meymundan yox, qoyundan əmələ gəlib.

Doğrusu, buna inanmağım da gəlir, inanmamağım da. Axı qoyun hara, insan hara?

Ancaq elə şeylər var ki, istəsən də, istəməsən də gərək inanasan.Yoxsa Avropa dövlətləri, Avropa Parlamenti dəli olmayıblar ki, bu qoyunlar üzərində proqramlar qəbul edib, milyonlarla pul xərcləsinlər.

“Rayelçilər” belə güman edirlər ki, insanın daxili orqanlarına ən yaxın, elə qoyunun orqanlarıdır. Yəni qoyunun içalatı insanın içalatı ilə tam uyğun gəlir... Hətta bunu sübuta yetirmək üçün qoyunların üzərində təcrübə də aparırlar...

Arada qəzetlərdə söz yaymışdılar ki, onlar, yəni, “Rayel” çilər qoyunlara danışmağı, oxumağı, hətta kilsəyə gedib ibadət etməyi belə öyrədiblər. Türk qəzetləri Brebis adlı o ağıllı qoyunun şəklini də dərc etmişdilər (Ah necə də məsum gözləri vardı)

Sonra xəbər gəzdi ki. tezliklə bu qoyunların qanını insanlara köçürəcəklər, daha qan vermək üçün donor-filan lazım olmayacaq... Amma sonra Avropa qəzetlərində oxudum ki, qoyunlar xəstələnib ömürlərini tapşırıblar Avropa keşişlərinə...(Bir az sonra eşitdim ki, “Rayelçilər” qoyunları kəsib yeyiblər, üstündən də “Evian” suyu içiblər.)

Avropa dövlətlərinin və Avropa Parlamentində oturan “hörmətli” adamların bu qoyunlar

üçün hazırladığı proqramlar, xərclədiyi pullar havaya uçdu.Buna görə avropalılardan heç nə soruşulmadı. Dedilər qoyunlar ölüb. Daha nə et mək olar.-Bir də öz aramızdır. Avropalıları kim mühakimə edə bilər...)

Bu yazıları oxuyanda o vaxtlar çox pərişan olmuşdum. Həm qoyunlara yazığım gəlmişdi. Həm də avropalılara...

Ancaq bu yaxınlarda "Birja" qəzetində dərc olunmuş bəzi elanları görəndən sonra fikirləşdim ki, "Rayelçi"lərin sözündə bəlkə də cimdik boyda bir həqiqət var.. Yoxsa, elan verən bizim Zöhrab dəli olmayıb ki, cavan yaşında öz qara ciyərini donor kimi bazara çıxarıb 15 min dollara satışa qoysun... Əvvəlcə fikirləşdim ki. Yəqin burda bir iş var. Ürəyimə min qara fikir gəldi... Bəlkə, sevgilisi ondan üz döndərib.Bəlkə...

Ancaq bir az aşağıda başqa bir elanı görəndən sonra əmin oldum ki.bu eşq-məhəbbət sövdası deyil..32 yaşlı qadın böyrək donoru olmağı təklif edirdi. Başqa bir kişi də qara ciyərini satışa qoymuşdu...

Ürəyimdə "Rayel"çilərə bir daha "haqq" qazandırıb fikirləşdim ki. Belə insanlar qoyundan fərqlənmirlər.Yoxsa onlara nə düşmüşdü ki. Öz orqanlarını "merinos" qoyunu kimi satışa

çıxartsınlar.,

O saat Avropa dövlətlərinin qoyunlar üstündə yedikləri pullar, özümün hazırki vəziyyətim gəlib gözümün qarşısında durdu.Açığını deyim ki, Ürəyimdə bu insanlara paxıllığım tutur.On beş min dollar da az pul deyil axı? Bu pullarla kreditimi ödəyib , bank işçilərinin əlindən yaxamı qurtarardım.Amma mən zavallı nə edim ki, bədənimdə bir dənə də olsun sağlam orqanım yoxdur.Axı bu "içalatı" kimə təklif etmək olar.?!

Doğrudur, belə elanların verilməsi dünyanın hər yerində Beynəlxalq Təşkilatlar tərəfindən rəsmən qadağan edilmişdir.Amma nə yaxşı ki. Insan orqanlarını alan Həbib kimi oğullarımız var. Adam gərək, "Rayel" çilərsayaq "Brebis"qoyununun ətindən yesin ki, elan verib başqalarının ürəyini, böyrəyini alıb dünyanın alqı-satqı bazarına çıxarda bilsin.

Düzdür, deyirlər ki, belə "çax-çux"lar Azərbaycanda çoxdan "dəbdədir". Arxalarinda da, elə vəzifəlilər, elə idarələr dururmuş ki, adam eşidəndə qorxudan papağı başından düşür. Deyilənə görə həkimlərimiz bu məqsədlə gizli "şirkət-mirkət"də qurublarmış. Yetim-yesirləri qəsdən öldürüb içalatlarını satırmışlar türk

həkimlərinə.Sonra eşitdim ki, ölənlərin içalatı türklərə uyğun gəlməyib , ona görə də üz tutublar Almaniyaya.

Hələ 90-cı illərdə xəbər yayılmışdı ki, insan orqanlarının xarici ölkələrə satışında ermənilər "kəllə-çarxa" çıxıb, dünyada hamını ötüb keçərək "rekord" vurublar.Babalı bu xəbəri yayan "İzvestiya" qəzetinin boynuna. Doğrusu, belə xəbərləri eşidəndə adam çaşıb qalır, bilmir kimə inansın. Amma bir şey "dupduru" su kimi mənə aydındır ki, ermənilərlə bizim fərqimiz ondadır ki, ermənilər Qarabağda tutduqları azərbaycanlı əsirləri qoyun kimi "kəllə-paça" edib fransızlara satırlar, bizsə öz-özümüzü... Bax əsil "cəsarətimiz" də elə bundadır...

Ancaq bir şeyi heç cür anlaya bilmirım ki, nəyə görə "Rayel" qoyunun üstündə az qala dava edən Avropa qəzetçiləri belə məsələlər ortaya gələndə"məzlum" qoyun kimi gözlərini döyürlər, türk qəzetçilərini isə yuxu basır. Birləşmiş Millətlər, Amnistiya İnternasional , Humain Raite kimi hörmətli təşkilatlar əmlik quzu kimi susurlar.

Ürəyimdə öz-özümə təskinlik verirəm: Əhsən belə Birləşmiş Millətlər, Amnistiya. İnternasional və digər insan haqqları qoruyan

təşkilatlara!

Var olsun Beynəlxalq Səhiyyə Təşkilatlarına ki, insanların sağlamlığının keşiyində dayanıblar

Sağ olsun bizimkiləri ki, belə elanlar verib, şirkətlər qurub, avropalıları ölməyə qoymurlar. “Yükü” xaricə vaxtında aparıb çatdırırlar...



**DƏB**




Arvadım deyir ki, guya zəmanədən geri qalmışam. İnsanlarla ayaqlaşa bilmirəm. Yeri düşdü-düşmədi, o, şəhadət barmağını qaldırıb yuxarı mərtəbələrə işarə edir:

-Görürsən qonşuları? Hər şeyləri var... Simanın əri dəvə boyda it saxlayır, Sonyanın əri isə evində donuz böyüdür. Ona görə ki, zəmanə adamlarıdır, dəblə ayaqlaşa bilirlər. Amma sən?! Elə bil nuhun gəmisindən düşüb qalmısan.

O, bu sözləri deyə-deyə mənə gündə bir sürpriz hazırlayır. Gah palto alır, gah timsah darağı, gah yapon tuflisi, gah da fransız duxusu... həmişə sözü bu olur: “dəbdir”.

Doğrusu, bu dəblərin əlindən lap təngə gəlmişəm. Görünür, bu adamların işi-gücü ancaq dəb salmaqdır. Lakin açıb-ağarda bilmirəm. Qorxuram ki, sonra məni geri qalmaqda təqsirləndirələr... Lakin kim nə deyir-desin, bu dəb salanın görüm atası tünbətün olsun. Məsələ cibdə deyil... tamam başqa şeydədir.

İndi evimiz böyük heyvanxanaya bənzəyir, nə istəsən burda tapmaq olar-meymun, donuz, eşşək, siçovul... Lakin dərd bu da olsa, bir təhər keçinmək mümkündür. Əsas məsələ budur ki, bu müqəvvaların əlindən evdə özümə yer tapa bilmirəm.

Necə tərpənirəmsə, onlar ayağıma dolaşır. Sonra da dava, mərəkə... Mənsə arvadımı çox istəyirəm. Hələ bunlar azmış kimi bir dəfə o əlində küçük gətirdi, onu yatağımın üstünə çıxartdıb tüklərini daraya-daraya mətbəxi mənə göstərdi:

– Bu gündən sən küçüklə yerini dəyişməli olacaqsan. İndi bu dəbdir.

Doğru sözə nə deyəsən? Görünür, mən doğ-

rudan da zəmanədən geri qalmışam.

İradəmizdə bir şey dəb düşüb – toy eləmək. Direktorun düz üç dəfə toyunda olmuşam: bir dəfə cavanlıqda, bir dəfə katibə məsələsinə görə, bir dəfə də töhmət alandan sonra... hələ müavinləri, mühəndisləri, fəhlələri demirəm. İşləri-gücləri gündə dəvətnamə paylamaqdır.

Bu dəfə də arvadımın sifarişi ilə xaricə "putyovka" almaq üçün anket doldururdum. Müdirimizin katibəsi kağızı yaza-yaza qaşını oynatdı:

– Neçə dəfə evlənmisiniz?

Günahkar - günahkar çiyinlərimi çəkdim:

– Cəmi bir dəfə!

O qələmi kənara atıb üz-gözünü turşutdu.

– Nə geridə qalmış kişisiniz. Müasir adamlar gərək bir neçə dəfə evlənsin. İndi bu dəbdir. Görünür zəmanə ilə hesablaşmırsınız.

Katibənin bu sözlərindən sonra sevincimdən yaxındakı gül mağazasına qaçıb ona bir dəstə gül aldım. Qoy indi arvadım məni geri qalmaqda, zəmanə adamı olmamadığıma görə təqsirləndirməsin. Bu dəfə onu qabaqlamalı idim.

İşdən çıxan kimi birbaşa məhkəməyə yollandım.

Bir neçə gündən sonra arvadımın adına çağırış vərəqəsi gəlmişdi. O, bunu görəndə gözləri bərələ qaldı:

– Bu nədir, sən nə etmək fikrindəsən?!

Heç bir şey olmamış kimi sevinclə çiyinlərimi çəkdim:

– Heç nə. Sadəcə olaraq boşanacağıq. İndi bu dəb düşüb. Dövrlə ayaqlaşmaq istəyirəm.

O, təəccüblənərək mənə baxdı:

– Gör bir ha, heç xəbərim olmayıb.

Bunun ardınca həsədlə dodaqlarımdan öpərək pıçıldadı.

– Ay allah, mənim nə müasir kişim var.

Sonra isə cəld paltarını geyinib qapıya tərəf yönəldi. Heç nə başa düşməyib xəbər aldım:

– Hara belə?!

O, heç bir şey olmamış kimi mənə əl eləyərək, qapını örtə-örtə gülümsündü:

– Məhkəməyə. Səni orda gözləycəyəm. Bax, gecikmə ha!



## NADİR HƏDİYYƏ

*(Novella)*



Dünyada ən çox qorxduğum gün 8 martdır. Həmişə o gələndə canıma üşütmə düşür. Evimizdə narazılıq artır, arvadımla sözləşirik. O da Dezdemona kimi dəsmalını gözlərinə sıxıb, "tamaşanın" axırını bu sözlərlə bitirir:

– Əcəb də adını kişi qoymusan. Xalqlar arvadları üçün suvenir Yapon küçüyü alır, Afrika timsahı gətizdirir, İtalyan qurbağası tapır. Amma sən!... Sənin bu güllərin məni lap təngə gətirib.

Xəcalətdən başımı aşağı dikirəm. Haqq sözə nə deyəsən?

Axırda belə qərara gəldim ki, mən də öz sevimli arvadımı bu dəfə nadir bir hədiyyə ilə sevindirim. Dostlarımla məsləhətləşdim. Onlardan biri qəlyan almağı təklif etdi. Başqa bir dostumsa bildirdi:

– Atdan gözəl suvenir ola bilməz. Məncə, arvadlar at minməyi daha çox xoşlayırlar!

Bu təklifə qəti etiraz etdim:

– Siz nə danışırsınız? Əvvəla, atı beşinci mərtəbədə saxlamağa yerimiz yoxdur, ikincisi atın biri onun öz başındadır. Qoşalaşsa xatası çıxar...

Məsləhət verənlərin içində ingilis iti, Sibir tülküsü, Tayqa canavarı, hətta Afrika tısbağası almağı da təklif edənlər tapıldı.

Doğrusu, nə edəcəyimi bilmirdim. Qəribə bir təsadüf iztirablarımı qırdı.

Səhərisi gün qəzet köşkünün yanından keçəndə gözüm qarşıdakı mağazanın vitrinindən böyük bir növbəyə sataşdı. Ümumiyyətlə, bayramqabağı bizdə belə növbələr çox olur. Hamı nə isə axtarır, nə isə almaq istəyir. Ecazkar bir hədiyyə ilə arvadlarını sevindirməyə çalışırlar. Axı, arvadlar hamısı fabrik malı kimi bir-birinə çox bənzəyirlər. onların hamısı deyingən olur və ərlərinin cibini güdürlər.

Yəqin növbədəkilər də mən dərdədirlər.

Axtardığım hədiyyəni tapdığımı düşünüb, sevinərək növbəyə durdum. Qoca bir kişinin ürəyi, getmişdi. İki nəfər onu kənara sürüyüb üzünə su səpirdi. Mənə elə gəlir ki, növbəyə durmaq qocaların işi deyil. Növbəm çatanacan bir necə dəfə dəsmalımı çıxarıb sıxmalı olsam da, axır ki, (o böyük yaradana şükürlər olsun!-

hər şey onun əlindədir!) mağazada satılan nadir hədiyyədən mən də ala bildim.

Sevinərək qaça-qaça özümü evə çatdırdım. Əlimdəki bağlamanı görəndə arvadımın qaşqabağı açıldı:

– Bu nədir?

Sevinclə bağlamanı irəli uzatdım:

– Əzizim, sənin üçün almışam, sənə axtardığım nadir hədiyyədir.

O, daha mənə qulaq asmayıb kağız bağlamanı açmağa başladı. Birdən donub qaldı. Heyrətdən ağzı yana əyildi. Bütün qəzəbini üstümə tökərək qışqırdı:

– Bu nədir almısan, axı mən bu ağdan özümə nə tikdirəcəyəm?

Onu sakitləşdirməyə çalışdım:

– Əzizim, ağlama, xahiş edirəm, ağlama, axı burada nə var ki, sən onu tikdirməyə tələsmə. Saxla öləndə özünə kəfən tikdirərsən! Kim bilir o vaxt ağ tapılacaq, ya yox!

Arvadımın əlindəki daş stəkan kəllə sümüyümə dəyərək, parçalandı... Nə yaxşı ki, allah biz kişilərin kəllə sümüyünü möhkəm yaradıb. Yoxsa bu arvadların atdıqları stəkanlara, küldanlara, boşqablara, külqabılara başımız çətin ki, tap gətirəydi...

...Elə o vaxtdan arvadımla küsülüyük. Ancaq acığını deyim ki, onunla danışmağa burnumun ucu göynəyir.

Qarşıdan yenə də 8 mart bayramı gəlir. Fikrimdə var ki, arvadıma hədiyyə alam. Yenə də dostlarla məsləhətləşirəm, hərə də bir söz deyir. Yenə də ona hədiyyə axtarıram. Özüdə ən nadir, ən az tapılan hədiyyə!

Görəsən nə alim, hə?!

## İNAD

*(Novella)*



Cavan ailə gəzintiyə çıxdı. Kişi arvadına təklif etdi:

-Gəl kinoya gedək!

Qadınsa başqa səmti göstərdi:

-Teatr yaxşıdır.

Kişi bu sözdən acıqlandı:

– Dedim ki, kinoya!

Qadınsa sözünün üstündə durdu:

– Mən də öz sözümü dedim.

Kişi iki ayağını bir başmağa dirədi:

– Kişi tüpürdüyünü yalamaz.

Qadınsa onu vecinə almadı:

– Sənin tüpürcəyini mən də yalayan deyiləm.

– Mən kişiyəm.

– Mənsə qadınam. Unutma ki, hüququmuz eynidir.

Kişi hövsələdən çıxdı:

– Bizimki tutmayacaq.

Qadın da inadından əl çəkmədi:

– Tutar qatıq, tutmaz ayran.

Hirslənib məhkəməyə gəldilər. Kişi məhkəmədə dedi:

– Xasiyyətimiz düz gəlmir.

Arvad da ondan geri qalmadı:

– Mən onu belə tündməcaz bilməzdim!...

Və... ayrıldılar. Hər ikisi məhkəmədən bir çıxdı.

Yanaşı addımladılar. Qadın kişini məzəmmət etdi:

– Sənə demişdim axı, inadkar olma. Sənin inadım gördün bizi axırda gətirib hara çıxartdı?!

Kişi də öz növbəsində dilləndi:

– Elə sənə də. Söz eşitmirdin ki. Bu da axırı. Uşağı atasız qoydun.

Qadın bu sözdən lap kövrəldi:

– İndi mən uşağa nə cavab verəcəyəm. Bütün günahlar səndədir.

Kişini özünü təmizə çıxarmağa çalışdı:

– Səndə də az yoxdur.

Qadın yanıqlı-yanıqlı ah çəkdi:

– Biz necə də xoşbəxt idik!

Onlar elə bu zaman teatrın qarşısına çatdılar. Qadın kişiyə baxdı:

– Hə, indi nə deyirsən?!

Kişi acıqlı-acıqlı dilləndi:

– Mən öz sözünü dedim.

Qadın hirslə üzünü yana çevirdi:

– Uşağa sənin kimi ata lazım deyil!



## ATA DƏRDİ

*Novella*




Gözünüz aydın, təzə evlənənlər, gözünüz aydın övlad dünyaya gətirənlər. hər gün məhələmizdə “Təcili yardım” maşını görünəndə belə düşünürəm. Hər dəfə də qonşumuzda kimisə ağrı tutur. Ayıb olmasın, o ağrıya iki dəfə bizim arvad da mübtəla olub. Ondan sonra iki övladım dünyaya gəlib İlqəm və Dilqəm. İndi onlar hələ dünyanı tamam yığa bilməmiş yovşan gözlərini həmin maşının arxasınca dikib öz atalarından-məndən soruşurular:

– Atacan o maşın Səkinə xalanı hara apardı?

Deyirəm: – uzaqlara.

İndi də Dilqəm dillənir:

– Uzaqlara, yəni hara?

Deyirəm: – xəstəxanaya.

İlqəm də öz marağından qalmır:

– Bəs nə üçün Səkinə xala qarnını quçaqlamışdı?

Bunu ona izah edirəm. Bu uşaqları başa salmaq nə qədər çətin imiş. Dilqəm gözünün

yaşını axıdır. Onu sakitləşdirməyə çalışıram.

– Ağlama. Səkinə xala gedib məhəlləmizə təzə bəbə gətirməyə.

Hər ikisi sevincək çölə qaçır, bu xəbəri yoldaşlarına çatdırırlar.

Yaman gözə ox batsın, bilmirəm mənə nə oldu, göz dəydi nədir, qarnımdan bir sançı başladı ki gəl görəsən. Arvadım "Təcili yardım" maşını çağırtdırdı. Əllərimlə qarnımı tuta-tuta birtəhər özümü maşına çatdırdım. Dönub uşaqlarıma baxdım, neçə olsa ata ürəyidi dözmür axı. Hər ikisi mənə baxıb gülümsünürdü. Bundan daha da kövrəldim, gözlərim yaşardı. İlqəm isə Dilqəmə göz vurub dedi:

– Mən bilirəm atam hara gedir.

Dilqəm təəccüblə soruşdu:

– Hara

İlqəm ehtiyatla pıçıldadı:

– Gedir bizə bəbə gətirməyə, görmürsən qarnını neçə tutub. Elə bu vaxt Dilqəm özünü yerə çırpıb alqan-şalqan etdi:

– Mən də bəbə istəyirəm...

Maşın evimizdən uzaqlaşdı. Pəncərədən yerdə çombəlib aqlayan oğluma baxdıqca ürəyim daha da kövrəldi.

İndi artıq xəstəxanadayam. Həkimlərin

hərəsi xəstəliyim haqqında bir söz deyir, bir diaqnoz qoyur. Görəsən öz İlqəmimlə Dilqəmimnin arzusunu onlara deyimmi?!

## DÜŞƏR-DÜŞMƏZ



Xalq arasında həmişə deyirlər: “flan şeyi eləmə, düşər-düşməzi olar.” Kimisi qarşısına qara pişik çıxanda yoldan geri qayıdır ki, nəhs gəldi

Kimisi tək səbir gətirir... Pah, bu mənə düşmədi. Cüt səbir... burnundan qara yara çıxsın. Meyid aparırlar-köpəyoğlu da ölməyə vaxt tapdı. Axşam evi süpürmə-ölü çıxar. Flankəs vəzifəyə getdi-düşmədi. Xülasə, belə düşər-düşməzlərimiz çoxdur.

Acığını deyim ki, pul tapmaq da mənə düşmür. Niyə?! Özüm də bilmirəm. Bir dəfə bir 25-lik tapmışdım. Ağacın yanına düşüb qalmışdı-qulaqları özü üçün yellənirdi. Alıcı quş kimi saldım özümü onun üstünə. Bəs necə? Ömrümdə ilk dəfə bəxtimə pul çıxmışdı. Tez bir taksi saxlatdırıb sürdürdüm evə. İçəri girib tapdığı-

mı təntənəli şəkildə elan etdim. Oğlum sözümü axıra kimi dinləyib gülümsündü:

– Deməli, televizorun pulu düzəldi.

Sən demə, mən evə girməmişdən bir az əvvəl televizor başlayıb tüstülənməyə. Üstünə də bir o qədər qoyub usta çağırtdırdım.

Bir dəfə də avtobusdan düşəndə külək bir "əllilik" qovub düz üstümə gətirdi. Sevinməyə macal tapmamışdım ki, bir qadın mənə yanaşdı:

– Aşna, tapdığını mən də görmüşəm. Ya gərək yarı bölək, ya da... o oğlanları görürsən?

Axı mən nə üçün öz bəxtimi başqaları ilə bölməliyəm? Razı olmadım. Mübahisə etdi. axırda qəti şəkildə bildirdi:

– Onda o oğlanları çağıracağam. Dedim ki, get çağır.

Çağırdı da... Onlar mənə yaxınlaşıb əllərini irəli uzadaraq yaxamdan yapışdılar:

– Əmi, zəhmət çək tapdığını geri qus!...

Zalım balalarının, biləkləri də şir biləyi kimi. Naəlac qalıb əlliliyi çıxarıb onlara uzatdım. Nə edə bilərdim? Lakin əllərim havadan asılı qaldı. Hər ikisi qəzəblə mənə baxırdılar:

– Bəs qalanı?

– Nə qalanı?!

– Əmi, özünü tülkülüyə qoyma, bundan düz iki dənə idi.

Arvadsa onların sözünü təsdiqlədi:

– Bəli, öz gözümlə görmüşəm. Heç utanmır. Özü də saqqalı, bığı ağarıb amma uşaqlların pulunu oğurlayır.

Abrıma bükülüb onların istədiyini verdim. Axı nə edə bilərdim. Sonra başlanacaqdı milis-şahidləri də yanında.

Xülasə, o hadisədən gözlərim qorxub, pul tapmaq heç vaxt mənə düşmür.

Nə vaxt tapmışamsa başım bəla çəkib. Elə ona görə də hətta yerdə görəndə belə yaxın düşmürəm. Bu yaxınlarda avtobusdan düşüb bilet alıram. Bir də görürəm iki əllilik yerdə vargəl edir. Ətrafa baxıram. Balaca bir uşaq. Pulu ona göstərib xəbər alıram:

– Bu sənin pulundur?

Qırışmalsa elə bil məni təzədən xataya salmaq istəyir. Kim bilir bunun arxasıda nə düşər-düşməzlik gizlənir. Bu sözlərdən sonra o mənə açıq verərək qaçmaq istəyir:

– Yox əmican, mənim pulum-zadım düşməyib.

Necə yəni düşməyib. Buna bax, bu ilki cücə bildirçinə bildirçinlik öyrədir. Qolunda, yapışıb

təkidlə israr edirəm:

– Tez ol, götür pulunu...

O, təəccüblə üzümə baxıb, əyilərək pulu götürüb qaçaraq adamların arasında gözdən itdi.

Rahat nəfəs aldım. Şükür ki, bu xatadan da sovuşdum. Ordan birbaşa evə gəldim. Çıxardıb çibimdəki pulları saydım. Düz 100 manat əskik gəldi...




## NEKROLOQ

*(Novella)*



Dünən əbədi olaraq səni itirdim... Səndən ayrılmaq nə qədər çətin olsa da, əzablar içində buna dözdüm. Son “nəfəsim”lə “haray” çəkib, səni “ölümün” pənçəsindən almaq, xilas etmək istədim. Ancaq səsim qırılıb içimə töküldü... Axı sən mənim üçün çox əziz idin. Biz uzun illərin yoldaşı, həmdərdi, sirdaşıydıq. Bu ötən müddət ərzində

sənə elə öyrənmişdim ki, .. sanki bir "can" idik. Lakin hər şey birdən-birə məhv oldu. Göy üzünü qara buludlar aldı.

Ağladım, göz yaşı axıtdım, ancaq xeyri olmadı... Gözyaşım səni mənə qaytarmadı. Necə dəfə "ölümlə" üzləşmişdin. Necə dəfə "küsüb-barışmışdıq". Çünki sən eyiblərimi üzümə deyirdin, "qorxub" çəkinmirdin. Çünki sənin əzabın da xoş idi. Sap və iynə ilə ümidlərimi sənə cözələmişdim. Öz-özümə: -hər şey yaxşı olar, -demişdim. Lakin görünür həyat hec kimə əbədi verilmirmiş. Mən səni son dəfə bağrıma basmaq, ağlamaq, vidalaşmaq istəyirdim. Ürəyimdə necə xatirə oyanmışdı...

Yadındadırmı, biz səninlə necə görüşmüşdük, -mağazada, piştaxta arxasında. Onda sən necə də gözəl və təravətliydin. Öz şuxluğunla mənə baxıb "gülümsəmişdin." «İlahi, bu "təbəssüm" necə də cazibədar idi. Mənsə sənin qarşında yoxsul və kimsəsiz səyyahdan başqa heç kim deyildim.

Sənə çatmaq üçün necə-necə əzablara, tənələrə qatlaşmışdım. Necə aylar sərf etmiş, yuxusuz gecələr keçirmişdim.

Sonra isə biz "birləşdik"-əbədi can olduq... İlahi, ürəyim az qalır partlasın bu nə dünyadır

biz yaşayırıq?!

Dünən səni öz əlimlə cındırdaşıyanlara tapşırdım, mənim əziz şalvarım,

Hələ maaşa çox qalıb...

## SÖVDƏ

Satıcı müraciət etdi:

– Vətəndaş alıcı, buyurun, alın, xarici maldır.

Alıcı qulaqlarına inanmadı:

– Heç olmasa ağ saçlarımdan utan, cavan oğlan, əgər bacarmırsansa, satıcı işləmə. "Satıcı gözü, nazir sözü" deyiblər. Biz sən deyən müştərilərdən deyilik, əzizim.

Satıcı qulaqlarının dibinəcən qızardı:

– Biz alıcılara əla mədəni xidmət göstəririk, xanım.

Qadın səbirsizliklə onun sözünü ağzında qoydu:

– Əə, harada görünüb ki, mağazacı mədəni olsun. Elə götürək mənim özümü. Bəs nə üçün onda importnu mal üstə qoyulub, hə?! Əgər piştaxtanın altında olsaydı, onda başqa məsələ. Əfsuslar olsun ki, sevdamız baş tutmayacaq, cavan oğlan.

Satıcı lap hövsələdən çıxıb ağzını onun qulağına yapışdırdı:

– Bilirsiniz, mağazamıza yoxlama gəlib, ona görə də hər şeyi üstə qoymağa məcburuq.

Qadın tərəddüdlə mağazadan çıxdı. Elə gedə-gedə fikirləşdi: “Heç öz qiymətinə də şey olar, görünür məni avam sayır. Yaxşısı budur ki, gedim alverçi Balakərimin yanına.”

## “MİSTER-D”




Ata və ana bərk narahat idilər. axı bu gün yeganə övladlarının ad günüydü. Çoxlu adam gələcəkdi. Tanış-bilişlərin, qohum-əqrabaların hamısı ad gününə dəvət olunmuşdu. Lakin hələ də içki məsələsi təmin olunmamışdı. Düzdür, ananın əmisi oğlu şərab zavodunda işləyirdi. Söz vermişdi ki, bu gün saat üçdə on litr konyak gətirsin. Lakin deyilən vaxtdan düz iki saat ötməsinə baxmayaraq, əmioğlu hələ də gəlib çıxmamışdı. Narahatçılıq da elə burdan başlayırdı. Ananın hirsindən yanaqları pört-

müşdü. O, tez-tez qapıya çıxıb yola baxırdı. Ata gözləməkdən yoruldu, dözə bilməyib əlindəki qəzeti bir tərəfə ataraq, hirslə ayağa qalxdı:

-Sənin əmioğlundan heç əvvəldən gözüm su içmirdi. Bizi qonaqların yanında biabır edəcək. Əmioğluya ümid olan, şamsız qalar. Sənin qohumlarının hamısı belədir!...

Bir tərəfdən əmioğlunun yalançılığı, bir tərəfdən də atanın tənələri anaya bərk təsir etmişdi. Hətta o, bilməyərəkdən boşqabı yerə salıb sındırdı. Elə boşqab qırıqlarını dənləyə-dənləyə atanın son sözlərini havada qapdı:

– Bəs səninkilər? Özlərindən başqa heç kəsi bəyənmirlər. yoxsa yadından çıxardın, beş il bundan əvvəl Natiqin (Ana öz oğlunu deyirdi) institut məsələsi üstündə səni necə evdən qovdular?

Ata bir söz deməyib qəzeti yenidən əlinə götürdü. Görünür ana haqlı idi. Yenə də üzücü dəqiqələr başladı. Daha bir dəqiqə keçdi, sonra biri də!...

Qapının zəngi çalındı? Ata da, anada birlikdə ayağa qalxıb qapıya tərəf qaçdılar. Qapı açıldı. Əmioğlu əlində iki böyük bağlama içəri daxil oldu:

– Hə, əziz qohumlar, bu da mən! İşdə biri var. Zalım oğlunun gözü adamı qırğı kimi uzaq-

dan alır. Onun əlindən zorla qurtarmışam.

Ana dönüb ataya baxdı: “Hə, gördünmü, mənim əmioğlum səninkilərdən deyil!” Ata başını aşağı saldı: “Nə edim, vasvasıyam, vallah, vasvasıyam”.

Əmioğlu haqq-hesab çürüdüb qapıya yan aldı. Ana da, ata da təkidlə tələb etdilər ki, axşamkı qonaqlıqda o da iştirak etsin. Əmioğlu söz verdi ki, mütləq gələcək. Lakin ürəyində fikirləşdi: “Yox, əziz qohumlar, siz məni aldada bilməzsiniz. O konyaka suyu qatan mən özüməm. Siz onu mənə içirdə bilməzsiniz!”.

Ata və ana yenə də tək qaldılar. Üzlərindəki narahatçılıq da ötüb keçdi. Ana bağlamaları açdı. Ata konyakı stəkana süzərək dadına baxa-baxa dodaqlarını yaladı:

– Lap əlasındandır. Beləsini ancaq nazirlər içirlər!

Qarşıya bir çətinlik də çıxdı. Konyakı bu cür masanın üzərinə qoymaq olmazdı. Birlikdə qərara gəldilər. yaxşı olardı ki, konyakı şüşələrə doldurub stollara düzsünlər. ata tez eyvanda üstünü toz basmış, vaxtilə boşaltdığı şüşələri tapıb gətirərək konyakı onlara boşaltdı. Sonra şüşələri stolara düzdülər. Ananın üzünü yenə məyusluq bürüdü: “Bu cür şüşələri qonaqlara

heç göstərmək olar? Biz biabır olacağıq.”

Onların üzündən nigarançılığı balaca nəvə götürdü:

– Əziz babacığım və nənəciyim! Məndə rəngli kağızlar var. Yaxşı olardı ki, bu şüşələrin üzərinə onları yapışdıraq.

Nəvə bunu deyib öz balaca sandıqcasına tərəf qaçaraq onu açdı. Rəngli kağızları oradan çıxardıb babasına uzatdı.

Babanın sevincdən gözləri yaşarmışdı. Bu etiketləri axır ki, o da xatırladı. Bir vaxtlar dostundan alıb, oynatmaq üçün öz nəvəsinə gətirmişdi”. “Gör, ha, onun nəvəsi necə də ağıllıymış!”

Hər üçü etiketləri şüşələrə yapışdırdılar. Bir azdan qonaqların “ağzı” açıldı. Bu gün çoxlu adam gəlmişdi. Keçmiş nazirin arvadının bacısının “podruqa”sı Gülnaz xanım gəlmişdi. Rəisin arvadı Ziba xanım gəlmişdi. Onun qaynanasının qardaşıoğlu Zülfü gəlmişdi, professor Mehdiquluyevin dul qalmış qızı gəlmişdi. Görək daha kimlər gəlmişdi? -həkimlər, alimlər, redaktorlar, xülasə: çox adam gəlmişdi. Bir uzana stol ad gününə yığışmışdı.

Qonaqlar keçib yerlərini tutdular. Söz vermək üçün stol atası professorun dul qalmış qızı seçildi. Qaşıq cingiltisi cəngəl səsinə qatışdı,

çəngəl, bıçağa. Qonaqların gözü stolun üstünə düzülmüş "Mister-D" lərə sataşdı. Stol atası öz "çoxbilmişliyini" irəli sürdü:

– Bax, əsl konyak belə olar, xalis spirtdir. Yoxsa bizimkilər kimi?! Ümumiyyətlə "Mister-D" firması Amerikada ən yaxşı firma sayıla bilər.

Rəisin arvadı da özünü sındırmadı:

– Hələ siz nə görmüsünüz ki, keçən il (Əslində beş il əvvəli nəzərdə tuturdu) ərimlə İtaliyada olanda biz "Mister-D"-nin ən yaxşısının dadına baxmışıq. Buraya isə onlar pislərini göndərirlər.

"Podruqa" da naz satdı:

– Məncə, "Mister-D" ən qiymətli içki sayıla bilər!...

Redaktorun arvadı hirslə ərinə baxıb ev sahibinə tərəf çevrildi:

– Xahiş edirəm, "Mister-D"-ni haradan aldığınızı bizə də deyəsiniz, rica edirəm!".

Ata cavab verməyə macal axtarırdı ki, ana onun səsini kəsdi:

– Əlbəttə, bu nə sözdür, Gövhər xanım! Ancaq siz onu tapa bilməzsiniz. Bizim kişinin, o əli ilə kişini göstərdi, Amerikada yaxın bir dostu var. Biz ondan xahiş etmişdik, o da...

Redaktorun arvadı ümidsizliklə başını aşa-

ğı saldı:

– Çox sağ olun!..

Rəisin arvadı ətrafdakılara "yanıq" verməkdən çəkinmədi:

– Hələ siz nə görmsünüz ki, İtaliyada ərimlə olduğum zaman görəydiniz ki, "Mister-D"-nin necə şampanları olur. Hətta mən deyərdim ki, bu şampanlar konyakdan da güclüdürlər.

Stol atası höccət etdi:

– Ona görə ki, bizimkilər zay məhsul buraxırlar!...

Redaktorun arvadı təəccüblə ona baxdı:

– Axı bu "Mister-D"-nin mənası nədir?

Zülfü şəhadət barmağını yuxarı qaldırdı:

– "Mister-D" qəşəng bir milyonerin adıdır. Hansı jurnaldasa şəklini vurmuşdular. Deyilənə görə Şvetsariyada milyonları yatır.

"Podruqa" saymazyana qaşını oynatdı:

– Bax, beləsiylə gün keçirməyə dəyər!

Stolun üstündəki "Mister-D"lər sona yetdi. Stol atası söhbətə yekun vurdu:

– Ümumiyyətlə, "Mister-D"lərin buraxdığı hər şey yaxşı olur!...

Hələ ağzı açılmamış adi şüşələr işə düşdü. Bu yerdə sərxoşluğuyla məcluslərdə şöhrət qazanmış redaktor dözə bilməyir səbr gətirdi:

– Bizim konyaklarımız sizin “Mister-D”lərdən heç də geri qalmaz!...

Rəisin arvadı dodaqlarını büzdü:

– Pişiyin ağzı ətə çatmayanda deyər, miyo!?...

Redaktorun arvadı dözə bilməyib çəngələ əl atdı:

– Yaxşı olar ki, siz az quruldayasınız, İtaliya qurbağası!...

Rəisin arvadı hirslə əllərini oynatdı:

– Ərimin əvvəlki vaxtı olsaydı mən İtaliya qurbağasının kim olduğunu sizə göstərərdim!...

Stol atası “dalaşan”ları sakitləşdirdi:

– Bəsdir, siz allah, özləri də adlarını mədəni qoyublar. Adicə içkiləri də bir-birindən ayıra bilmirlər. mənə gəldikdə “Mister-D” heç zaman “Fokstrot”un, “Brendinin” yerini verə bilməz.

Atanın da ağlına bir söz gəldi:

– Yanılırsınız, xanım, mənə gəldikdə, nə “Mister-D”, nə “Brendi”, nə də sizin “Fokstrot” unuz heç zaman “hopstrop”a tay ola bilməz.

Hamı təəccüblə ataya baxdı...

Axşamdan xeyli keçmiş qonaqlar yavaş-yavaş dağılmağa başladılar. Redaktorun arvadı qalxıb getmək istərkən ehtiyatla evin xanımına yaxınlaşdı:

– Xahiş edirəm, ərinizə deyəsiniz ki, o dostuna yazsın ki, heç olmasa üç litr o “Mister-D” dən bizim üçün də göndərsin. Rica edirəm!...

Ata və ana yenə də tək qaldılar. Onların baxışlarından sevinc süzülürdü. Qonaqlar hamısı razı getmişdilər. Elə bu zaman telefon zəng çaldı. Ana qaçıb telefonun dəstəyini qaldırdı. Danışan əmioğluydu:

– Belə iş olmaz, əziz qohum. Özünüz “Mister-D” içirsiniz, amma heç mənə bildirmirsiniz. Heç belə də qohumluq olar?

Ana bir söz deməyib dəstəyi asdı. Əmioğlu deyəsən narazı qalmışdı. Balaca nəvəsi ananın yanında durub təəccüblə ona baxırdı:

– Nənə, axı bu “Mister-D” nədir?!

– Mister-D”, “Mister-D”...

Nənə söz tapa bilməyib ataya baxdı, ata nəvəyə. Nənə bir söz deməyib balaca nəvəni əlləri üstündə havaya qaldırdı. Nəvənin əynindəki köynəyin yarlığı yuxarı qalxdı. Köynəyin yarlığında “Mister-D” yazılmışdı.



## “PAPARAZZİ”LƏR



...Böyük Britaniyada krallıq ailəsinin cangüdənləri “paparizzi” adlanır.

Bu adamlar krallıq ailəsinin həyatını qorumaqla yanaşı, ailə üzvlərinin gəzdiyi yerlərdə şəklini çəkir, kütləni ailənin həyatı ilə məlumatlandırırlar. Eyni zamanda ailənin ev və çöl işlərinə köməklik edirlər...

Sonralar öyrəndim ki, bu adamların sayı çox deyildir. Krallıq prinssesanın cəmi 25 nəfər “paparazzi” si var. Çünki avropalılar qənaətcildirlər. Öz pullarını havayı yerə xərcləmirlər. (qeyd etmək istəyirəm ki, fransa boyda dövlətin prezidentinin cəmi 12 cangüdəni var).

Azərbaycanda isə işlər başqa cürdür. Buradakı “cangüdənləri” görəndən sonra, açığını deyim ki, “paparazzi”lər gözümdən düşdü. Hara gedirəmsə, kimi görürəmsə, özümü ingilis krallığında olduğu kimi hiss edirəm. Ilahi, azərbaycanda nə qədər kral, kraliça, prins, princessesa varmış? Heç bu qədər kralı, kraliçası olan bir xalqın torpağına təcavüz etmək olar? Hər

nazirin 70 “paparazzi”si, hər icra hakiminin o qədər, hər universitet rektorunun gör nə qədər cangüdəni var? Hələ idarə müdirlərini, rəisləri demirəm. Hamısı “paparazzi”lərlə “çəpər”lə-niblər.

Hətta müğənnilər, bazarkomlar da özlərinə “paparazzi” kirələyiblər. Arvadlarını, uşaqlarını beşikdə yatan körpələrini də “paparazzi”lər qoruyur. Bir də görürsən, dörd bığıburma kişi düşüb bir uşağın yanına, onu məktəbə aparıb-gətirir, bu uşaq “subaşı”na çıxanda qapısında “mil” dururlar, biri şalvarını geyindirir, biri ayaqqabısını, başqa biriləri də o tərəf-bu tərəfə baxır ki, bu uşağa xətər toxunduran olmasın. Çünki bu, adi bir uşaq deyil, nə bizim belibükük Fatmanisənin oğludur, nə də yelbeyin Tükəzbanın. Bu uşaq Haykanuşun nəvəsidir. Haykanuş da o Haykanuşdur ki, “filankəsin” xanımıdır.

Axı bu uşaq kimə lazımdır? Kim istəyər ki, bu uşağa xətər toxunsun? Bu azmış kimi, onların nahar etdikləri restoranların çayxanaların qarşısında neçə-neçə cangüdənlər durur (əslində, bu restoranlar çayxanalar elə onların özlərinindir).bu adamlar, hətta evlərinin ətrafında da cangüdəndən sipər düzəldiblər...

Indi hünərin var bu “cangüdən”lərin gözün-

dən yayınıb bir idarə müdirinin qəbuluna düş görüm, necə düşürsən? Bir rəislə görüş görüm necə görüşürsən?...

Hələ nazirləri demirəm. Onlara yaxın düşməyi heç ağlına da gətirmə. Görəsən kimi-kimdən qoruyurlar? Kraliçanın "paparazzi"ləri ingilislərin tarixi simvolu olduğunu anladıq. Bəs bu kişilər görəsən haranın simvoludurlar?

Avropalılarınsa tərbiyəsi başqadır. Məsələn, ingilis uşaqları hələ balaca yaşlarından müstəqil böyüyürlər.

Fransızlar öz uşaqlarını tərbiyəçiyə verirlər. Ona görə də fransız uşaqları öz ata-anasına yad adam kimi yanaşırlar. Alman uşaqları öz analarını yalnız böyüyüb həddi-buluğa çatdıqdan sonra tanıyırlar. Alman uşaqları öz "nənə"lərini ana, analarını isə "gənc qız" (yunqe froyleyn) deyə çağırarlar.

Nə yaxşı ki, bizim uşaqlar onlara bənzəmirlər. Elə doğulan gündən öz valideynlərini tanıyırlar. Beşikdən qəbir evinə qədər valideynlərinin yanından çəkilib getmirlər. Valideynlər hara gedərlərsə, harda olarlarsa onlar da qır-saqqız kimi qopmaq bilmirlər. Həmişə də deyirlər, ata mənə onu al, ata, mənə bunu al, ata, məni məktəbə qoy, ata mənə arvad al, ata, mənə ev al,

maşın al... Bax, elə ona görə də bizim uşaqlar ağlayan olurlar, ərköyün böyüyürlər.

Pulsuz olanda, pul istəyənedə qışqırıb aləmə səs salırlar. Bilirlər ki, pulsuz insan heç nədir. Istəyirsən lap "zırrama" ol. Pulun varsa, səni yuxarı başa çəkəcəklər. Hamı səninlə məsləhətləşəcək... uşaqlarımız pulsuz bir addım da atmırlar. əgər onlara pul versən, gedib lap Nikolayı taxt-tac qarışıq qəbirdən çıxarıb gətirərlər. Bir gecədə Qarabağı ermənilərdən azad edərlər.

Deyəsən söhbət uzandı...

Uzun danışıq gönü suya verər, - deyirlər...

vay! tamam unutdum... "paparazzi"lərdən danışırdım axı?...Papa razı, mama razı...



## ÖZÜM HAQQINDA HEKAYƏ



Sabah qəzetdə hekayəm dərc olunacaq. Düz iki il redaktorun stolunun gözündə yatandan sonra, nəhayət, o, işıq üzü görür. Sevincimin həddi-hüdudu yoxdur. Axşamdan evimizin yanındakı köşkdə işləyən kişiyə möhkəmcə tapşırmışam ki, mənə əlli ədəd qəzet saxlasın. Axı dostlar, tanışlar var: hərəsinə bir qəzet bağışlasam, heç özümə qalmayacaq. Qəzetçi əvvəlcə bir az "nəm-nüm" eləsə də, hərəsində beş qəpik vəd etdikdən sonra həvəslə razılaşdı.

Sabah artıq hamı məni tanıyacaq, ürəyimdən keçənləri qəzet sahifələrində gözləri ilə bir-bir dənləyib deyəcəklər: "Əhsən bunu yazana, əhsən!" Ola bilsin ki, yuxarı təşkilatlardan da kimsə məni yanına çağırtdırıb hədələməli oldu: "Ey, cavan oğlan, bunu sən yazmısan?! Bir də belə şeylər yazsan pişiyini divara dırmaşdıraram!".

Bu da xoşdur. Onları da başa düşmək mümkündür. Çünki hal-hazırda mənfi obrazlar o qədər çoxalıb ki, hamı özündən şübhələnir.

Başqaları isə məni görəndə gizli-gizli bir-birinə göz vurub deyəcəklər: "Bax, budur o oğlan, o hekayənin müəllifi budur" hələ sevdiyim qız... Yəqin indi o məni rədd etdiyi üçün nə qədər peşiman olacaq.

Bəli, bu gündən mən yazıçı olmağa başlayıram. Bu gündən belə hamı məni tanıyacaq... Hətta ola bilsin ki, ünvanıma məktub göndərənlər də tapıldı:

"Əziz və hörmətli...!

Sizin yazdığınız hekayə çox xoşuma gəldi. Siz burda zamanın nəbzini tutmusunuz. Siz burda sərçəni gözündən vurmusunuz. Siz burda fəğan eləmisiniz...".

Qəzetin köhnə nömrəsindəki tiraja baxıram, -düz otuz min tiraj. Deməli, otuz min oxucu, hələ onların dostlarını, tanışlarını demirəm. Məncə, məşhur olmaq üçün bu, kifayət edər.

Sevincimdən gecə gözümə yuxu da getməyib. Səhər tezdən çarpayımdan qalxan kimi tələm-tələsik geyinib evdən çıxıram, köşgə yaxınlaşıb qəzetləri alıram. Artıq neçə dəfə oxusam da diqqətimi yenə də ora cəmləmişəm. Necə deyərlər, kənardan onu oxucu gözü ilə müşaiyyət edirəm: bir az qəzetin yuxarı hissə-

sində olsaydı, daha yaxşı görünərdi. Bu şriftlər niyə belə balaca yığılıb görəsən? Adımı güclə oxuyuram. Yazıq oxucu bunu necə görsün. Vay, vay... harda kəsərli cümləm varsa kəsib götürüblər hələ bu nədir?! Bu cümlə ki mənim deyil!..Eyb etməz əsas məsələ budur ki, hekayəm çıxıb. Buna da min şükür.

Elə qəzetlər əlimdə işə gəlirəm. Gözləyirəm ki, ində içəri girən kimi hamı mənim əlimi sıxacaq, təbrik edəcəkdir. Bunun əvəzində başqa mənzərənin şahidi oluram. İşə keçikdiyimə görə divarda mənim adıma töhmət asılıb. Direktor məni yanına çağırtırıb deyir:

– Bir də işə keçiksən, səni it kimi qovacağam.

Suyu süzülmüş ələk kimi direktorun kabinetindən çıxıram. Öz-özümə təskinlik verirəm: “Eybi yoxdur, yoldaş direktor, bu gün də olmasa sabah sən mənim adımı görəcəksən. Onda bu sözlərinə görə xəcalət çəkəcəksən.

Ordan birbaşa kabinetə gəlirəm. Otaqda dörd nəfər otururuq. Lakin bu adamlar elə bil ömürlərində qəzet, jurnal nə olduğunu bilmirlər. İşləri-gücləri onun-bunun qiybətini qılmaq və mürgüləməkdir. Özümü bu adamlara tanıtmaq üçün onlara qoşulub söhbəti qəzetlərdən

salıram:

– Bilirsiniz, yoldaş... filankəs! dünən qəzetdə maraqlı bir yazı oxudum. Amerikada nə qədər narkoman tutublar və s. və i.

Görünür söhbətim onlar üçün maraqsızdır. Şöbə müdrimiz tənbəl-tənbəl gərnəşir:

– Boş şeydir, qəzetə inanmıram, onların hamısı yalan yazırlar.

Burada qəzəbimi saxlaya bilmirəm:

– Siz səhv edirsiniz... yoldaş filankəs! elə götürək mənim yazımı.

Müdir mənə gözünü elə ağartdi ki, susmalı oldum. O vəzifəyə çəkilən müdir kimi üstümə çımxırdı:

– Yoldaş... Bu nədir indi də yazmağa başlamısan. Deyəsən biz səninlə bir yerdə işləyə bilməyəcəyik.

“Bu adamları qınamaq olmaz. Hamısı taxta-şalban adamlarıdılar. Şübhəsiz ki, onlar belə şeyləri dərk etməzlər. direktorumuz bir məsələdə haqlıdır ki, mən buraya təsadüfən düşmüşəm. Özüm ədəbiyyatçıyam. İnstitutu qurtarandan sonra rayona göndərdilər. oradansa təzədən etiraz yazıb Bakıya qaytardılar. Bir neçə ay idarələrə gedib-gəldim. Axırda məcbur olub inşaat idarəsinə düzəldim. Ümu-

miyyətlə, bura mənim yerim deyil. Burda gərək dörd gözlü olasan. Hiylələrdən baş açasan. İş tapan kimi mütləq çıxıb gedəcəyəm."

Bunlardan bir şey hasil olmayacağını görüb yoldaşlara zəng vurdum. Hal-əhval tutduqdan sonra onlardan hekayə barədə soruşdum. Etiraf etdilər ki, oxumayıblar. Ancaq mənim xətrimə mütləq baxarlar. İşdən çıxıb məyus evə gələndə təsadüfən şair dostuma rast gəlirəm. Məyusluq bir anda silinib gedir. Necə olsa o, dörd kitabın müəllifidir. Yəqin ki, yazımı oxuyub. Söhbəti çox uzaqlardan başlayıb ehtiyatla mətləbə keçməyə hazırlaşıram:

– Hörmətli filankəs... !Bilirsiniz, sizin kitabları oxumuşam. Siz necə də gözəl yazırsınız. Mən sizi özümə ustad sayıram Elə yazılarımda da sizə oxşamağa çalışıram. Filan, beşməkən...

Həmkarım qoyun kimi durub üzümə baxır. Sanki sözü heç buna demirsən, daşa-kəsəyə deyirsən. Ehtiyatla dilləndim:

– Bax elə götürək bügünkü qəzetdə çıxan yazımı. Bilmirəm oxumusunuzmu?

O, sərt şəkildə üzünü döndərir:

– Oxumamışam.

Cəld əlimdə tutduğum qəzet dəstindən birini səxavətlə onun üçün ayırıram.

– Buyurun, əgər zəhmət olmazsa evdə nəzərdən keçirərsiniz.

Bu zalım balasının heç tükləri də yerindən tərpənmir.

Əlim havadan asılı qalır:

– Mən təkcə özümü oxuyuram. Özümdən başqa heç kimi...

Bəli, bu da uğursuz çıxdı. Bu gün nədənsə bəxtim gətirməyib. Görəsən bütün yazanlar mənim kimi olublar? Ya mən beləyəm?

Mənim "zavmaq" bir dostum var. Bilirəm ki, kitab-dəftərə meyl göstərəndir. Evində hansı əsrdən desən kitab tapmaq olar. Evi lap əlyazmalar fonduna oxşayır. Özü bəzi sahələri əzbərdən bilir. Xüsusilə hüquq sahəsində səriştəsi çoxdur. O qanun yoxdur ki, əzbərləməsin. Məncə, o məni başa düşər. birbaşa onun yanına yollandım. Əhvallaşıb xoş-beş edəndən sonra təəccüblə üzümə baxdı:

– Xeyir ola, heç bu tərəflərə hərlənmirsən? Yaxşı mallarımız var.

Mənsə qəsdən əlimdəki qəzet dəstinə işarə edirəm:

– Heç, bir az başım qarışıq idi, hekayəm dərc olunub.

O, qəzeti əlinə götürüb bir xeyli o üz, bu

üzünə çevirəndən sonra həsədlə üzümə baxdı:

– Vallah, siz yazanlar xoşbəxt adamlarsınız. İndi buna görə nə qədər qanorarı şabaş eləyib qoyacaqsınız cibişdana. Yoxsa bizim kimi Çörəyimiz daşdan çıxır. Onu da obaxeistlərin allah canını sağ eləməsin, silib-süpürüb aparırlar.

Sonra isə üzünü mənə çevirdi:

– Dost, istəyirsən, gəl bir iş görək. Mən sənə hazır mövzular verim, sən də qələmə al. Qanorarı yarı bölək. Heç bilirsən məndə necə mövzular yatır? Heç xoruz səsi eşitməyib. Məsələn: "Qonşumuzda bir qız var. O qızı bir oğlan sevir, ancaq qız onu sevmir, başqasını sevir. Ata-anasınınsa həmin oğlandan zəhləsi gedir. Ona görə ki, oğlan müəllimdir". Bax, görürsən dünyada necə işlər olur? Hə, necədir, döşünə yatır?

Əlacsızlıqdan onun sözlərini təsdiqləyib görüşərək ordan uzaqlaşdım. Osa elə ardımca qışqırdı:

– Bax, qanorar alanda məni unutma, ha!...

Avtobusa elə təzəcə minmişdim ki, kimsə böyrümə dürtmə ilişdirdi:

– Salam, ay dost! Neçə qış, neçə yay?! Haralardasan?!

Bu mənim tələbə yoldaşım idi. Eşitmişəm ki, haradasa müəllim işləyir. Xoş-beş, on beş,

görüşmək, öpüşmək... Sonra o, üzünü mənə çevirdi:

– Elə bu saat fikrimdən sən keçirdin. Qəzetdə adına rast gəldim...

“Bax, əsl oxucu buna deyərlər. o saat görünür ki, mədəni adamdır. Necə deyərlər: “Zər qədrini zərgər bilər.”

“Ovumu” hürkürtməmək üçün ehtiyatla ona müraciət etdim:

– Hə, necədir, döşünə yatır?

Onunsa ürəyi elə bil daşdandır. Qulaqlarına bir pud “pambıq” tıxanmışdı: Mənim sözlərimi qulaqardına vurub başqa şeylər soruşmağa başladı:

– Evlənmisən? Bəs niyə?... Kim gözləyirsən?!

Söyüşü güclə dişlərimdə boğa bildim:

Bayaqkı sualı bir də təkrar etdim, lakin müsahibimin vecinə gəlmədi. O dilləndi:

– Yaxşı, indi tələsirəm, gələn dəfə oturub əməlli-başlı söhbət edərik.

“Yox, əziz dost, tələsmək nədir, sən nə danışırsan? Mən, səni göydə axtarırdım, yerdə əlimə düşmüsən. Səni heç yana buraxan deyiləm. Biz gərək bir yerdə oturub əməlli-başlı dərdləşək.”

O bu himə bənd imiş kimi razılaşdı:

– Yaxşı, sənin xətrinə işimi təxirə salıram.

Amma elə yer olsun ki, içməyə də bir şey " bilirdim ki, nəyi nəzərdə tutur" tapılsın.

İçmək indi ancaq restoranlarda olur. Lakin hər şeyə hazırdım.

Dostumla birlikdə rastorana daxil olduq. Maşallah, iştahasına söz ola bilməz. ..Beləsinin yeri ancaq ət kombinatıdır, ya da restoran mətbəxi. Hələ içməyini demirəm, zalım oğlunun qarnı elə bil Mingəçevir dəryasıdır. Heç halına da təfaüt eləmir. Səbirsizliklə yenə də hekayədən söhbət saldım. O sa qədəhi yuxarı qaldırdı:

-Bunu içirəm şəxsən sənin sağlığına! "Sözə bax ha!" Nə yaxşı ki, sənin kimi dostlarımız var. Sizin kimi dostlar başımızın ucalığıdır. Gələcəkdə məşhur olanda yazarsan ki, qədeşimlə oturub burda sağlıq deyirdik. O vaxt yazılarında məni də xatırlayarsan.

Fürsətdən istifadə eləyib soruşdum:

– Hə, necədi, döşünə yatdı bu günkü yazım?

Bənövşə kimi boynunu bükdü:

– Təəssüf ki, oxumamışam. Ancaq söz verirəm ki, açıb oxuyaram. ...və...

Ofisiant bizə yaxınlaşıb qiyməti üzümə oxudu:

– Yüz əlli manat, əlli iki qəpik...

Əlimi cibinə sürüşdürdüm...

Biz ayrılandan sonra qarnımdan bir ağrı tutdu. Görünür yeməklərdən zəhərlənmişdim. Özümü ayaqyoluna yetirib kabinələrdən birinə girdim. Belə yerdə adamın necə də qəzet oxumağı gəlir. Qınayan olmasa, burada alim olmaq mümkündür. Elə bu vaxt gözlərim urnadakı qəzet parçalarına sataşır.

“Bu ki, məni yazım olan qəzetdir... Zalım oğlu hər kimdisə düz mənim yazım olan yerdən istifadə etmişdi. Öz işimi də alayarımçıq görüb hirslə kabinədən çıxdım. Elə bu vaxt iki qız ilə üzbəüz gəlirəm. Onlardan biri, o səmavi göz, gülümsünərək rəfiqəsinə nəsə deyir: hər ikisi diqqətlə mənə baxıb keçirlər. ürəyimdə öz-özümə təskinlik verirəm:

“Deyəsən axı onlar məni tanıdılar, ilahi, o necə də diqqətlə baxırdı necə də odlu gözləri var idi, necə də ilıq idi, necə əziz idi... Bəlkə qayıdım?... Bəlkə gözləyim?... Bəlkə qayıtdılar?...

Elə bu vaxt kimsə böyrümə dürtmə vurdu:

– Vətəndaş, qayışınızı düzəldin.

Vay səni, vay!... Qayış düz paçamın arasından aşağı sallanırdı: - Ay səni qəzet silən, ay səni qəzet çıxaran!...



cartoon by Shahram Razaei Iran

## MİN MİSRA ŞEİR

*(novella)*



Onu metroda gördüm. Eskalatorla düşəndə. O çıxırdı, mən düşürdüm.

Gülümsünüb məni salamladı: – Ey, dost, necəsən? – dedi. Sonra təzədən Eskalatora minib arxamca gəldi.

Bu da onlardan idi-şeir yazanlardan, öz sevgilisinin vəfasızlığından şikayətlənənlərdən. Dünyanı etibarsız adlandıranlardan. Əvvəllər bir yerdə dərnəyə getmişdik-tənqidin acısını birlikdə dadmışdıq...

Görüşdük, öpüşdük, hal-əhval tutduq: ordan-burdan, kənddən, kəsəkdən, qohumdan-əqrabadan, nə bilim daha nədən. Nəhayət, -şeir, sənət aləmində nə var? –deyə xəbər aldım.

Bənövşə kimi boynunu bükdü:

– Vicdansızlar çap eləmirlər, -dedi.

Ona təskinlik verməyə çalışıraq böyüklərdən eşitdiyim sözləri tutuquşu kimi təkrar etdim:

– Etmirlər, etməsinlər. onsuzda dayısı, əmi-

si olmayanları ədəbiyyat aləminə buraxmırlar. Yaxşı yazmaq lazımdır. Əsas məsələ odur ki, əlində yazın olsun.

Sonra vaxtsız-vədəsiz öz dövrünün qurbanı olmuş bir necə şairin adını çəkdim. Öləndən sonra onları necə çap olunmasından, oxucu qəlbini fəth etməsindən danışdım.

Ürəkləndi. Bu sözümə bənd imiş kimi gözləri alışıb-yandı. Başladı danışmağa: -yazmağına yazıram, -dedi,

– İşləməyimə söz ola bilməz. Gecəni gündüzə, gündüzü gecəyə qatmışam. Yuxunu özümə haram etmişəm. Demək olar ki, hər gün yazıram-gündə min misra. Hamısını da bir qızın şərəfinə həsr edirəm. Onun dərdindən dəli-divanə olmuşam. Ancaq nə fayda, zalım qızı, elə bil dəyməşmiş qarpızdır. Heç halına təfavut etmir...

Ona bir xeyli xeyir-dua verib “məhəbbət cəbhəsində” möhkəm olmağa çağırdım. Görüşüb ayrıldıq.

Sonra bir müddət görüşmədik. O görüşü də unutdum. Sonra necə oldusa yenə də həmin metroda, həmin eskalatorda rastlaşdıq. Elə bil o vaxtdan bəri burada yolumu gözləyirmiş. Uzaqdan əl elədi. Hal-əhval tutduq: tanışdan,

bilişdən, qohumdan, qardaşdan... şeir, sənət barədə soruşdum.

Başını aşağı salıb gülümsünərək qızardı:

– Daha yazmıram, -dedi.

Səbəbini xəbər aldım. Handan-hana dilləndi:

– Axır ki, o qızı aldım.

Ona yeni ailə səadəti arzuladım. Əl verib ayrıldıq. Bir xeyli ardınca baxıb şeirin qüdrətinə mat qaldım.

... Bir necə il sonra onu bir də gördüm. Görüşdük-öpüşdük. Hal-əhval-pərişan. Səbəbini soruşdum. Yana-yana cavab verdi:

– O qız məni atıb getdi.

Sonra nəyisə xatırlamış kimi əlavə etdi:

– Yenə şeir yazıram-gündə min misra. O qızın şərəfinə!

Daha bir söz demədim. Görüşüb ayrıldıq.

## EY HƏYAT,
## SƏN NƏ QƏRİBƏSƏN...



Bu da onlardan idi-otuz yeddinci il təqibinə məruz qalanlardan. Onunla çayxanada rastlaşdıq, öz aləmindəydi. Yayın cırhaçır vaxtı olmasına baxmayaraq ayağında xrom çəkmə var idi. Başına isə qulaqlı papaq qoymuşdu.

Qulaqlarını da açıb aşağı buraxmışdı. Günnünyü də düz gözünün üstündə eynəyi bərabərində. Pencəyini çıxartmağı və köynəyinin sonuncu düyməsini acmağı da görünür unutmuşdu.

Bir sözlə, bu adam özüylə Bakıya şimal buzlu okeanın havasını gətirmişdi. Çay qabağında, özü də gələni-gedəni marıt-marıt marıtlayır. Zalım oğlu, onları elə tərzdə süzür ki, sanki xarici görkəmlərinə şeir yazacaq... Nə isə.. Çox maraqlı və qaranlıq adama oxşayırdı.

Yoldaşımla oturub söhbət edirdik. Mövzusu da 37-ci ildə güllələnlər barədə idi. Onların mərdliyindən, qorxmazlığından, igidliyindən nə bilirdiksə danışdıq. Sonra böyük şairimiz

nakam Müşfiqdən söhbət düşdü.

Bu dəmdə o da söhbətimizə təkan vurdu. Yana-yana:

– Mən də onlardanam, -dedi, -stalinizimin, Bağırovun təqibinə məruz qalanlardan. Müşfiq yaxşı can idi. Beləsi hələ həyata doğulmayıb. Ondan olmazdı. İndi hanı ona tay?! Hanı, hanı?!

Hər ikimiz maraqlanıb: -Siz onu görmüşünüzmü? –deyə soruşduq.

Eynəkli çayı ləzdətlə hortuldadıb, qənd tikəsini udaraq dedi:

– Çox, lap çox. Elə gecə-gündüz bir yerdə deyildikmi?! Elə indicə onu düşünürdüm. Müşfiqlü günlərimi. Ondan sonra mən həyatı yaşamıram. Onun xəyalı həmişə gözlərim önündə durur: qəşəng oğlandı, saçlarını həmişə küləklər darayirdi. Özü də şeir yazırdı. Bütün şeirlərini də birinci mənə oxuyardı. Sonra da çayını içə-içə deyərdi: -hə, Ağakərim qedeş, necədir, döşünə yatır! Mən nə deyə bilərdim. Bircə tərifləmək qalırdı:-Çan, qədeş, çan. Sən burda lap fuğan eləmisən. Hanı indi elə şair?! İndikilər hamısı əldəqayırmadırlar. Xox, eləyəndə dönüb olurlar hökumət adamı. Amma o! Elə bil şir ürəyi yemişdi. Heç kimdən qorxub eləmirdi. Həmişə bura gəlib dənizə baxardı. Deyərdi:

-Ağakərim qədeş, mənim ölümüm elə bu dənizin qırağındadır. Elə də oldu. Dəniz qırağınınn adamları gəlib onu apardılar. Yazıq elə bil ölümünü duymuşdu. Deyirdi, Ağakərim qədeş, bir gün mən bu dünyada olmasam o bağa gedərsən, oturub məni yad edərsən. Elə elə də oldu. O, mənim belimi sındırdı. Onunla dostluq etdiyimə görə məni də damladılar. Adımı "dizertir" qoydular. Nədi-nədi əsgərlikdən qaçmışdım. Guya çox mettah şeymiş, qonşunun qoyununu oğurlamaq. Təmiz parçaya ləkə vurmağa nə var. Bunlar hamısı bəhanə idi. Hamısı Müşfiqin üstündə.

Bu yerdə marağımı saxlaya bilməyib soruşdum:

– Yəqin ki, Sizin onunla görüşlərinizdə şirin xatirələriniz də olub.

O, öz hafizəsi ilə öyünərək qürrələndi:

– Çox, lap çox.

Dedim:

– Xahiş edirəm, onun ən şirinini, ən maraqlısını danışasınız.

Susdu.

Təkid etdim. Özünü eşitməməzliyə qoydu. Əl çəkmədim.

Axırda məcbur olub handan-hana dilləndi:

– Hansını danışım?!-O qədər xatirələrim var ki, o yetimlə.

Sonra başını çevirib bir az aralıda tüstülənən manqala baxa-baxa ağzını marçıldatdı:

– Yeriniz məlum, günlərin bir günü Müşfiq qədeşimlə elə buradaca, dəniz kənarında oturmuşduq. Yeyib içirdik özümüzçün. Onda da indiki kimi deyildi. Hər şey su qiymətinəydi. Əntiqə havaydı, ahəstə külək əsir, o böyük şairin saçlarını darayırdı. Birdən o yeməyinə ara verib dayandı.

Bir mənə baxdı, bir də dənizə. Sonra "ah" çəkib dedi:

– Ay Ağakərim, ey həyat sən nə qəribəsən. Müşfiq belə oğlan idi. Yoxsa indiki cavanlar kimi. Nə böyük yeri bilirlər, nə kiçik.

Ağakərim qədeş, bunu deyib çıxıb getdi. Çayın pulunu da vermədi.



## MÜHƏNDİSİN NAĞILI

Rəis mühəndisi işə götürdü. Mühəndis getdikcə böyüməyə başladı. Rəisin bunu gözü götürmədi. O, mühəndisdən yapışdı. Dartdı, dartdı, işdən çıxarda bilmədi. Köməyə katibəsini çağırdı katibə rəisdən yapışdı, rəis də mühəndisdən. Dartdılar dartdılar, mühəndisə bir şey olmadı. Köməyə müavini çağırdılar. Müavin katibədən yapışdı, katibə rəisdən, rəissə mühəndisdən. Dartdılar, mühəndis tükcə də olsun yerindən tərpənmədi.

Köməyə şöbə müdirini çağırdılar. Yenə də dartdılar. Mühəndis yerindən dəbərmədi ki, dəbərmədi. Köməyə qarderobşiki çağırdılar, qarderobşik süpürkəçi Fatma arvadı çağırdı, Fatma arvadsa öz itini-qurdunu çağırdı... və... mühəndisin başına turp əkdilər və s. və i.a.



# MİN BİR XIRDAVAT

## Atalar sözü və məsəllər



1.Yeznəsi nazir olanın, çibləri hazır olsun.

2. Naziri gülüm olanın, başına pulum olsun.

3. Şikayət nə qədər uzun olsa, axırda gəlib dövlət idarələrindən keçər.

4. Rüşvətxor rüşvətxora rüşvətxor deməsə, rüşvətsiz qalar.

## Yanıtmacalar

5. Nazir naznazın nazıyla nazirdir. Nazir nazir naz-nazın nazıyladır. Naz-nazın nazıyla Nazir nazirdir. Terminoloji lüğət: nazir rizan (tərsi), nazı ilə-G(z) cani əli, c(z) an-c(z)an.

6. Baş soğanın başı başdır. Soğanın başı, baş soğandır. Baş başı, baş soğandır. Baş soğanın başı, baş soğandır.Soğanın başı, başın başı...

7. Dilim, dilim olasan, dilim. Dilim, dilim-dilim olasan. Olasan dilim, dilim-dilim. Dilim-dilim, dilim olasan.

8. Soyunu soy, soyun soyu. Soy soyunu, soyun soyu. Soyun soyu soyunu soy, soyun. soy...

soy, soy, soy...

9. Gəlinlər-gəlini, gəlin, gəlin. Gəlin gəlin, gəlinlər-gəlini; gəlin, gəlinlər-gəlini, gəlin...

10. Gulağım, gul ağdır, gül ağdır. Gül ağdır, qul ağım-qulağdır. Gul ağdır, qülagdır, qulağım.

11. ÇƏKMƏ çəkməni, çəkini çək. Çək çəkməni, çəkini çəkmə. Çəkməni, çəkini çək-çəkmə. Çək çəkməni, çəkini çəkmə...

12. Göz gözdə gözdür, gözdur gözdə göz. Gözdə gözdür göz, göz-göz gözdir, gözdə. Göz-də-gözdə...közdə-göz, gözdür, közdür...

13. Üz, üzdü, üzdə, üz, üzdə-üz. üzdü. Üz üzdə, üzdü üz. Üz-üzdü, üzdə üzdü. Üzdə üzdü, üz-üzdü...

## Elanlar

• Prezident idarəsinə dayələr tələb olunur.

*(Prezident İdarəsinin elanlarından)*

• Səs salıb deputatların yuxusunu pozmayın!

*(Azərbaycan Respublikası Milli Məclisinin elanlarından).*

• Şikayətçilərə və jurnalistlərə içəri girmək qadağandır!

*(İcra hakimiyyətinin elanlarından)*

• Cibinizi möhkəm tutun, avtobusda oğurluq var.

*(179 saylı avtobusda asılmış elanlardan)*

• Bizdə yalnız cərrahiyyə əməliyyatı aparılır!

*(Eksperimental xəstəxananın elanlarından).*

• Həkimlərlə birlikdə xəstəxana satılır.

*(Səhiyyə nazirliyinin elanlarından)*

• Süpürgəçi tələb olunur. Işə götürülmə müsabiqə yolu ilə həyata keçirilir.

*(Mənzil-kommunal idarəsinin elanlarından)*

• İçməli su zavodlara satıldığından, su olmayacaq. Suya qənaət edin!

*(Su idarəsinin elanlarından)*

• Bizim torpaqlarımız etibarlı əllərdədir.

*(Qarabağ qaçqınlarının elanı)*

## Qırx-40

*(Qoyun qırxma mərasimi)*

...40-qırx, qırx -40. Zatı qırıx, çatı qırıx. Qırıq-qırıq, qırx-40.40 -qırıq qırx. Atımın çatı qırıx, itimin xaltası, baltaçının baltası ... qırıx-qırıx qırx. Ayağqabının uçu cırıx... təki cırıx, cütü cırıx. Əlinin papağı cırıq... dimdiyi qırıq, günnüyü sırıx... Vəlinin dişləri mırıx... 40, qırx... Dəlinin şalvarı yırtıq... qırx-40. Əlinin dədəsinin kürkü sırıq, nənəsinin tumanı yırtıq, babasının papağı sürtük... 40, qırx. Əlinin papağı

cırıx. Qırx, qırx. Əlinin papağını qırx.

Əli qırxdı, Vəli qırxdı, Dəli qırxdı, Pirvəlinin papağının dazı qaldı... Əlinin papağının dərisi qaldı, bir də gerisi qaldı... cıx, qırx! Əlinin papağı qopuq, Vəlinin şalvarı yamaq, Pirvəlinin köynəyi sökük... Əlinin papağını Vəlinin başına qoydular, Vəlinin şalvarını Pirvəliyə verdilər, Pirvəlinin köynəyini Əliyə geydirdilər. Tumanının altı cırıx, üstü cırıx, hamısını qırx. Əlinin papağı, Vəlinin başına olmadı, vəlinin şalvarı Əlinin əyninə gəlmədi, Pirvəlinin köynəyi hər ikisinə.. Əli küsdü, Vəli küsdü, bu qırılmış dəli küsdü...

Əli dəli, Vəli dəli, Pirvəli hamıdan dəli, cırt... qırıq-qırıq qırx...Əlinin cibi boş. Vəlininki yırtıq, Pirvəlinin cibi... qırx. əlinin dişləri mırıx, Vəlinin işləri, dövlətin işi fı-rr-rıq, ...qırx, erməninin tumanı tır, .. sıx:qıx...

Qırx-qırıq. Hər üçü yığışıb Qarabağa getdilər. Əli getdi papağının dalınca, Vəli getdi şalvarını geyməyə, Pirvəli köynəyini gətirməyə.. Cırt!.. Əli getdi-əli gəldi, Vəlinin qolu gəldi... Məmmədi, Gulusu... Cibi dolu pul... mırt. Pirvəlinin... Ağzı sarıq, üzü sarıq, qulağı, gözü sarıq..40-qırx. Ölkənin dayçası arıx, qoyunu, quzusu arıx, iti-pişiyi arıx, əkini-biçini arıx, köçü- arıx, böyüyü-kiçiyi-arıx...-qırx. Otlağı qoruq, suları qo-

ruq, arvadı-uşağı qoruq, altı goruq, üstü qoruq, ocağı qoruq, tüstüsü qoruq... cıx, qırx, qırx, Əli şişman, Vəli kombə, Pirvəli toppuş, Vəlinin arvadının Əli pənbə.. xırx.. qıx, qıx, qıx...

Əlinin baltası var, odun tapmır, Vəlinin tası var, suyu çatmır. Pirvəlinin samanı var inəyi otdamır. Çarx-qırx, Əlinin papağı var, mürvəti yox, Vəlinin köynəyi var, dini yox, Pirvəlinin şalvarı var, günü yox..-40...

Fermamızın otu çürük, inəyi, danası sapiq, qapısı qırıq, pəncərəsi çapıx.. qırx! Müdirimizin gözləri pıpıx, ağzı yırtıq, burnu mırtıq, arvadı, qızı sırtıq... stolu sınıq, dolabı sınıq, qazanı yanıq... , Əlinin, Vəlinin, Pirvəlinin, qırıq, qırx, -qıxx...

Ermənin papağı yırtıq, şalvarı cırıx, köynəyi cırıx-qırx, qırx. Kitabı cırıx, dəftəri cırıx, -qırx, qırx-anası, bacısı, tıx...südü sıyıx, tıx...zatı qırıq..tıx! tumanı tır... qırx, qır-ıq. Anasının ipi... çıx! Çıx! Xırt!...



*Atam Məmmədov İbrahim Mirəli oğlunun əziz xatirəsinə*

# TƏRCÜMEYİ-HALIMIN ANTOLOGİYASI

*("Şahnamə" əsəri önündə düşüncələr)*



Loğman İbrahimoğlu (Məmmədov Loğman İbrahim oğlu) 1956-cı ilin aprel ayının 17-də Cəbrayıl rayonunun Daşkəsən kəndində dünyaya göz açmışdır.

Atası Məmmədov İbrahim Əli oğlu (İranlı adı - Mir Abdullah Mir Əli oğlu) təxminən 1905-ci ildə İran İslam Respublikasının Təbriz şəhərində dünyaya gəlib. Mənşəcə azərbaycanlıdır. O, "Şahnamə" əsərinin qəhrəmanı zal oğlu Rüstəmin nəslindən gələn və Şah İsmayılın sarayında baş münəccim olan, xalq arasında "maq" kimi şöhrət tapmış "Bəxtiyar" adlı bir şəxsin aşirətindəndir.

Deyilənə görə, həmin şəxs ulduzlara baxmaqla göyün də, yerin də sirrini bilirmiş. Hətta zamanı

və məkanı qabaqlayıb göylərə - başqa planetlərə səfər edirmiş. Bu gün dünyada “yeddi möcüzə” sayılan binaların layihəsini də o veribmiş.

O, gözəl şeir yazmaq, rəssamlıq, həkimlik qabiliyyətinə malik imiş. Öz əsrarəngiz məlahətli səsi ilə dünyanı heyran edirmiş. Hətta deyilənə görə dünyanın bütün dahilərinin kitabları onun “qələmindən” çıxmış-onun pıçıltılarından yazılmışdır. Dünyanın bütün rəsm əsərləri-onun gözlərindən dünyaya baxmışdır. Dünyanın bütün səsləri-onun məlahətli səsindən çilvələnmişdir.

Dini kitablarda Budda, Musa, İsa, Məhəmməd, Loğman kimi adı keçən bu şəxs, xalq arasında Kəmaləddin Behzad, Əli İbn Sina, Molla Nəsrəddin, Bəhlul Danəndə, Nostradamus, Raxmatulin kimi məşhur olmuşdur. Hətta o, İsgəndər kimi quşların, heyvanların, cücülərin, eləcə də təbiətin (otların, çiçəklərin) dilini bilmiş, yuxuyozma, sehrbazlıq və gələcəyi əvvəlcədən söyləmək elminə malik olmuşdur.

Lakin o, “ölümsüzlük” dərmanı düzəltdiyinə görə göylərin ona acığı tutmuş, onu qeybə çəkərək gizlətmişlər. Onun səsini, yazılarını, rəsmlərini isə, şüalara, buludlara, təbiətə, sulara köçürmüşlər.

O əslən azərbaycanlı olub XV əsrdə hələ uşaq olarkən ailəsi ilə birlikdə İranın Təbriz şəhərinə köçmüşdür.

Hələ sarayda olarkən o, öz ulu babalarının “tarıxını” yazmaq, onu əbədiləşdirmək qərarına gəlir. Lakin o zamanlar saray qanunları belə bir “tarixi” yazmağı qadağan etdiyindən o öz kitabını gizli “Səf” imzası ilə (Seyyid Əbülqasım Firdovsi) qələmə alaraq” “gizli” azərbaycan dili sayılan fars şivəsinə çevirmişdir.

Avropa ölkələrində bu olay böyük ingilis dramaturqu və yazıçısı V.Şeksprin (şəxs birmüəllif) həyatı kimi göstərilmişdir.

**(İran və Avropa məxəzlərinin, o cümlədən o dövrün məşhur təzkirəçiləri-Kəlai və Zaeinin (H.Kölpünarlı, H.Çələbi-Nadir kitablar otağı, v polka, İstanbul) təzkirələrində qeyd edildiyi kimi, O, qeybdən gələn səsləri eşitməyi, yuxu yozmağı, ulduzlarla taleh oxumağı, la məkanlar kimi bütün zamanlara və məkanlara səyahət etməyi bacarırmış.**

**Türk alimləri isə səhv olaraq onun (Bəxtiyarı) əslən türk olduğunu və Süleymaniyyənin (indiki İstanbul) sultan Süleyman sarayında xəzinadar olduğunu söyləmişlər (“Topqapı” muzeyi, Şah Ismayılın qızıl əşyalarının üzərindəki yazılar).**

Böyük Avropa şərqşünasları onu (Bəxtiyarı) - Mois (Musa), Yezu Krı (Isa), Maqomedlə (Məhəmməd - s.s) eyniləşdirmiş, hətta Riçardın, Napoleonun, Nostradmusun bu nəsildən gəldiyini söyləmiş, o avropalıdır deyə hökm vermişlər. (Lüksemburq bağında yerləşən XV Lüdovikin ev-muzeyində saxlanılan bəzək əşyalarının sənədləri -"Paris"). Bu şəxsin fəaliyyəti, Sovet dövründə, SSRI Kommunist Partiyasının göstərişi ilə "Çoxmillətli" adıyala Özbəkistana "sürgün" edilmiş, və xalq arasında özbək şairi Nəvai, Əli Ibn Sina kimi məşhurlaşmışdır (SSRI Kommunist Partiyasının ıx qurultayının materialları).

Ərəb dünyasında isə o, riyaziyyat və həndəsəni gözəl bilən və Misir piramidalarının yenidən qurulmasının layihəsini verən Fərabi, kimi şöhrət tapmışdır.

Məşhur folklorşünaslarımızın iddialarına görə, öz hazırcavablığı, məzəli əhvalatları ilə seçilmiş, - Aşıq Gurbaninin, Aşıq Pərinin xələfi və həmyerlisi olmuş bu adam (Bəxtiyar - müəllif) Molla Nəsrəddin, Bəhlul Danəndə kimi şöhrət tapmışdır. Azərbaycan dilində yazmağı oxumağı bilməklə yanaşı, həm də dünyanın bir çox - ərəb, türk, fars, ingilis, çin, sinq, dillərində danışmışdır. Lakin "tarixçi"lər yanlışlıq edərək onu Şah Ismayılın sarayında deyil, Teymurləngin sarayında göstərmiş ərəblər isə Kor Xəlifənin qardaşı Bəh-

**lul Danəndə kimi qələmə vermişlər.**

**Istinad etdiyimiz bu məxəzlər kifayət qədər çox olsa da, lakin çox təəssüf ki, onların böyük bir hissəsi türklər, ərəblər və ingilislər tərəfindən Isgəndəriyyə, misir və ingilis kitabxanalarında yandırılmış, ya da ikinci dünya müharibəsi zamanı "qiymətli əsərləri və tarixi məxəzləri Alman faşistləri "Titanik" gəmisinə doldurub İsrailə apararkən Amerika və Rusiya tərəfindən vurularaq batırılmışdır.**

**Doğrudur, bir neçə il sonra bu yazıların bəziləri dənizin dibindən aşkar edilib çıxarılsa da, lakin uzun müddət suda qaldığından oxunmaz hala gəlmişdir.**

**Bütün bu çətinliklərə baxmayaraq "Bəxtiyar"ın həyat yaradıcılığını və fəaliyyətini "saf-çürük" eləmək üçün əlimizdə kifayət qədər məlumat vardır.**

**Lakin çox təəssüf ki, bəzi tədqiqatçılarımız can-fəşanlıq göstərərək onu "Raxmatulin" ə, "Nostradamüs" a, Nikolaya, Pyotra, Leninə bənzədərək "haqq-nahaq" onun "ipi"ni batıya bağlamağa cəhd göstərirlər.**

**Bu məsələ kifayət qədər mübahisəli olduğundan onu gələcək tarixçilərin, ədəbiyyat və dilçi alimlərin üzərinə buraxırıq).**

Ibrahimin (Mir Abdullah) ana tərəfi Ilyasın, Idrisin, daha sonralar Salehin ağ dəvəsi adla-

nan dağdan gələn və insanlara “vəhy” söyləyən “dəvə” soyundan gəlmədir (bu nəsil özünü dini kitabların varisi sayır, və bu gün də adına ən çox “sühuf” lar olduğu bilinən dəvənin “sirri”-ni bildiklərini, öz dedikləri kimi, onun (dəvənin) adının “dəvə dalı yağlayanların” əliylə dini kitablardan çıxarıldığını iddia edirlər. Onlar “nuh” un gəmisindən gəlmiş yeganə insani varlıqlar olduqlarına inanırlar). Anasının dediyinə görə-onun anasının - anasının anası bu gündə Təbrizdə yaşayan tənəkçilər və suçular nəslindəndir.

Hələ uşaq ikən o, öz anasını itirmişdir. Ögey anaları (tacir olan atası Mirəlinin dörd arvadı var idi) onu incitdiyinə görə dayısının himayəsində yaşamalı olmuşdur. Dayısının həyat yoldaşı Şəhrəbanı onun həyatında xüsusi rol oynamışdır. Onun köməyi ilə o, öz ulu babalarının tarixi sayılan “Şahnaməni” öyrənərək “sinədəftər” etmişdi.

Dayısı Hüseynqulu (gizli ədəbi imzası Seyid Hüseyn) iki gözdən kor olsa da, Iran Milli Bankının ( o dövrdə Təbriz şəhərində yerləşirdi) baş xəzinədarı olduğuna görə ( yeri gəlmişkən, o zamanlar Iran “bankı” keçmiş şahların “mirasini” qoruyub saxladığına görə dünyanın

ən zəngin bankı hesab olunurdu. Şübhəsiz ki, bankda olan ən böyük hesab da Hüseynqulunun payına düşürdü), dünyanın ən böyük ziyalılarından və ən zəngin insanlarından sayılırdı.

O, balaca Ibrahimi tez-tez "dəftərxana" sına aparıb, kredit götürməyə gələn böyük şirkət sahibləri ilə görüşdürür, ona öz sənətinin sirrlərini öyrədirdi.

Qeyd etmək yerinə düşərdi ki, Iran Milli Bankı o dövrün ən etibarlı və əmniyyətli bankı hesab olunurdu. Sonralar dünyaya milyarderləri kimi kitaba düşmüş Rokfeller, Ford, Melnıkov, Nobel qardaşları və başqaları öz borclarını ödəmək üçün həmin banka müraciət etmişlər (Ingiltərə krallıq ailəsinin həmin bankdan borc pul aldığı söylənilir).

Lakin dayısının səylərinə baxmayaraq o, bu işlərdən çox uzaq idi. Onun xəyal dünyasında, öz istedadı və savadı ilə dünyanı lərzəyə gətirən ulu babaları Bəxtiyar və qılıncıyla dünyanı fəth edən zal oğlu Rüstəm idi. Elə ona görə də o hər gecə, ulduzlarla bəzənmiş Təbriz göylərinə baxır, ulduzların dilini, dünyanın gedişatını və mənasını anlamağa çalışırdı...

Məktəbi bitirdikdən sonra o, dayısı Hüseynqulunun İmam Hüseynin xatirəsinə inşa etdir-

diyi və maliyyələşdirdiyi Irak dövlətinin Nəcəf şəhərində yenicə açılmış Dünya Islam Texniki Unversitetinin Beynəlxalq Maliyyə Işləri fakultəsinə daxil olsa da, lakin bir neçə ay sonra öz arzusu ilə başqa fakultəyə - Uluslararası Torpaq və Su Işləri mühəndisliyi fakültəsinə dəyişilir. Az sonra o, gizli sayılan siyasi tələbə hərəkatına qoşulub, onun ən fəal üzvlərindən olur. Bu məlumatlar onun dayısının qulağına çatsa da, o, öz fəaliyyətəni dayandırmırdı, hər tətildə evə qayıdarkən dayısının ona verdiyi, öyüd- nəsihətləri eşitmirdi. Dayısının yaşadığı bu "lüks", "zəngin" həyat elə ilk gündən uşaqlıqdan öz xəyalpərəstliyi ilə seçilən Ibrahimin xoşuna gəlmirdi. Dayısı axşamlar evə dönərkən həyat yoldaşı Şəhrəbanının onun kor gözlərinə baxaraq içini çəkib ağlaması, dayısının hər gecə əsasına söykənərək divarları, əşyaları tuta-tuta öz otağına çəkilib saatlarla susması onun hafizəsində dərin iz buraxır, onu kədərləndirirdi...

Məgər budurmu zəngin həyat? Əgər öz sevdiyin qadının baxışlarını, gülüşlərini görmürsənsə, öz ətrafındakı adamları gözlərin seçmirsə yaşadığın həyat mənasını anlamırsansa kimə lazımdır o zəngin həyat?

Artıq V kursda oxuyan Ibrahim məhz belə

düşünürdü... Tezliklə tələbələr onu özlərinə rəhbər seçdilər. O dövrün ən böyük tələbə hərəkatı sayılan “Rza Hüseyn” hərəkatına başçılıq etmək onun üçün ən böyük mükafat idi.

Lakin tezliklə bu hərəkat ifşa olundu, onun başçıları və fəalları Irak dövləti və universitet rəhbərliyi tərəfindən təqiblərə və işgəncələrə məruz qaldılar. Ibrahim işgəncələrə məruz qalmasa da, Irak dövləti onun dayısının maliyyəsi ilə tikilmiş və fəaliyyət göstərən Dünya Islam Texniki Universitetinə əl qoymaq, onun Irak dövlətinin malı kimi görmək istəyirdi. Hətta onlar universitetdə işləyən müəllimləri də ələ alıb, onlara gələcəkdə yüksək maaş və mükafat verəcəklərinə vəd etmişdilər.

Ona görə də, universitetdə fəaliyyət göstərən xəfiyyə adamları onun çantasına gizli olaraq “narkotik” maddələr qoyur, tanımadığı adamlara qarşısını kəsdirib hədələdir, min vasitə ilə ona ləkə atmağa, dayısının nüfuzunu gözdən salmağa çalışırdılar.

Ibrahim dayısının yüksək mövqeyinə, xələl gələcəyindən, eləcə də İrak dövlətinin və müəllimlərin daha çirkin yollara əl atacağından ehtiyat edərək, universiteti beşinci kursda yarımçıq qoyaraq qaçmalı oldu. Təqiblərdən yaxasını

qurtarmaq üçün dostlarının köməyi ilə əvvəlçə Gürcüstana, sonra azərbaycana gəldi.

Çox-çox illər sonra o dayısı Hüseynqulunun və həyat yoldaşı Şəhrəbanının bu dərdə dözə bilməyib vəfat etdiklərini, və onun mal varlığının bacılarına - Fatma və Rübabəyə vəsiyyət edildiyini və dayısının və onun həyat yoldaşının vəsiyyəti ilə "itkin" düşmüş qardaşlarının geriyə dönməsinə həsr edərək, xeyriyyə məqsədi ilə Şah Əbdüləzim məqbərəsinin tikilməsinə, İmam Rza və Imam Hüseyn məqbərələrinin yenidən inşa edilməsinə, eləcə də Almanıyanın Hamburq şəhərində imam Rza, Moskvada və Sant-Peterburq məscidlərinin, o cümlədən "Əl-Əksa" məbədinin inşasına sərf etdiklərini eşitmişdir.

Hətta Fransa Ingiltərə, Ispaniya və Amerikada onların maliyyəsi ilə inşa olunmuş, məcsidlərin və dini mərkəzlərin olduğu da söylənilir. Bütün tikilən yerlərdə onlar öz adamlarını qoymuş, gəlib-gedəndən qardaşlarını soruşmuşlar.

Bunu eşidəndə Ibrahim bərk kədərlənmiş, papağını qabağına qoyub öz acı talehinə hönkür-hönkür ağlamışdı...

Səhrizad səhərin açıldığını görüb söhbə-

tini yarımçıq qoydu... Ətrafımdakıların məni görəcəklərindən ehtiyat edib ehtiyatla pəncərənin arakəsməsindən sivişib çıxdım. Öz "qaranquş" qanadlarımı geyib yola düzəldim.

Elə bu vaxt qarşıma Ibrahimin oğlu Loğman çıxdı. Salam verdim, salamımı almadı. Kəlam verdim əhvalımı sormadı. Dedi! "nə salam, nə kəlam, nə Rüstəm, nə Bəxtiyar, nə filan... qardaşımın barmağını kəsiblər, bacımın gözü kor, dostların qulağı kar. Pulum yoxdur həkimə verəm, dərman alam. Yor, indi özün yor...

Bir söz deməyib atamın külüngümü götürüb getdim quyu qazmağa, həqiqəti gizlədib, ona pul çıxarmağakülüngümü bir vurdum, iki vurdum: tap-tup, tup-tap- qarşıma qara tikan çıxdı, altından qara ilan qaçdı, Qara tikanı kökündən üzdüm, qara ilanı tutub başını əzdim. tikanı "budağından" yapışıb atdım uzağa, düşdüyü yerdə "Va- tikanı" tikdim... Qara ilanı atdım getdi uzağa-düşdüyü yerdə Hindistanı tikdim...

Külüngümü yenə yerə döyəclədim... tap-tup, çaq-çuq... həkim pulu, dərman pulu deyə-deyə, külüngümü döyə-döyə, qara baxtımdan, qara eşqimdən gileylənə-gileylənə... qara kürkümü söyə-söyə. Külüngümü bir vurdum, dur-

dum... göyə tüpürüb, yeri süpürüb, durdum, ..vurdum... külüngüm nəyəsə ilişdi... qaldırıb baxdım. Qarşıma bir qara daş, yanında da qara eşşek, üstündə də qara palani.. qara palanı başladım eşməyə, qara daşı "şümür" deyib döyəçləməyə, vurdum-vurdum, Daşın içindən bir ağ dəvə çıxdı. Bu nə dəvə? Gözündə qaşı yox, ağzında dişi yox, başında başı... Göz içində gözyaşı... Dövlətin başı yox! Qonşumuzun bayram günü evlərində aşı-yox... Həsənqulunun daşı-başı, Naz-nazın oynaşı çox... vay, dədəm, vay!..Ay, dədəm, ay!..Dərdimi söyləməyə sirdaşım yox! Ağ başlı, kirpiksiz-qaşsız, ağ dəvə, ağ dişlərini ağım-ağım ağardıb, ağnayıb dedi:

– Ay yekəbaş, yekəbaz, axı harda görmüsən danışa daş?

Ağ dəvəyə hirslənib, qara daşı götürüb atdım ona tərəf. Gedib-düşdü Səudiyyə Ərəbistanına. Ərəblər orda Kəbəni tikdilər. Hacılarsa "Tövbə"ni... Əliəyri, min bir dilli, südü sıyıq papış tikənləri, ayağı sürüşkənləri, şərəb çəlləyinə girib şərab içənləri, yol kəsən yoldan keçənləri "tövbə" elətdirib göndərdilər "Hacı" olmağa. Mənsə Hacıların saqqalından bir tük çəkib oda tutdum. Ağ dəvənin, ağ dişini, ağ ətini, kəsib ağalara yedirtdim, quyruğunu qara itə

atdım, başını da özüm yedim. Başladım qara eşşəyin, qara palanını sökməyə. Qara palanın içindən bir qara sandıq, çıxdı, sandığın içindən qara pambıq, pambığın içində bir qara kağız.

Qara eşşəyi Qarabağa göndərdim, qara kağızı cibimə qoyub qara palanı özümə yüklədim. Yenə də, həkim pulu, dərman pulu, fərman pulu deyib başladım yeri qazmağa... qarşıma bir qara bulaq çıxdı. Qarabulağın suyundan içib, "yandım"-"yandım"-deyib qara quyuya düşdüm. Qarşıma bir qara qapı çıxdı - üstündə "Mərkəzi Komitə" yazılmışdı. Qapısında bir qara div durmuşdu: bədiheybət, bibiheybət, danışığım hamısı qiybət...

Məni görən kimi qara dişlərini, qara əllərini, qara işlərini "tarım" çəkib "adam badam iyisi gəlir, yağlı adam iyisi gəlir"-deyərək üstümə hücum çəkdi tutaşdıq, qapışdıq, qopuşduq... yorulduq, soyulduq.. oturub mırt vurduq..zirt... Gördüm bu zalım oğluna gücüm çatmayacaq, qara hiylə niqabımı üzümə çəkib, başına kül töküb, qara qıyığı batırdım dabanına.

Elə o saat qara div cəhənnəmə vasil olub gəbərdi. Vaxtı itirməyib qara qəbul otağına girdim, qarasaçlı, qaraqaşlı, qaragözlü qızların qarasaçlarını qara tavandan açıb yerə dü-

şürdüm. Qara quyunun dibinə gətirib özümə arvad etdim. Elə o saatda boşadım. Nə aliment verdim, nə filan.. Qardaşlarım bunu görüb qara fikrə düşdülər. Qara ipımı kəsdilər. Məni qara quyunun içində qoyub getdilər. Qara günlərimi görüb ürəyimdən qara qanlar axdı. Qara göz yaşlarım qara yanağıma süzüldü. Qara quşu, qara atı səslədim gəlmədilər. Qara pişiyi, qara iti səslədim eşitmədilər.

Səsimə döyüşə-döyüşə ağ qoçla qara qoç gəldi. Özümü ağ qoçun üstünə atdım. O da qəzəblənib, “sənə bu da azdır, bəs bilmirsən ki, xalq üçün ağlayan gözündən olar”, -deyib məni qara qoçun belinə atdı, o sa məni qaranlıq dünyaya aparıb çıxartdı.

Bu qaranlıq dünyada qara meyvələrdən yeyə-yeyə, qara heymələrdə yata-yata qara qarğanın, ala balalarını, qara əjdahadan xilas etdim, qara qarğaya minib, qara körpüyə gəlib çıxdım.

Orda isə qarnı yarıq, ayağı sınıq qarışqaya minib, qara buğdanı, qara bibəri, qara zeytunu yeyib, qara dənizin suyundan içə-içə körpünü keçib, dənizlərdə okeanlarda üzdüm, gəldim çıxdım Himalay dağının “kəlləsinə”. Orda çox gözləməyib qanadı qopuq, özü sapiq milçəyə

minib göylərdə uca-uca, yerlərdə qaça-qaça nəhayət işıqlı dünyay yetişdim. Yenə də, həkim pulu, dərman pulu deyigb şikayət etsəm də heç qara qəpik də qazana bilmədim. Evimə gəlib “qara çirağı yandırıb” qara kağızı cibimdən çıxardıb oxudum. Gördüm orda yazılıb: “get ağlına dua yazdır, ay flan, filan!.. dediklərinin hamısı yalan palan, pa-la-n pal-an, yalan, yal-an, al-an. Yal, al”...



*(ardı var)*

**Dənizçi Sındıbadın yalanlarını,**
**yal anlarında yalanladı yalançı oğlu,**
**yal ançı**



## Kitabın içindəkilər


Müəllif haqda .......... 3
«Uğursuz» və «Talehsiz» satira
yazarı (T.Həsənli .......... 7
Öz satira mülkünün şahzadəsi
(Rəhman) .......... 10
Xoruz və fərələri (E.İbrahim) .......... 14
Yazmalar, yozmalar .......... 20
…Məəəə!!!Mooo!!D-üü-d!
Dü-üüü-üü-d!!! .......... 23
Papaq .......... 25
Daş .......... 35
Kaş yağış yağmayaydı .......... 39
Cəsarət .......... 43
Təklif .......... 45
Düymə .......... 47
Harda qaldıq?.. .......... 52
Ev quşu .......... 55
Əvəzçi .......... 59
Ay vəfasız .......... 63
Düz söz .......... 67
Eyni səhv .......... 69
Pişik əhvalatı .......... 72
A bəy saqqız neçəyədir .......... 84
Yuxu .......... 87

Şəxsi iş ........ 90
Tapşırıq ........ 93
Şikayət ........ 95

**Şətrəng kafesi ........ 99**
Mən necə çempion odum ........ 100
Yeddinci gediş ........ 104
Sifariş ........ 107
Lotoreya bileti ........ 109
Biz avropalıları ölməyə qoymuruq ........ 114
Dəb ........ 119
Nadir hədiyyə ........ 123
İnad ........ 126
Ata dərdi ........ 129
Düşər-düşməz ........ 131
Nekroloq ........ 134
Sövdə ........ 136
«Mister-D» ........ 137
«Paparazzi»lər ........ 145
Özüm haqqında hekayə ........ 149
Min misra şeir ........ 159
Ey həyat sən nə qəribəsən ........ 162
Mühəndisin nağılı ........ 166
Min bir xırdavat ........ 168
Tərcümeyi halımın antologiyası ........ 173

“Bayramoğlu Dizayn”
Nəşriyyat-poliqrafiya müəssisəsi

Naşir: **Sənan Aslansoy**

Texniki redaktor: **Sevinc**
Dizayn: **Nicat Cəbrayıllı**
Operator: **Kəmalə Nur**

~~~~~~~~~~~~~~~~~~~~~~~~~~~~~~
Bakı, Mətbuat prospekti, 529-cu məhəllə
“Azərbaycan” nəşriyyatı,
1-ci mərtəbə
Tel: (050) 678-63-68
~~~~~~~~~~~~~~~~~~~~~~~~~~~~~~

Yığılmağa verilib: 24.11.2017
Çapa imzalanıb: 18.12.2017
Şərti çap vərəqi 4.
Fiziki çap vərəqi 16
Ofset çap üsulu.
Əla növ kağız.
500 nüsxə